Xalqın qəzeti!

# Xalq qəzeti

№ 181 (30875) 28 avqust 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Vaşinqton razılaşması müharibənin başa çatdığını göstərir

## *Azərbaycan Prezidenti İlham Əliyev "Əl-Ərəbiyyə" telekanalına müsahibə verib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibə verib. Dövlətimizin başçısının müsahibəsi avqustun 26-da həmin telekanalda yayımlanıb. Müsahibəni təqdim edirik.**

**Müxbir: "Əl-Ərəbiyyə" kanalının hörmətli tamaşaçıları, Sizi Azərbaycan Respublikasının paytaxtından, gözəl Bakı şəhərindən salamlamaq istəyirik. Bu gün mən Azərbaycan Prezidenti İlham Əliyevdən xüsusi müsahibə götürəcəyəm. Əlbəttə, bu görüş ABŞ Prezidenti Donald Trampın dəstəyi ilə Ermənistan və Azərbaycan arasında imzalanmış razılaşmadan sonrakı dövrə təsadüf edir. Bu gün biz həmin tarixi günləri yaşayırıq və həmin məsələ haqqında söhbət açırıq. Eyni zamanda, Azərbaycanın Şərq ilə Qərb arasındakı rolu haqqında da danışacağıq. Həmçinin biz Azərbaycanın Cənubi Qafqazdakı rolunu Prezident İlham Əliyevlə müzakirə edəcəyik. Cənab Prezident, "Əl-Ərəbiyyə" kanalına xoş gəlmisiniz.**

**Prezident İlham Əliyev:** Sizi görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz.

(ardı 2-ci səhifədə)

# Prezident İlham Əliyev "Qarabağ"ı təbrik etdi



**Azərbaycan Prezidenti İlham Əliyev UEFA Çempionlar Liqasının Liqa mərhələsinə vəsiqə qazanması münasibətilə "Qarabağ" futbol klubunu təbrik edib.**

Prezidentin sosial şəbəkə hesablarında edilən paylaşımda deyilir:

"Azərbaycanın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanaraq futbol tariximizdə yeni bir səhifə yazdı! "Qarabağ" klubunun bütün komanda heyətini və azarkeşləri təbrik edirəm!"

# Tramp marşrutu qitələri qovuşduracaq

## *Azərbaycanın milli hədəfi və Avropanın strateji alternativi*

**Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibə Cənubi Qafqazda yeni strateji düzən formalaşdıran Vaşinqton razılaşmasının təfsilatlarını anlamaq üçün mühüm mənbədir. Burada diqqəti cəlb edən əsas məqam – Azərbaycanın illərlə gündəmdə saxladığı və indi "Tramp marşrutu" adlandırılan Zəngəzur dəhlizi məsələsidir.**

*(ardı 6-cı səhifədə)*

# TANAP – Azərbaycandan Avropaya enerji körpüsü




Səhifə ⇨ 9

# Cənubi Qafqazda sülhə təhdid ehtimalı – Ermənistan amili

## *Şimaldan "soyuq küləklər" əsməsə...*




**Bəribaşdan deyək ki, yazımızda Prezident İlham Əliyevin Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində nəzərə çarpan iki bir-biri ilə əlaqəli məqamdan söz açacağıq. O məqamlar ki, Cənubi Qafqazda kövrək sülh mühitinin pozulması ehtimalı ilə bağlıdır.**

Beləliklə, Prezident İlham Əliyev müsahibəsində Bakının İrəvanla formal mahiyyət daşıyan barış sazişinin imzalanmamasının bir xüsusi səbəbini vurğuladı. Söhbət Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan müddəanın mövcudluğundan gedir: "Bildiyimiz qədər, onlar həmin müddəaya dəyişiklik edəcəklər. Elə ki, bu dəyişiklik olundu, yəni, Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar onların konstitusiyasından çıxarıldı, formal sülh sazişi də imzalanacaq".

*(ardı 8-ci səhifədə)*

# Minsk qrupunun ləğvi: İflas etmiş diplomatiyaya vida rekviyemi




**Azərbaycan Prezidenti İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibəsində səsləndirdiyi fikirlər, Cənubi Qafqazda formalaşmış yeni geosiyasi vəziyyətin beynəlxalq hüquq və diplomatiya müstəvisində qəbul olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısının toxunduğu əsas məsələlərdən biri Minsk qrupunun ləğvi ilə bağlıdır.**

*(ardı 7-ci səhifədə)*

# Qələbəyə bərabər "məğlubiyyət"

Səhifə ⇨ 12

# Paşinyan əsas qanunda dəyişikliyə israrlıdır




**Ermənistan konstitusiyasına dəyişikliklər edilməsi məsələsi son aylar ölkə daxilində siyasi gündəmin əsas müzakirə mövzusuna çevrilib. Hakimiyyət bunu dövlət idarəçiliyinin müasirləşdirilməsi və sülh prosesinə uyğun hüquqi baza yaratmaq zərurəti ilə əsaslandırır. Müxalifət isə dəyişiklikləri Paşinyan komandasının Azərbaycanın tələblərini yerinə yetirmək və özünün siyasi mövqelərini möhkəmləndirmək cəhdi kimi qiymətləndirir.**

*(ardı 11-ci səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyev “Əl-Ərəbiyyə” telekanalına müsahibə verib

(əvvəli 1-ci səhifədə)

**Müxbir: Sağ olun, cənab Prezident. İcazənizlə, indi isə mən Donald Trampın vasitəçilik səyləri ilə Ermənistan və Azərbaycan arasında imzalanmış həmin tarixi razılaşmaya istinad etmək istərdim. Həmin razılaşmaya aid ümumi təəssüratınızla tanış olmaq istərdim. Bundan sonra nəyi gözləyək?**

**Prezident İlham Əliyev:** Düşünürəm ki, avqustun 8-də Vaşinqtonda baş verən hadisələr, əslində, qarşıdurmanın və gərginliyin sonu deməkdir. Uzun illərdir ki, biz Ermənistanla müharibə vəziyyətində idik. Məhz Ermənistan 1990-cı illərin əvvəlindən Azərbaycan ərazilərini işğal etmişdi. O zaman Azərbaycan çox zəif idi, ordumuz yox idi. Ermənistanın isə Azərbaycan ərazilərini işğal etməkdə ona dəstək göstərən xarici tərəfdarları var idi.

Beləliklə, ərazimizin təxminən 20 faizi onlar tərəfindən işğal edilmişdi, nəticədə bir milyon qaçqın və məcburi köçkünümüz var idi. Həmin dövrdə bu, əhalinin sayına görə dünyada ən yüksək nisbətlərdən biri idi. Yəni, Azərbaycanın əhalisi o vaxt 8 milyon nəfər idi, onların bir milyonu yurd-yuvasından didərgin düşmüşdü.

Birinci Qarabağ müharibəsi 1994-cü ildə atəşkəslə başa çatdı və biz 2020-ci ilə qədər davam edən sonsuz və gördüyümüz kimi, mənasız danışıqlar prosesində iştirak etdik. Bu proses 2020-ci ilədək davam etdi. 2020-ci ildə isə İkinci Qarabağ müharibəsi başladı və biz beynəlxalq səviyyədə tanınmış ərazilərimizi azad etdik.

Təqribən beş il bundan əvvəl 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan ədaləti, beynəlxalq hüququ və öz ləyaqətini bərpa etdi, torpaqlarını geri qaytardı. Bundan sonra prosesdə müəyyən bir boşluq yarandı, çünki o zaman vasitəçilər artıq hansı addımı atmalı olduqlarını bilmirdilər və məhz Azərbaycan Ermənistanla sülh prosesinə başlamağı təklif etdi. Yenə də məhz biz danışıqlar formatının təşəbbüskarı olduq. Biz sülh sazişinin layihəsini təqdim etdik. Əslində, avqustun 8-də Vaşinqtonda paraflanmış sənəd Ermənistan–Azərbaycan münasibətlərinin dövlətlərarası çərçivədə necə qurulmalı olduğu barədə Azərbaycanın baxışına əsaslanır.

Qeyd etdiyim kimi, danışıqlar bir neçə il davam etdi və nəhayət Vaşinqtonda Prezident Trampın və onun komandasının böyük dəstəyi ilə başa çatdı. Mən hesab edirəm ki, bu, münaqişənin, müharibənin sonudur. Formal olaraq sülh sazişinin imzalanmamasının bir xüsusi səbəbi var - Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü hələ də şübhə altına alan müddəa mövcuddur.

Bildiyimiz qədər, onlar həmin müddəaya dəyişiklik edəcəklər. Elə ki, bu dəyişiklik olundu, yəni, Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialar onların konstitusiyasından çıxarıldı, formal olaraq sülh sazişi də imzalanacaq.

Lakin fakt budur ki, Azərbaycan və Ermənistanın Ağ Evdə Prezident Trampın iştirakı ilə bu sənədi paraflaması müharibənin başa çatdığını göstərir. Bu, mərhələlərlə 30 ildən artıq davam edən müharibənin sonudur və həm Cənubi Qafqaz regionu, həm də daha geniş mənada Mərkəzi Asiya və Yaxın Şərq üçün tamamilə yeni imkanlar açır.

**Müxbir: Cənab Prezident, Siz Ermənistanın konstitusiyasına edilməli düzəlişi qeyd etdiniz. Hazırda sülh haqqında bəhs etdiyimiz zaman düşünürəm ki, əgər Ermənistanda hər hansı daxili siyasi dəyişiklik baş verərsə, bu, həmin prosesə xələl gətirəcəkmi?**

**Prezident İlham Əliyev:** Bunu söyləmək çətindir, yalnız ehtimal edə bilərəm. Ümid edirəm ki, prosesə heç bir müdaxilə olmayacaq. Lakin yenə də məndə yüz faiz zəmanət yoxdur, çünki Ermənistanın daxili siyasəti barədə tam məlumatlı deyiləm. Bilirik ki, gələn yay Ermənistanda parlament seçkiləri keçiriləcək. Həmçinin bilirik ki, onlar yeni konstitusiya layihəsi üzərində işləyirlər. Lakin güclü xarici müdaxilə olarsa, bəli, bu, razılaşmaları poza bilər. Amma bu, Ermənistanın özü üçün çox zərərli olar, çünki Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından Ermənistan lideri tərəfindən imzalanıb. Əgər orada hər hansı dəyişiklik baş verərsə və imzalanmış sənəddən geri addım atılarsa, bu, Ermənistan ilə ABŞ arasındakı münasibətləri ciddi şəkildə pisləşdirər. Bu, yalnız ABŞ-a aid deyil, beynəlxalq ictimaiyyət, Avropa İttifaqı, Türkiyə və ərəb ölkələrindəki dostlarımız da bu prosesi dəstəklədilər.

Beləliklə, bütün beynəlxalq ictimaiyyət bu hadisəni müsbət qarşıladı və razılaşmanı pozmaq bütün dünyaya qarşı çıxmaq deməkdir. Onlar bundan nə qazanacaqlar? Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir.

Birinci Qarabağ müharibəsi haqqında bir az danışdım, amma bilirsiniz, bizimlə baş verənləri təsvir etmək üçün ola bilsin günlər, hətta aylar lazım olar. Orada etnik təmizləmə aparıldı, Xocalı soyqırımı baş verdi, günahsız insanlar öldürüldü. Hələ də itkin düşmüş 3000-dən çox insanımız var və bütün bu hadisələr Azərbaycanda güclü emosional hisslərə səbəb oldu.



2020-ci il müharibəsi bizim qələbəmizlə başa çatsa da, Azərbaycanda hələ də intiqam tələb edən insanlar var idi. Amma mən o vaxt xalqımıza müraciət edərək demişdim ki, biz intiqamı döyüş meydanında aldıq. Biz onların bizə etdiklərini etməyəcəyik, çünki onların bizə qarşı törətdikləri müharibə cinayətləri idi.

Yəni, demək istərdim ki, əgər Ermənistanın hər hansı gələcək hökuməti hakimiyyətə gəldiyi vaxtdan asılı olmayaraq, Vaşinqtonda imzalanan sənədi şübhə altına qoyarsa, Ermənistan ciddi çətinliklərlə üzləşəcək. Çünki regiondakı güc balansı hər baxımdan tamamilə bizim xeyrimizədir. Düşünürəm ki, bu, hər kəsə aydındır. Əgər Ermənistan bir daha bizim ərazi bütövlüyümüzü şübhə altına qoysa, biz də adekvat cavab verəcəyik.

Vaşinqtonda imzalanan sənədin əhəmiyyəti ondan ibarətdir ki, hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıyır və gələcək təmaslarını beynəlxalq hüququn bu fundamental tezisi əsasında planlaşdıracaq. Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil.

**Müxbir: Cənab Prezident, bu razılaşma gələcəkdə dəyişməz olaraq qalmalıdır. Qarabağda çox faciələr baş verib. Orada yenidənqurma işlərinə başlamısınız və həmin bölgədə istər erməni, istər azərbaycanlı məcburi köçkünlər olub. Bununla belə, Minsk qrupu artıq bitdimi?**

**Prezident İlham Əliyev:** Bəli, Minsk qrupunun ləğvi Azərbaycan tərəfindən danışıqların ilkin mərhələlərində irəli sürülmüş şərtlərdən biri idi. Bizim məntiqimiz bundan ibarət idi ki, Minsk qrupu 1992-ci ildə ATƏM tərəfindən Qarabağ münaqişəsinin həlli üçün yaradılmışdı. Ermənistan rəsmi şəkildə Qarabağı Azərbaycanın hissəsi kimi tanıdığını və münaqişənin başa çatdığını bildirdiyi halda, Minsk qrupunun hüquqi mövcudluğu absurddur. Əgər onu saxlamaqda israrlı olsalar, bu, onların Qarabağla bağlı hələ də ərazi iddialarının olduğunu göstərir. Bu, mövqeyimizin əsasında dayanan məntiq idi. Ermənistana anlatmaq üçün çox vaxt və səy sərf etdik ki, hər iki tərəf Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə məktub yazsın və bu, Prezident Trampın iştirakı ilə baş verdi. Hazırda proses artıq başlayıb və bu, Minsk qrupunun hüquqi süqutunu ifadə edəcək, çünki o, artıq beş ildən çoxdur ki, fəaliyyətsizdir.

Məcburi köçkünlərə gəlincə, Birinci Qarabağ müharibəsi zamanı erməni məcburi köçkünü olmayıb, çünki Azərbaycan Ermənistanın ərazisini işğal etməyib, onlar bizim ərazimizi işğal etmişdilər. Buna görə də bu illər ərzində çətin şəraitdə yaşayan çox sayda qaçqın və məcburi köçkünlərimiz oldu. Biz hətta işğal dövründə də köçürülmə proqramını həyata keçirdik, çünki onların tam əksəriyyəti on ildən artıq müddətdə çadır düşərgələrində yaşayırdı. Prezident seçildiyim andan çadır düşərgələrinin ləğvi prosesinə başladıq və bu işi 2007-ci ildə tamamilə yekunlaşdırdıq. Buna baxmayaraq, minlərlə, on minlərlə soydaşımız uzun illər çox ağır şəraitdə yaşamaqda davam edirdi. Hazırda isə “Böyük Qayıdış” Proqramı çərçivəsində onların doğma yurdlarına qayıdışı prosesinə start verilib. Biz artıq 50 mindən çox insanı azad olunmuş ərazilərdə məskunlaşdırmışıq və bu proses davam edir.

Lakin iki əsas maneə var. Birincisi, mina təhlükəsidir. Ermənilər işğal dövründə həmin ərazilərdə bir milyondan çox mina basdırmışdılar. 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsi başa çatdıqdan bu günədək təxminən 400 nəfər mina qurbanı olub. Minalar nəticəsində 70-dən çox insan həlak olub, qalanları isə ağır yaralanıb. Bu səbəbdən biz genişmiqyaslı bərpa işlərinə başlaya bilmirik, çünki, ilk növbədə, təhlükəsizlik təmin edilməlidir.

İkincisi, Qarabağda infrastrukturun tamamilə məhv edilməsidir. Şəhər və kəndlərimiz yerlə-yeksan olunmuşdur. Kanalizasiya, su təchizatı, elektrik xətləri, dəmir yolları, magistral yollar – hamısı tamamilə dağıdılmışdır. Buna görə də bərpanın ilk illərində vəsaitimizin böyük hissəsini məhz infrastrukturun qurulmasına sərf etdik. Paralel olaraq kəndlərin və şəhərlərin tikintisinə də başladıq. Hazırda infrastrukturun inkişafı üzrə artıq yekun mərhələyə yaxınlaşmışıq. Düşünürəm ki, bütün infrastruktur layihələri bəlkə də iki-üç il ərzində tam hazır olacaq.

Hazırda isə vəsaitlərimizi daha çox yaşayış layihələrinə yönəldirik. Artıq gözlə görünür ki, tamamilə heç nə olmayan yerlərdə binalar ucalır. Planımız bütün keçmiş məcburi köçkünlər üçün normal yaşayış şəraiti və iş yerləri təmin etməkdir. Bu proses artıq başlayıb. Dediyim kimi, 50 mindən çox insan artıq öz ata-baba yurdlarında yaşayır.

**Müxbir: Cənab Prezident, əldə edilən bu razılaşmadan irəli gələn əsas məsələlərdən biri də Azərbaycanın arzusu olan və ya bəzilərinin “Tramp marşrutu” adlandırdıqları Zəngəzur dəhlizinin reallaşmasıdır. Mənim sualım belədir: “Necə oldu ki, “Tramp marşrutu” ideyası ortaya çıxdı? Həmin marşrut Azərbaycana hansı mərhələləri vəd edir? Bu isə təbii ki, Sizin dəstəyinizlə baş tutacaq. Bu keçid Azərbaycanla Avropa arasında mühüm strateji rol oynayacaqmı?”.**

**Prezident İlham Əliyev:** Bu suala cavab vermək üçün bir qədər tarixə nəzər salmalıyam və tamaşaçılara izah etməliyəm ki, necə oldu Azərbaycan iki yerə bölündü. Bu, Azərbaycanın sovetləşməsinin ilk aylarında baş verdi. 1917-ci ildə Rusiya imperiyası süqut etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu, 1918-ci ilin mayında qurulan, müsəlman dünyasında ilk demokratik respublika idi. Lakin o, yalnız 1920-ci ilin aprel ayınadək mövcud oldu – həmin vaxt Rusiyanın ordusu Azərbaycana daxil olaraq onu işğal etdi. 1917-ci ildə inqilab edən bolşeviklər xalqa yalan vədlər verirdilər. Şüarlar var idi: “zavodlar fəhlələrə, torpaq kəndlilərə, xalqlara azadlıq”. Biz öz dövlətimizi qurduq, amma bolşeviklər bu dövləti əlimizdən aldılar. 1920-ci ilin aprelində rus ordusu Azərbaycana daxil olub onu işğal etdi. Cəmi bir neçə ay sonra - həmin ilin noyabrında sovet Rusiyası hökuməti qərar qəbul etdi ki, Zəngəzuru – bizim “Qərbi Zəngəzur” adlandırdığımız ərazini Azərbaycandan alıb Ermənistana versin. Bununla da Azərbaycan iki yerə bölündü: əsas hissə və Naxçıvan. Qərbi Zəngəzur isə onların arasında qaldı.

Sovet dövründə bu, problem deyildi, çünki sərhədlər yox idi, müharibə də yox idi. İnsanlar avtomobillə və ya dəmir yolu ilə Azərbaycanın əsas hissəsindən Naxçıvana sərbəst şəkildə gedə bilirdilər. Amma Ermənistan Azərbaycana qarşı təcavüzə başlayandan sonra bu əlaqə xəttini kəsdi. Ermənilər dəhlizi bağladılar.

Bu gün Naxçıvana getmək üçün ya təyyarə ilə uçmalıyıq, ya da avtobus və ya avtomobillə İran ərazisindən keçməliyik. Yaxud daha uzun marşrutla – Gürcüstan və Türkiyə ərazilərindən keçərək Naxçıvana daxil olmalıyıq. Bu, çox narahatlıq və problemlər yaradır. İkinci Qarabağ müharibəsi bizim Qələbəmizlə başa çatdıqdan sonra bu yolu zorla ələ keçirə bilərdik. Həmin vaxt Ermənistan ordusu mənəvi cəhətdən tamamilə sarsılmışdı. Ermənistan ordusunda müharibədən qaçan 12 min fərari olmuşdu, Azərbaycan Ordusunda isə sıfır. Azərbaycan Ordusunda yüksək ruh, insanlarda böyük həvəs oyanmışdı və qarşımızda heç kəs dayana bilmirdi. Biz 2020-ci il noyabrın 10-da, sadəcə, sərhədimizdə dayandıq, bu yolu zorla ələ keçirmədik, amma Ermənistana bildirdik ki, onlar Naxçıvanla əlaqəmizi kəsə bilməzlər. Təxminən beş il ərzində bu əlaqə xətləri ilə bağlı onlarla danışıqlar apardıq. Bu müddət ərzində Naxçıvanla birləşmək üçün Ermənistan sərhədinədək dəmir yolu tikməyə və magistral yollar salmağa başladıq. Magistral yol layihələrinin, eləcə də dəmir yolunun ola bilsin gələn il hazır olacağını gözləyirik.

Amma təxminən beş il ərzində Ermənistan bizim tələblərimiz və qanuni istəklərimiz qarşısında konstruktiv mövqe nümayiş etdirmirdi. Bu səbəbdən Prezident Tramp və onun komandası prosesə cəlb olunduqda, vasitəçilik etmək istəyəndə biz onlara belə mesaj verdik: Zəngəzur dəhlizi fəaliyyətə başlamalı və təhlükəsiz olmalıdır, yəni, Azərbaycan vətəndaşları bu 40 kilometrdən çox məsafəni təhlükəsiz keçə bilməlidirlər, güclü təhlükəsizlik zəmanətləri olmalıdır. Beynəlxalq təhlükəsizlik zəmanətləri təmin edilməlidir. Yalnız Ermənistanın verdiyi zəmanətlər kifayət deyil. Tramp administrasiyası bu qanuni narahatlığı doğru şəkildə qəbul etdi və bunun nəticəsində TRIPP (“Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu”) meydana gəldi. Prezident Tramp Zəngəzur dəhlizinə öz adını verdikdən sonra əminəm ki, bu layihə çox yaxın zamanda reallaşacaq. Fiziki infrastrukturun, yəni, dəmir yolunun tikintisi uzun vaxt tələb etməməlidir, çünki məsafə cəmi 42 kilometrdir. Əgər biz tikməli olsaq, bir il ərzində tamamlayardıq. Ermənistan üçün isə bəlkə də daha bir neçə il lazım olacaq, çünki dəmir yolu tikintisi sahəsində bizim təcrübəmiz daha çoxdur.

**Müxbir: Amerikalı sərmayədarlar tərəfindən?**

**Prezident İlham Əliyev:** Hələ qərar verilməyib, amma bəli, bu, amerikalı investorlar tərəfindən həyata keçirilə bilər. Əslində, bizim üçün bu, vacib deyil. Bizim üçün əsas odur ki, yol tikilsin və beynəlxalq təhlükəsizlik zəmanətləri olsun. Başqa sözlə desək, azərbaycanlılar Naxçıvandan ölkənin əsas hissəsinə və geri səyahət edərkən narahatlıq hiss etməməlidirlər. Uzunmüddətli mübarizəni və düşmənçiliyi nəzərə alaraq, təhlükəsizlikdən narahat olmamalıdırlar. Düşünürəm ki, layihənin həyata keçirilməsi çox yaxındır və indi iş Ermənistanın üzərinə düşür. Bir daha demək istəyirəm ki, Azərbaycanın iki hissəsini birləşdirən bütün infrastruktur bizim ərazimizdə artıq yaradılır. Amma bu, yalnız Azərbaycanın iki hissəsinin birləşdirilməsi demək deyil, bu, yeni nəqliyyat xəttini çəkmək deməkdir.

Bu gün Orta Dəhlizin bir qolu - Asiyadan Xəzər dənizi üzərindən gedən yol Azərbaycandan Gürcüstana, Türkiyəyə və sonra Avropaya, həmçinin Gürcüstan limanlarına çıxır. Bu, Asiyanı Avropaya Azərbaycanın ərazisindən birləşdirən yeganə yoldur. Zəngəzur dəhlizi və ya TRIPP isə alternativ yaradacaq.

İkinci dəhliz Ermənistan ərazisindən keçəcək. Bu isə Ermənistan üçün faydalıdır. Mən bu mesajı erməni həmkarlarıma çatdırmağa çalışmışam ki, nəticədə onlar tranzit ölkəyə çevriləcəklər. Potensialı varsa, hər bir ölkə tranzit ölkəyə çevrilməyə çalışır. Məsələn, biz tranzit ölkə olmaq istəyirik. İstəyirik ki, Şərqdən Qərbə, Şimaldan Cənuba dəhlizlər Azərbaycandan keçsin. Ermənistan isə işğal səbəbindən bu imkanlardan məhrum olmuşdu. Ölkədən keçən tranzit yoxdur. Zəngəzur dəhlizi sayəsində Ermənistan nəqliyyatdan tranzit haqqı əldə edəcək. Azərbaycanın ərazisi vasitəsilə Asiyadan Avropaya daşınan yüklərin həcminin hər il artdığını nəzərə alsaq, əminəm ki, Zəngəzur dəhlizi qitələri birləşdirən vacib nəqliyyat əlaqəsi olacaq.

**Müxbir: Cənab Prezident, Siz Zəngəzurun vacibliyi haqqında danışdınız. Həmin imzalanmadan sonra iki tərəf var - Rusiya və İran. Mən İrandan başlayım. Bildiyim qədər, İran Prezidenti Azərbaycana səfər edib. Onun kökləri azərbaycanlılarla bağlıdır. O, burada Azərbaycan dilində danışırdı. Hazırkı geosiyasi dəyişikliklərdən sonra Azərbaycan ilə İran arasında münasibətləri necə görürsünüz?**

**Prezident İlham Əliyev:** Bəli, haqlısınız. İran Prezidenti Azərbaycana səfər edib, əslində, iki dəfə səfər edib. Birincisi, rəsmi səfər idi, ikincisi isə Xankəndi şəhərində, azad edilmiş Qarabağda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə qatıldı. Biz onunla çox yaxşı işgüzar münasibətlər qurmuşuq.

Bəli, siz tamamilə haqlısınız, o, azərbaycanlıdır. O, mənim kimi eyni qanı daşıyır. Biz eyni dildə danışırıq. Tərcüməçiyə ehtiyacımız yoxdur. O, ictimai tədbirlərin birində Azərbaycan poeziyası ilə bağlı biliklərini nümayiş etdirdi və heç bir qeydə ehtiyacı yox idi. Çox istedadlı insandır.

**Müxbir: Buna görə də maraqlıdır.**

**Prezident İlham Əliyev:** Bu, həqiqətən də yaxşı fürsətdir. Düşünürəm ki, bizim şəxsi münasibətlərimiz və onun administrasiyası ilə mənim administrasiyam arasında münasibətlər çox konstruktiv, çox mehribandır. İranın yeni hadisələrlə bağlı rəsmi mövqeyinə gəlincə, biz bunu çox əsaslı və çox müsbət hesab edirik. Mən rəsmi mövqe deyəndə Prezidentin, xarici işlər nazirinin mövqeyini nəzərdə tuturam. Bu, rəsmi mövqe hesab olunur.

**Müxbir: Digərlərinin mövqeyi necə?**

**Prezident İlham Əliyev:** Biz siyasətimizi İran xalqı tərəfindən seçilən və öz vəzifəsini yerinə yetirmək səlahiyyətinə malik olan, yəni, Prezident kimi siyasətçilərə əsasən qururuq. Hazırda müşavir kimi adlandırılan bəzi keçmiş rəsmilər tərəfindən müəyyən fikirlər səsləndirilmişdir. Nə məsləhətlər verirlər, bilmirəm. Dərhal reaksiya oldu...

**Müxbir: Siz rəhbərin müşavirini və digərləri nəzərdə tutursunuz?**

**Prezident İlham Əliyev:** Bəli. Bu mövqe bizim üçün heç cür əhəmiyyətli deyil. Bizim üçün bunun əhəmiyyəti sıfırdır, çünki dövlətlərarası münasibətlərimiz hökumətlər, prezidentlər, xarici işlər nazirləri arasında qurulur. Buna görə də dırnaqarası müşavirlərin bu yalançı rəvayətlərinə qətiyyən məhəl qoymuruq. Beləliklə, bizim üçün hər şey aydındır. Prezidentin mövqeyi tamamilə məntiqlidir və ona əsaslanır ki, Zəngəzur dəhlizi heç bir halda İran üçün təhlükə deyil. Bəzi media orqanlarında, bəzi internet saytlarında Azərbaycanın Zəngəzuru işğal edəcəyinə, İranla Ermənistan sərhədini kəsəcəyinə dair planlar barədə çoxlu şayiələr yayılmışdır. Bu, tamamilə yalandır. Bizim belə bir niyyətimiz yoxdur. Hər halda, etmək istəsəydik, edərdik. 2020-ci ilin noyabr ayında bunu etmək çox asan idi. Bu son beş il ərzində də bunu etmək çox asan idi. Cəmi 40 kilometrdir, hərbi baxımdan çox vaxt aparmayacaqdı. Sadəcə, hər iki tərəfdən - Naxçıvandan və Azərbaycanın bu tərəfindən gəlirsən və götürürsən.

**Müxbir: Azərbaycanın bunun üçün də gücü var.**

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə ki, bunu hamı bilir. Hətta pis məsləhətlər verənlər də bilirlər ki, bunun üçün bizim gücümüz var. Biz təcavüzkar olmadığımız üçün bunu etmədik. Biz işğal edən ölkə deyilik, biz əraziləri azad edən insanlar və ölkəyik. Bizim işimiz bundan ibarət idi və bizim müharibə də ədalətli idi. Müharibəmiz azadlıq müharibəsi idi. Müharibəni öz torpaqlarımızda, ədalətin bərpası naminə aparmışıq. Beləliklə, bu baxımdan hesab edirəm ki, bizim indi Ermənistan-İran sərhədini kəsməyi planlaşdırdığımızla bağlı bütün bu söz-söhbətlər tamamilə əsassızdır. Bunu hamı bilir. Yeri gəlmişkən, bu beş il ərzində Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olanda biz İran Hökuməti ilə yenə də hökumətlərarası razılığa gəldik ki, İran ərazisində əlavə yol çəkiləcək və o, Araz çayının adı ilə - “Araz dəhlizi” adlanırdı.

(ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyev “Əl-Ərəbiyyə” telekanalına müsahibə verib

(əvvəli 2-ci səhifədə)



Azərbaycan Ermənistandan yan keçmək üçün Araz çayı üzərində körpünün tikintisinə xeyli vəsait yatırır. Xəritəyə baxsanız, bunun çətin olmadığını görəcəksiniz. Siz, sadəcə olaraq, Ermənistan-Azərbaycan sərhədinə çatırsınız, sonra sola dönürsünüz, çay üzərində körpü tikirsiniz və İran ərazisində 40 kilometr gedirsiniz, sonra yenidən Naxçıvana daxil olursunuz. Belə ki, bu layihə artıq icra mərhələsindədir. Ermənistandan keçən dəhliz açılanda bizim iki yolumuz olacaq, yükləri çatdırmaq üçün daha çox imkanlarımız olacaq - bir yolla İrandan, digər yolla Ermənistandan. Biz İran hökumətindəki həmkarlarımızla onu da müzakirə etdik ki, çayın digər sahilində, İran ərazisində dəmir yolunun tikintisi zərurəti yarana bilər. Belə olarsa - İran həmin yolu inşa etsə, yüklərin bir hissəsi İrandan keçəcək. Daha önəmlisi odur ki, yanlış məsləhətlər verən bəzi müşavirlər də başa düşmürlər ki...

**Müxbir: Yenə də həmin müşavirlər...**

**Prezident İlham Əliyev:** Bu, təkcə Azərbaycanla Azərbaycan arasında deyil, təkcə Şərqlə Qərb arasında deyil, həm də Şimalla Cənub arasında bağlantıdır. Bu gün Cənub-Şimal dəhlizi...

**Müxbir: Əslində, mən bu haqda soruşacaqdım. Bəli, sualı verə bilərəm?**

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir: Zəngəzur dəhlizi İranda mövcud olan Şimal dəhlizinə təsir edəcəkmi?**

**Prezident İlham Əliyev:** Bəli, bu, sadəcə, dəstək olacaq. Çünki əvvəlcə planlaşdırılmış və layihələndirilmiş Şimal-Cənub dəhlizi Şimaldan, Şimali Avropadan, Rusiyadan, Azərbaycandan, İrandan, Fars körfəzindən düz xətlə gedir. Xəritəyə baxsanız, o, Azərbaycan ərazisindən, qismən də Xəzər dənizinin sahilindən keçməkdədir.

**Müxbir: Bu yollar bir nöqtədə birləşir.**

**Prezident İlham Əliyev:** Bəli, hazırda belədir. Deməli, bu, tamamilə Azərbaycan ərazisində tikilmiş həqiqi Şimal-Cənub dəhlizidir. Rusiya sərhədindən İran sərhədinədək dəmir və magistral yolları əlaqəmiz var. Çatışmayan hissə İran ərazisindədir. Onlar təxminən 150 kilometrlik və ya daha çox hissəni tikməlidirlər. Lakin bu, müəyyən vaxt aparacaq, bəlkə də bir neçə il. Bəs, Şimalla Cənub arasındakı əlaqələr necə qurulacaq? Zəngəzurdan keçə bilər. Xəritəni göz önünə gətirsəniz, həmin yol Şimali Avropadan Rusiyaya, Azərbaycana, sonra Azərbaycandan Zəngəzura gedə, Naxçıvana daxil ola, - və oradan isə bizim İranla dəmir yolu əlaqəmiz var, - və onunla Fars körfəzinə çıxmaq olar. Deməli, əslində, Zəngəzur dəhlizi təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal-Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq - Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana. Beləliklə, düşünürəm ki, bütün region üçün hamının udacağı vəziyyət yaranacaq və heç kim bundan itirməyəcək. Sualınıza qayıdaraq qeyd edim, mən bilirəm ki, İran Hökuməti bunu başa düşür və Azərbaycan bütün bölgə ölkələri arasında regional əməkdaşlığı gücləndirmək üçün hər şeyi edəcək.

**Müxbir: Digər tərəfdən Rusiya da var. Azərbaycan təyyarəsinin vurulması ilə bağlı əlaqələr artıq əvvəlki kimi deyil. Hazırda bununla bağlı Moskva ilə diplomatik münasibətlərə yenidən baxılacaqmı?**

**Prezident İlham Əliyev:** Azərbaycanın mülki təyyarəsinin Rusiya tərəfindən vurulması və Rusiya rəsmilərinin buna reaksiyası ölkəmizdə çox böyük məyusluq və təəssüf doğurdu. Birincisi, ilk növbədə, təyyarəyə atəş açılmamalı idi, çünki Rusiya hava limanlarına dron hücumları baş verəndə onlar xüsusi rejim elan edirlər. Bu rejim “xalça”, rus dilində “kavyor” adlanır. Dron hücumu olanda bütün təyyarələrə xəbərdarlıq göndərilir və onlar geri qayıdır. Həmin təyyarə qəzaya düşməzdən iki həftə əvvəl Rusiyanın həmin şəhərinə uçan digər təyyarəmiz oxşar hal ilə üzləşmiş, ona vaxtında müvafiq xəbərdarlıq verilmiş və həmin təyyarə geri dönmüşdü. Bu dəfə bu siqnalı vermədilər. Təyyarə artıq vurulandan sonra siqnal verdilər. Bunu yalnız araşdırma prosesini aparacaq şəxsləri çaşdırmaq üçün etdilər. İki dəfə atəş açdılar. Yalnız pilotların peşəkarlığı və cəsarəti təyyarəni yerə endirməyə imkan verdi. Xoşbəxtlikdən təyyarə Rusiyada deyil, Qazaxıstanda eniş etdi. Enişdən sonra qəza baş verdi. Bəzi sərnişinlər sağ qaldı, bizdə ifadə verənlər var. Təyyarədə olan, gövdəyə daxil olan qəlpələrdən yaralanan iki nəfər var. Təyyarənin qalıqları da var və mən dərhal heyəti oraya göndərdim. Uzaq deyil, uçuş cəmi 40 dəqiqədir. Komandamız dərhal oraya getdi və hər şeyi lentə aldı. İnternetdə tapa bilərsiniz. Bütün gövdədə qəlpə dəlikləri var idi. O, Rusiyanın hava hücumundan müdafiə sistemi tərəfindən vurulub. Beləliklə, ilk növbədə, təyyarənin vurulması baş verməməli idi və bu, faciəvi bir səhv idi.

Sizə yenə də İkinci Qarabağ müharibəsindən bir misal çəkə bilərəm. Müharibənin sonuncu günündə - noyabr ayının 9-da Azərbaycan öz sərhədinə yaxınlaşan rus helikopterini təsadüfən vurdu, halbuki o, orada olmalı deyildi. Çünki otuz il ərzində rus helikopterləri Ermənistan ərazisindən Azərbaycan sərhədinə heç vaxt yaxınlaşmamışdı. O, Ermənistandan uçaraq gəlirdi. Helikopteri vuranlar üçün açıq-aydın idi ki, Ermənistan helikopteri ərazimizə daxil olur, ona görə də onlar onu vurdular. Həmin gün mən dərhal Rusiya Prezidentinə zəng etdim və üzrxahlığımı bildirdim. Biz həlak olan pilotların ailələrinə və Müdafiə Nazirliyinə dərhal təzminat ödədik. Biz istintaq başlatdıq və bu faciəli səhvə yol verənlər məsuliyyətə cəlb olundular. Lakin Rusiya tərəfindən belə addımların atıldığını görmədik. Beləliklə, noyabrın 9-da baş verən bu faciəli hadisə və davranışımız bizi Azərbaycana qarşı eyni münasibətin sərgilənməsinə hazır etdi, çünki iki ölkə bir-birini dost adlandırır. Lakin bu, çox təəccüblü idi. Bu vaxtadək onlar nəyin baş verdiyini demirlər. Beləliklə, bu, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdə ciddi məsələdir, lakin biz əlaqələri gərginləşdirmək istəmirdik. Bəli, bu, xalqımızı məyus edib, qəzəbləndirib və qəmginliyə salıb. Biz gözləyirik, gec və ya tez istintaq başa çatacaq. Lakin sonra Rusiyada azərbaycanlılara qarşı səbəbsiz hücumlar başladı. İki insan qətlə yetirilmişdir və işgəncələrə məruz qalmışlar. Sonra da rəsmi məlumata görə, onların ürək tutmasından öldüyü bildirildi. Hətta onlar deyilənlərə görə, 20 il bundan əvvəl cinayət törədiblərsə, onlar insandırlar, onlarla belə davranılmamalıdır. Bu, nə münasibətdir? Onların sırasında Azərbaycan vətəndaşları, Azərbaycan mənşəli Rusiya vətəndaşları da var idi. Bu, bizim xalqımıza qarşı misli görünməmiş hərəkət idi. Münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür. Biz yalnız konstruktiv və hüquqi şəkildə cavab veririk, lakin heç vaxt bizə qarşı təcavüz əlamətlərinə və təzahürlərinə, yaxud hörmətsizliyə dözməyəcəyik.

**Müxbir: Kiçik bir sualım var. Bu münasibətdən sonra Siz Azərbaycanın etməyə çalışdığının qarşısını almaq üçün Rusiyanın hər hansı bir hərəkətə əl atacağından qorxmursunuz? Mən coğrafiyanı, dəhliz və sair məsələləri nəzərdə tuturam.**

**Prezident İlham Əliyev:** Onların Ermənistanda hərbi bazası və bir neçə min nəfərdən ibarət hərbi heyəti var. Eyni zamanda, Ermənistanın İran və Türkiyə ilə sərhədi Rusiya sərhədçiləri tərəfindən qorunur. Azərbaycan torpağında bir nəfər də rus əsgəri yoxdur. Beləliklə, Ermənistanda nə baş verə bilər, mən bunu bilmirəm. Lakin mən bu mənfi ssenari haqqında düşünmək istəmirəm.

**Müxbir: İcazə verin, Yaxın Şərqdən olduğum üçün Yaxın Şərqə keçim. Siz, həmçinin Yaxın Şərq ilə İsrail arasında vasitəçilik rolu oynamısınız. Siz Suriyaya təbii qaz təchiz etmək üçün dəstəyinizi göstərirsiniz. Mənim sualım belədir. İsrail ilə Suriya arasında baş verən hadisələr və Sizin vasitəçiliyinizlə atılan addımlar bu iki ölkə arasında gərginliyin azaldılmasına gətirib çıxaracaqmı?**

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, İsrail ilə Suriya arasında münasibətlərin normallaşması üçün imkanlar var. İlk növbədə, sizin Suriyaya təbii qazın təchizi ilə bağlı qeydlərinizə toxunmaq istərdim. Bilirsiniz ki, Prezident Əsədin hökuməti ilə bizim 10 ildən çox heç bir münasibətimiz yox idi. Onlar Azərbaycanla çox ədalətsiz davranmışdılar, bizim Ermənistanla qarşıdurmamızda Ermənistanın tərəfinə keçdilər. Bu da bizim üçün çox qəribə idi, çünki işğal illəri ərzində müsəlman ölkələri tərəfindən çox güclü dəstək aldıq və İslam Əməkdaşlıq Təşkilatı bizə həmişə dəstək olmuşdur. Azərbaycan İslam həmrəyliyi prinsiplərinə yüksək dəyər verən ölkədir. Beləliklə, Azərbaycana qarşı Ermənistanla - məscidləri dağıdan, orada donuz və inək saxlayan ölkə ilə eyni cərgədə olmaq bizim üçün qəbuledilməz idi. Hər iki tərəf - Prezident Əsədin komandası və bizim komanda 10 ildən çox müddət ərzində bütün əlaqələri kəsdi. Suriyada yeni hökumət iqtidara gəldikdə, biz bunu böyük ruh yüksəkliyi ilə qarşıladıq və sözsüz ki, dəstəklədik. Bu ilin aprelində Türkiyədə mənim Əhməd Əl Şaraa ilə görüşüm oldu və onu səfərə dəvət etdim. O da Azərbaycana rəsmi səfər etdi. Biz Suriyaya humanitar yardım etməyə başladıq. Mən Suriyaya necə faydalı olacağımızı, onlar üçün nə edə biləcəyimizi öyrənmək üçün Baş nazirin müavininin rəhbərlik etdiyi böyük bir qrupu oraya göndərdim. Biz uzun illər boyu əziyyət çəkmiş bu ölkə, onun xalqı üçün yalnız sülh istəyirik. Biz onların sülh içində yaşamalarını və orada inkişafı görmək istəyirik. Beləliklə, işlər başlayıb. Sonra da elektrik enerjisi qıtlığı məsələsi diqqətimizə çatdırıldı və biz də necə yardımçı ola biləcəyimiz haqqında düşünməyə başladıq. Bizim Suriyaya təbii qazı elektrik enerjisinə çevirməyə kömək etmək üçün Azərbaycan, Suriya, Türkiyə və Qətər arasında dördtərəfli razılaşmamız oldu. Bu prosesin açılış mərasimi avqustun 2-də keçirildi. Azərbaycan qazı Türkiyə ərazisindən Suriyaya təchiz edilir və Qətər hökuməti bunun üçün vəsait ayıraraq öz səxavətini göstərdi. Hələ ki, biz 1,2 milyard kubmetr qazın Suriyaya təchiz edilməsi üzrə razılığa gəldik. Lakin onlara daha çox qaz tələb olunur. Ona görə də gələcəkdə biz qazın həcmini artıra bilərik ki, onlarda daha az qıtlıq olsun. Yeri gəlmişkən, Suriya ilə İsrail rəsmiləri arasında danışıqlar bizim vasitəçiliyimizlə baş tutdu. Biz ətrafımızda sülhün olmasını istəyirik. Təcavüz və müharibədən əziyyət çəkən ölkə və xalq olaraq biz qaçqınlığın, evsizliyin, qaz, elektrik enerjisinə, suya və ya qidaya malik olmamağın nə olduğunu başa düşürük. Biz uzun illərdir ki, donor ölkə kimi fəaliyyət göstəririk. Biz 80-dən çox ölkəyə maliyyə dəstəyi, humanitar dəstəyi təmin edirik. Bizim məqsədimiz yalnız normallaşma prosesinə və İsrail ilə Suriya arasında proqnozlaşdırılabilən vəziyyət yaratmağa kömək etməkdən ibarət idi. Əgər biz buna azacıq da olsa, kömək edə bildiksə, buna şadıq. Biz münasibətlərin normallaşması üçün potensialın mövcud olduğunu görürük və bu da Yaxın Şərqə sülhün, proqnozlaşdırmanın əlavə elementlərini gətirəcək.

**Müxbir: İsrail Suriyanın bütövlüyünə hörmət edərək, bu normallaşmaya razı olub?**

**Prezident İlham Əliyev:** Bəli, sözsüz. Azərbaycan ərazi bütövlüyünün pozulmasından əziyyət çəkən bir ölkə olaraq bütün ölkələrin ərazi bütövlüyünü dəstəkləyir. Bizim bununla bağlı mövqeyimiz birmənalıdır. Yenə də Azərbaycan-Rusiya münasibətləri ilə bağlı müzakirə etdiklərimizə qayıdaraq deyim ki, biz Rusiyanın Ukraynaya müdaxiləsinin ilk günlərindən Ukraynanın ərazi bütövlüyünü dəstəklədik və dəstəkləməyə davam edirik. Əlbəttə ki, Suriyanın birliyi və ərazi bütövlüyü hər hansı münasibətlər üçün bir nömrəli ilkin şərtdir. Söhbət təkcə hüquqi baxımdan bütövlükdən və sərhədlərə nəzarətdən getmir, söhbət fiziki birlikdən gedir. Ölkənin mərkəzləşdirilmiş sistemi, yaxud ən azından siyasi təsisatlarla bağlı fəaliyyət göstərən bir sistemi olmalıdır. Biz separatizmin istənilən təzahürlərinə qarşıyıq - istər Qarabağda, istər Suriyada, istərsə də dünyanın hər hansı bir digər yerində olsun.

**Müxbir: Əlbəttə ki, biz Sizin rəhbərliyinizlə Azərbaycanın bu vasitəçilik prosesində önəmli rol oynadığını anlayırıq. Bəs, Türkiyə və İsrail barədə nə deyə bilərsiniz? Sizin bu ölkələr arasında apardığınız vasitəçiliyi deyirəm. Bilirsiniz ki, kürdlərlə bağlı məsələ Türkiyə üçün narahatlıq doğuran məsələdir. İsraillə Türkiyə arasında hazırkı vasitəçilik barədə nə deyə bilərsiniz?**

**Prezident İlham Əliyev:** Biz normallaşma üçün imkan yarandığını görəndə yardımçı olmağa çalışırıq. Türkiyə ilə İsrail arasında normallaşmanın birinci mərhələsində Azərbaycanın rolu hər iki ölkə tərəfindən qiymətləndirilib. Bilirsiniz ki, İsrail Prezidenti İsxak Hersoq Türkiyəyə səfər etdi. Biz şad olduq ki, iki ölkə arasında ümumi dil tapılır. Hazırda isə Türkiyə ilə İsrail arasında münasibətlər hər zaman olduğundan daha gərgindir. Ona görə də əgər bizdən kömək etmək xahiş olunsa, biz bunu edərik. Əgər edilməsə, ola bilsin ki, biz, sadəcə olaraq, ümumi dil tapmağa yardım etmək üçün çox da ictimailəşdirilməyən diplomatik səylər göstərməyə çalışarıq. Çünki ən mühüm olanı təhlükəsizlikdir. Biz təhlükəsizliyin dəyərini çox yaxşı bilirik. 30 ildən çox müddətdə müharibə şəraitində, müharibənin müxtəlif formalarında yaşamışıq. Bu, sizi tamamilə bununla məşğul olmağa vadar edir.

Prezident olaraq 17 il ərzində, - prezident seçiləndən Qarabağı azad edənə qədər, - bu, mənim üçün 1 nömrəli, 2 nömrəli, 10 nömrəli məsələ idi. Mən gecə-gündüz bununla məşğul idim. Bu, təkcə mənim yox, bütün komandanın diqqətini bəlkə də daha tez və daha səmərəli şəkildə görülə biləcək digər məsələlərdən yayındırırdı. Beləliklə, istənilən potensial təhlükə, hətta fiziki qarşıdurmanın istənilən hipotetik təhlükəsi insanlara, ölkələrə, onların iqtisadiyyatlarına, kredit reytinqlərinə - hər şeyə zərər verir. Təcrübəmizə əsaslanaraq, - çünki bizim işğal altında olmaq təcrübəmiz var, qalib ölkə olmaq təcrübəmiz var, müharibə şəraitində olmaq təcrübəmiz var, indi bizim sülhə necə nail olmaq təcrübəmiz var,- biz bilirik bunu necə etmək lazımdır. Bundan əlavə, bizim şaxələndirilmiş xarici siyasət istiqamətlərimiz də Azərbaycana hadisələrin mərkəzində olmağa imkan verir. Çünki bu gün az sayda ölkə hazırda çətin vəziyyətdə olanlarla çox səmimi şəkildə danışa bilər. Biz bunu etməyə hazırıq. Ümidvarıq ki, bu işləyəcək. Lakin əlbəttə ki, biz heç kəsə özümüzü məcburi təqdim etmirik. Sadəcə, bizdən xahiş ediləndə zəruri olanı edirik.

**Müxbir: Cənab Prezident, iki qısa sualım var. Hazırda Azərbaycan Yaxın Şərqdə böyük rol oynayır. Bu rol təkcə Azərbaycanın təbii qazı ilə ölçülmür. Sualım daha çox Avropa və Şərq ölkələrinə nəql edilən Azərbaycanın təbii qazı ilə əlaqədardır. Mümkündürmü ki, əgər Azərbaycanın təbii qazı bəzi ərəb ölkələrinə nəql olunsa, oradakı ümumi vəziyyətə yardım etsin? Ümumiyyətlə, ərəb ölkələri ilə münasibətləriniz necədir?**

**Prezident İlham Əliyev:** Enerjiyə gəlincə, bəli, siz haqlısınız, bizim təbii qaz üçün əsas istiqamətimiz Avropadır. Biz 10 Avropa ölkəsini qazla təmin edirik. Onların 8-i Avropa İttifaqının üzvüdür. Beləliklə, bu ölkələr üçün Azərbaycan qazı onların enerji təhlükəsizliyində həqiqətən də mühüm rol oynayır və bu rol artacaq. Mən artıq qarşıdan gələn illər üçün planlarımızı açıq elan etmişəm. Biz 2030-cu ilədək bu gün sahib olduğumuzdan əlavə 8 milyard kubmetr təbii qazı əmin şəkildə təmin edəcəyik. Məsələ onun necə, hansı istiqamətdə istifadə olunmasıdır.

Sözsüz ki, təbii ehtiyatlarımızla Yaxın Şərqə daxil olmaq bizim üçün ilk təcrübədir. Artıq qeyd etdiyim kimi, düşünürük ki, Suriyaya qazın həcmini artıra bilərik. Biz, həmçinin Ərəb Qaz Kəməri, yaxud başqa mübadilə əməliyyatları vasitəsilə digər ölkələri qazla təchiz edə bilərik. Biz, həmçinin enerji resurslarının ticarətini həyata keçiririk. Biz neft və qazımızı satmaqla yanaşı, beynəlxalq ticarətçi kimi fəaliyyət göstəririk. Bizim potensialımız təsəvvür ediləndən daha böyükdür. Bu nöqteyi-nəzərdən düşünürəm ki, bu, mühüm amildir.

Yaxın Şərq ölkələri ilə, əsasən Körfəz Əməkdaşlıq Ölkələri ilə əməkdaşlığa gəlincə, əlaqələr çox yaxşıdır - dostcasına və nəticəyönümlüdür. Bu ölkələrlə çox güclü tərəfdaşlığımız var. Yeri gəlmişkən, bizim bərpaolunan enerjidə əsas sərmayədarlar Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanından olan şirkətlərdir. Onlar bizim əsas sərmayədarlardır. Onlar indi investisiya yatırırlar.

Yeri gəlmişkən, bizim bərpaolunan enerji potensialımız aşağı qiymətləndirilməməlidir. İmzalanmış müqavilələrə və BƏƏ, Səudiyyə Ərəbistanı və Çindən yatırılan investisiyalara əsasən, biz 2030-cu ilədək 6 giqavat Günəş və külək enerjisinə sahib olmağı planlaşdırırıq. Bundan əlavə, biz Qarabağda fəal şəkildə su elektrik stansiyaları inşa edirik. Artıq demək olar ki, 300 meqavat enerji əldə etmişik. Beləliklə, bu, Azərbaycanla Körfəz Əməkdaşlıq Ölkələri arasında əlaqələrin mühüm tərkib hissəsidir. Çünki bizim faydalı qazıntı yanacağımız var, həmçinin biz bərpaolunan enerji üzərində fəal şəkildə işləyirik. Biz birlikdə bir çox yaxşı layihələr həyata keçirə bilərik. Yeri gəlmişkən, BƏƏ-nin çox mühüm enerji şirkəti ADNOC Xəzər dənizində bizim ən böyük qaz yataqlarımızdan birinin səhmdarı olub. Eyni zamanda, bizim dövlət şirkətimiz SOCAR BƏƏ-də neft hasilatı layihələrindən birinin səhmdarı olub. Hazırda biz geniş əməkdaşlıq portfeli üzərində işin həqiqətən fəal mərhələsindəyik. Siyasi əlaqələr mükəmməldir. Biz əsas diqqəti enerji və digər sahələrdə - mehmanxana işi, turizm, kənd təsərrüfatında praktiki investisiya layihələrinə yönəldirik. Beləliklə, bir çox layihələr reallaşma mərhələsindədir. Məsələn, Səudiyyə Ərəbistanının aparıcı şirkətlərindən birini biz Xəzər sahilində suyun duzsuzlaşdırılması zavodunun inşasında tərəfdaş kimi seçmişik. Bu, kənd təsərrüfatı, eləcə də insanlar üçün çoxlu imkanlar yaradacaq. Bu, bizim xarici siyasət gündəliyimizin böyük bir hissəsidir. Deyərdim ki, Körfəz ölkələri ilə əməkdaşlıq xarici siyasətimizin başlıca prioritetlərindən biridir.

**Müxbir: Cənab Prezident, əlavə olaraq, Azərbaycanın Cənubi Qafqaz regionunda əhəmiyyəti barədə. Düşünürəm ki, ölkəniz regional proseslərdə mühüm rol oynayır. Azərbaycan sünni və şiə icmaları arasında yaxşı münasibətlərin qurulması istiqamətində hər hansı bir addım ata bilərmi?**

**Prezident İlham Əliyev:** Bilirsiniz, Azərbaycan cəmiyyətində bütün məzhəblərdən olan müsəlmanlar bir ailə kimi yaşayırlar. İslamın müxtəlif qolları arasında heç bir ayrı-seçkilik olmayıb.

**Müxbir: Burada deyil, bütövlükdə.**

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir: Platforma kimi, Siz bir vasitəçi olaraq.**

**Prezident İlham Əliyev:** Siz tamamilə haqlısınız. Bu, bizim təcrübəmizə əsaslanır, təkcə şüarlara, bəyanatlara əsaslanmır. Çünki çoxlu bəyanatlar verilə bilər, lakin siz məsələnin məğzinə, Azərbaycanda bu məsələlərin necə həll olunduğuna baxmalısınız. Bizim üçün, ilk növbədə, milli, etnik kimlik gəlir. İkincisi, vətəndaşlıqdır. Yaxud ola bilər ki, vətəndaşlıq birinci, etnik kimliklə yanaşıdır. Azərbaycanlıların mütləq əksəriyyəti üçün məzhəb məsələsinin ümumiyyətlə yeri yoxdur, heç 100-cü yerdə də deyil. Azərbaycanlılar etnik qrup kimi İslamın müxtəlif qollarından olan nümayəndələrdən ibarətdir. Lakin biz hamımız etnikliyimizlə, dilimizlə və dövlətimizlə birləşmişik. Təkcə müsəlmanlar deyil, Azərbaycanda digər dinlərin nümayəndələri də özlərini eyni cür hiss edirlər. Müstəqillik dövründə bu sahədə gördüyümüz işlər həmin müsbət tendensiyaları gücləndirməkdən ibarət olub. Azərbaycan şiə və sünni müsəlmanların eyni vaxtda eyni məsciddə ibadət etdikləri az sayda ölkələrdən biridir. Biz fərq qoymuruq.

(ardı 4-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyev “Əl-Ərəbiyyə” telekanalına müsahibə verib



(əvvəli 3-cü səhifədə)

Biz düşünürük ki, müsəlman dünyası üçün ən böyük təhlükə məzhəblərə ayrılmaqdır. Müsəlman dünyasına ən böyük ziyanı məzhəb ayrılığını təbliğ edən insanlar vururlar. Biz bir olmalıyıq. Biz müsəlmanıq və bizim üçün bir nömrəli məsələ budur. İstənilən xarici müdaxilədən tamamilə azadıq. Çünki biz təkcə dəyərlərimizi təbliğ etmirdik, biz, həmçinin ideoloji cəhətdən özümüzü istənilən növ müdaxilədən, müsəlmanlar arasında nifrət toxumu səpmək cəhdlərindən qorumalı idik. Bu, müsəlman dünyasında yüksək qiymətləndirilir.

Mənim müsəlman dövlətlərinin aparıcı dini rəhbərləri ilə keçirdiyim çoxsaylı görüşlər onu göstərir ki, İslam dünyasında istər siyasi olsun, istər dini sahədə bizim rolumuz yüksək qiymətləndirilir. Biz göstəririk ki, bu mümkündür və biz uğur hekayəsini nümayiş etdiririk. Biz göstəririk ki, burada sülh, sabitlik və rahatlıq mövcuddur. İnsanların məhz buna ehtiyacı var. İnsanların sülh içərisində, xoşbəxt yaşamağa, öz övladlarını böyütməyə və işləməyə, başlarına bomba düşəcək, yaxud kimsə yaşadığı yerə bomba qoyacaq deyə qorxularının olmamasına ehtiyacları var.

Biz mədəniyyətlərarası dialoq sahəsində də bir çox işlər görürük. Biz hər iki ildən bir müntəzəm olaraq mədəniyyətlərarası dialoq üzrə beynəlxalq konfranslar keçiririk. Biz həmin konfranslarda bütün mühüm məsələləri, - təkcə müsəlmanlar üçün deyil, bütün dinlər üçün mühüm əhəmiyyət kəsb edən məsələləri, - müzakirə edirik. Bu baxımdan bizim rolumuz əsasən burada gördüyümüz işlərə və bunu başqa yerlərdə də necə edə bilərik düşüncəsinə əsaslanır. Hesab edirəm ki, indi müsəlman ölkələrinin mütləq əksəriyyətinin siyasi dairələrində, - mənim prezidentlər arasında bir çox əlaqələrim var, - hamı başa düşür ki, müsəlmanlar həmrəy olmalıdırlar və məzhəblərə bölünmə bizim birliyimiz üçün təhlükədir.

**Müxbir: Beləliklə, Siz Körfəz ölkələrinin “rifah naminə sülh” baxışını dəstəkləyirsiniz.**

**Prezident İlham Əliyev:** Düzdür.

**Müxbir: Cənab Prezident, Siz Prezident Trampla görüş keçirdiniz. Mən onu Amerika prezidentləri arasında müstəsna şəxsiyyət hesab edirəm. Görüş zamanı Sizə ən çox təəssürat bağışlayan məqam nə oldu? Siz həqiqətən onun namizədliyini Nobel Sülh Mükafatına irəli sürəcəksinizmi?**

**Prezident İlham Əliyev:** Bəli, düzdür, erməni həmkarımla birlikdə Prezident Trampın Nobel Sülh Mükafatına namizədliyini irəli sürdük. O, həqiqətən buna layiqdir. Vaşinqtonda şərhlərimdə də qeyd etdiyim kimi, o, bir neçə ay ərzində Afrikada, Asiyada, Cənubi Qafqazda möcüzə yaradıb. Bu, onun xarakteridir, bu, onun təbiətidir. O, sülh istəyir. O, Qərb liderlərinin ənənəvi imicindən tamamilə fərqli bir şəxsiyyətdir. O, çox mehribandır. O, bütün hədiyyələrini, hətta planlaşdırılandan daha çoxunu verəcək qədər çox səxavətlidir. O, həqiqətən də böyük tərifəlayiq insandır. Bu, mənim onunla ilk görüşüm idi, ancaq siyasətçi kimi ona münasibətim həmişə müsbət olub. Hətta onun ilk prezidentlik dövründə belə, - ancaq o vaxt görüşmək imkanımız olmayıb, xüsusilə də o, “dərin dövlət”in nümayəndələri tərəfindən seçki saxtakarlığı ilə seçilməkdən məhrum edilib, - onun qələbəsini əlindən aldılar. Onun poçtla göndərilən səs bülletenləri ilə bağlı fikirləri tamamilə düzgündür. Çünki Amerika administrasiyaları həmişə bütün dünyaya necə yaşamalı, demokratiyanı necə qurmalı, seçkiləri necə təşkil etməli olduğumuz barədə mühazirə oxumağı xoşlayır. Lakin onlar özləri Prezident Trampı qələbədən məhrum edərək, ona qarşı ən böyük seçki saxtakarlığını etdilər. O, prezident olmadığı müddətdə özünü çox layiqli şəkildə aparıb. O, böyük cəsarət və ləyaqət nümayiş etdirərək Amerikada yenidən hakimiyyətə qayıtdı. Qurbağalarla dolu bütün bu bataqlıqlar - USAID, “Radio Liberty”, “Washington Post”, “New York Times”, “Wall Street Journal”, “Newsweek” kimi saxta xəbər mənbələrinin hamısı onun əleyhinə idi. Məni necə ləkələyirdilərsə, eləcə də hamısı onu ləkələyirdilər. Bəlkə də eyni səviyyədə deyildi, amma eyni şəkildə idi, şayiələr yayırdılar.

**Müxbir: Necə ki, Baydenin zamanında baş verdi.**

**Prezident İlham Əliyev:** Bəli.

**Müxbir: 907-ni qüvvədə saxladılar...**

**Prezident İlham Əliyev:** Bəli, tamamilə elədir. Bayden “907-ci düzəliş”i yenidən tətbiq etməyə başladı. “907-ci düzəliş” 2001-ci ildə dayandırıldı. Niyə? Çünki onların Əfqanıstanda bizə ehtiyacları var idi. Onlara səmamız, dənizimiz lazım idi. Onlara dəmir yolu lazım idi. Biz Amerika logistikasına və daşımalara çox mühüm dəstək verdik. Beləliklə, Bayden Əfqanıstandan qaçan kimi bizə yenidən sanksiya tətbiq etdilər. Axı, necə belə nankor olmaq olar?! Beləliklə, onların haqqında nə düşünə bilərdik? Biz onlarla bütün əlaqələri kəsdik. Bayden administrasiyası ilə əlaqələr sıfra enmişdi. Bu, bir fəlakət idi. Tramp isə tamamilə fərqlidir. Əminəm ki, o, nəinki Amerikanı yenidən qüdrətli edəcək bir insandır, o, Amerikanın rifah, azadlıq və inkişafın rəmzi olduğu bütün dövrlərdəki kimi, ölkəni yenidən insanların heyran olduğu yerə çevirəcək. Altı ay ərzində bu qədər məkana sülh gətirməyi bacarırsa, əminəm ki, bunu edəcək. Amma sistemin ona qarşı güclü müqaviməti var. Həm də vurğulamaq istədiyim bir şey də var ki, xüsusilə də mənə təsir edən sui-qəsd cəhdi zamanı onun özünü necə aparması idi. Bunu oynamaq mümkün deyil. Heç bir nitq yazan, heç bir siyasi məsləhətçi bunu edə bilməz ki, adam belə reaksiya versin. O, cəsur insan və böyük liderdir. Mən həqiqətən də fəxr edirəm ki, o, mənə dostu kimi yanaşır.

**Müxbir: Cənab Prezident, sonda yekun sualımı verim. Türkdilli dövlətlər arasında Azərbaycan mühüm rol oynayır. Siz bu rolu necə görürsünüz? Gələcəkdə Azərbaycan öz regionunda və qonşuluğunda rolunu necə görür?**

**Prezident İlham Əliyev:** Türk Dövlətləri Təşkilatı hazırda böyük potensiala malikdir. Azərbaycan daim bu qurumu gücləndirməyə sadiq olub. Bu, bir növ məşvərətçi qrup, şura, ölkələr qrupu kimi fəaliyyətə başlayıb, sonra isə transformasiya edib. O, böyük potensiala malikdir.

Türkiyə ilə bizim çox sıx münasibətlərimiz var və bu münasibətlər hazırda 2021-ci ildə Şuşada Prezident Ərdoğanla imzaladığımız, bizi hərbi və siyasi müttəfiqlər edən Bəyannaməyə əsaslanır. Bu, hüquqi cəhətdən təkcə hər iki ölkə üçün deyil, bütün Türk dünyası üçün mühüm amildir. Keçən il biz Özbəkistanla müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Həmçinin Türk Dövlətləri Təşkilatının digər üzvləri ilə bizim strateji tərəfdaşlıq müqavilələrimiz və ya bəyannamələrimiz var. Beləliklə, bu, böyük potensialdır.

Bizi köklərimiz birləşdirir və bu, təşkilatı nadir edir. Çünki digər beynəlxalq təşkilatlara baxsaq, onların hamısını deyil, bəlkə də bir qismini ortaq etnik qrup birləşdirir. Bəli, biz müxtəlif xalqlarıq, amma hamımızın kökləri ortaqdır və bu, türk etnik mənsubiyyətimizdən irəli gəlir. Ölkələrimizin əhalisinin sayı artır və bu da hər bir ölkə üçün vacib amildir. İqtisadi inkişafla dəstəklənəndə isə bu, üstünlük deməkdir. Ölkə kasıb olduğu zaman bəzən bunun mənfi nəticələri də olur. Amma bizim ölkələr kasıb deyil. Hər ölkə olmasa da, ölkələrimizin bir çoxu təbii sərvətlərə malikdir.

Bizim geniş coğrafiyamız var. Türkiyə qlobal miqyasda aparıcı hərbi gücdür və Türkiyə ordusu NATO daxilində ABŞ-dan sonra ikinci yerdədir. Azərbaycan Ordusu da özünü paradlarda deyil, döyüş meydanında nümayiş etdirdi. Həmçinin logistika. Bu gün dəhlizlərdən danışanda bizdən yan keçə bilməzsiniz. Siz bizim ərazimizdən, obyektlərimizdən istifadə edə bilərsiniz. Həm də vacib olan odur ki, təşkilatın bütün üzvlərində siyasi sabitlik, bir-biri və hamısı arasında dost münasibətlər mövcuddur. Bu, təşkilatı həqiqətən nadir edir. Ona görə də biz onu konkret layihələrlə, investisiyalarla, enerji, daşımalar, mədəniyyət layihələri ilə möhkəmləndirməliyik. Ona görə də mən gələcəkdə bu təşkilatı mühüm qlobal iştirakçılardan biri kimi görürəm. Beləliklə, bizim fikrimiz beynəlxalq arenada rol oynaya bilən, təkcə daxili məsələlərlə məşğul olmayan qlobal oyunçuya çevrilməkdən ibarətdir ki, həm də beynəlxalq arenada sabitləşdirici, müsbət rol oynasın və qonşular üçün imkanlar yaratsın. Bununla da biz belə bir nəhəng coğrafiyada heç kimə təhlükə törətməyən, lakin çoxları üçün fürsət hesab edilən güclü birlik qura biləcəyimizi nümayiş etdirək.

**Müxbir: Söhbətimizin sonunda Sizə səmimi minnətdarlığımızı bildirirəm. “Əl-Ərəbiyyə” kanalında Sizi görməkdən çox məmnun olduq. Cənab Prezident, çox sağ olun. Hörmətli tamaşaçılar, bununla xüsusi görüşümüz başa çatır. Azərbaycan Prezidentindən Azərbaycanın paytaxtında müsahibə götürdük.**

*AZƏRTAC*

# DTX-nin “Bilgəh” istirahət mərkəzində Vətən müharibəsi iştirakçıları ilə görüş



**Dünən Dövlət Təhlükəsizliyi Xidmətinin “Bilgəh” istirahət mərkəzində Vətən müharibəsi iştirakçıları ilə ənənəvi görüş keçirilib.**

Vətən müharibəsi veteranları mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olublar. Görüş rəsmi və bədii hissə ilə davam edib. Çıxış edənlər dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və qətiyyətli sərkərdəliyi, yenilməz Azərbaycan Ordusunun rəşadəti və əzmi sayəsində 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Zəfərdən öyünclə söz açıblar. Onlar haqq savaşında əldə olunmuş tarixi qələbənin 5-ci ildönümünün ölkəmizdə ümumxalq şənlikləri ilə qeyd ediləcəyini vurğulayıblar.

Bildirilib ki, Vətən müharibəsi ilə başlanan taleyüklü missiya 2023-cü ilin sentyabrında dövlət suverenliyinin bərpa olunması ilə nəticələnməsi hər bir vətənpərvər azərbaycanlıda sonsuz qürur doğurur.

Görüş vətənpərvərlik mövzusunda konsert proqramı ilə başa çatıb.

*XQ*

## Moldova Respublikasının Prezidenti Zati-aliləri xanım Maya Sanduya

**Hörmətli xanım Prezident!**

Moldova Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk.

Əminəm ki, ölkələrimizin və xalqlarımızın mənafeləri naminə birgə səylərimizlə Azərbaycan-Moldova əlaqələrinin mövcud potensialından daha səmərəli istifadə olunmasına, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran fəaliyyətimizin daha da inkişafına nail ola bilərik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Moldova xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 avqust 2025-ci il**

## Fransa səfirinin xidmət müddəti bitib



**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın ölkəmizdəki səfiri Ann Buayon ilə Azərbaycandakı diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb. Azərbaycan–Fransa münasibətləri, habelə regional və beynəlxalq məsələlər əsas müzakirə mövzuları olub.**

Nazir Ceyhun Bayramov səfir Ann Buayonun ölkəmiz üçün tarixi və əlamətdar bir dönəmdə Fransanın Azərbaycanda səfiri qismində fəaliyyət göstərdiyini bildirib. O, ölkəmizdə diplomatik fəaliyyətini yekunlaşdıran səfirə bundan sonrakı fəaliyyətində uğurlar arzu edib. XİN rəhbəri Azərbaycan–Fransa münasibətlərində mövcud çətinliklər və çağırışlara baxmayaraq, dialoq kanallarının açıq saxlanılmasının vacibliyini vurğulayıb.

Nazir qarşı tərəfi regional sülh gündəliyinin irəlilədilməsi istiqamətində atılan addımlar, o cümlədən tarixi Vaşinqton görüşünün nəticələri və təfərrüatları barədə məlumatlandırıb. O, ölkəmizin hər zaman sülh tərəfdarı olduğunu və Vaşinqton görüşünün də bunu sübut etdiyini diqqətə çatdırıb.

Səfir Ann Buayon ölkəmizdəki diplomatik fəaliyyəti dövründə göstərilən dəstək və əməkdaşlığa görə təşəkkürünü ifadə edib.

*XQ*

## Azərbaycan – Uqanda əməkdaşlığı müzakirəsi



**Avqustun 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Uqanda Respublikasının xarici işlər üzrə dövlət naziri Con Mulimba arasında görüş keçirilib.**

Söhbət zamanı Azərbaycan–Uqanda münasibətlərinin siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, humanitar və sair aspektləri, regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, Afrika İttifaqı çərçivəsində əməkdaşlıq məsələləri, habelə regional məsələlər müzakirə olunub.

Azərbaycan və Uqanda arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə qarşılıqlı təbriklərini çatdıran tərəflər ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş perspektivlərin mövcudluğunu məmnunluqla qeyd ediblər. Ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində irəli sürülən təşəbbüslərin həyata keçirilməsi, o cümlədən hərəkatın Gənclər Təşkilatının əsasının qoyulması zamanı sərgilənən birgə əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Ceyhun Bayramov, həmçinin müqabil tərəfə ölkəmizin alternativ enerji mənbələrinin inkişafı və istifadəsinin genişləndirilməsi üzrə təşəbbüs və planları barədə ətraflı məlumat verib, bərpaolunan enerji sahəsinin əməkdaşlığın inkişaf etdirilməsi üzrə potensial istiqamətlərdən biri olduğunu diqqətə çatdırıb. Dövlət xidmətlərinin göstərilməsi sahəsində Azərbaycanın “ASAN xidmət” modelinin Uqandada uğurlu tətbiqinin ölkələrimiz arasında təcrübə mübadiləsinin faydalılığının göstəricisi olduğu vurğulanıb.

*

Həmin gün Azərbaycan Respublikası ilə Uqanda Respublikası arasında siyasi məsləhətləşmələr keçirilib. Müzakirəyə Azərbaycandan nazir müavini Yalçın Rəfiyev, Uqanda tərəfindən isə xarici işlər üzrə dövlət naziri Con Mulimba rəhbərlik edib.

*XQ*

## Uqandalı nazir Qoşulmama Hərəkatı Gənclər Təşkilatında

**Dünən Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) mənzil-qərargahında Uqandanın xarici işlər üzrə dövlət naziri Con Mulimba və Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin qurum üzvləri ilə görüşü keçirilib.**

Söhbət zamanı bildirilib ki, Uqanda Respublikasının hazırda Qoşulmama Hərəkatına sədrlik etməsi fonunda belə tədbirlərin təşkil olunması xüsusilə əhəmiyyət kəsb edir. İştirakçılar qarşılıqlı əməkdaşlıq imkanlarını müzakirə edərək gənclərin beynəlxalq proseslərdə daha fəal iştirakının vacibliyini vurğulayıblar. Nazir Con Mulimba çıxışında gənclərin təşkilati fəaliyyətlərdə iştirakı, onların qlobal çağırışlara verdiyi töhfələr və yeni təşəbbüslərin reallaşdırılmasında rolu barədə danışıb.



Görüş zamanı gənclərin müxtəlif mövzularda sualları cavablandırılıb, onların ideya və təşəbbüsləri dinlənilib.

*XQ*

## Azərbaycan jurnalistləri NATO qərargahında

**Avqustun 27-də Azərbaycan Respublikasının mətbuat nümayəndələrindən ibarət heyət NATO-nun mənzil-qərargahında olub.**



Azərbaycan milli mətbuatının 150 illik yubileyinə təsadüf edən builki səfər çərçivəsində heyət NATO-nun müxtəlif strukturlarının təşkil etdiyi alyansın cari gündəliyi, ictimai diplomatiya və strateji kommunikasiyalar, dezinformasiyaya qarşı mübarizə sahəsində təcrübəsi və yanaşmaları, sosial media, həmçinin media məkanında texnoloji yeniliklər və innovativ üsulların tətbiqi və digər bu kimi mövzularda brifinqlərə qatılıb.

Nümayəndə heyəti Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyini də ziyarət edib.

*XQ*

# Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformaları



## III məqalə

### Dövlətin nüfuzetmə dərəcəsi

Əməkdaşlıq platforması təşəbbüsünü irəli sürmüş dövlət başçısının ölkənin geosiyasi nüfuzetmə miqyası və dərəcəsini dəqiq müəyyən etməsi prinsipial əhəmiyyət daşıyır. Çünki bu məqam dövlət identikliyinin kollektiv, yaxud eqoist kateqoriyaya aid olmasını göstərən parametrlərdən biridir. Əgər təşəbbüskar dövlət daha çox öz marağını nəzərə alıb, əməkdaşlıq formatında dominantlığa amiranə üsullarla çatmağı qarşısına məqsəd qoyursa, fərqli bir formul meydana gəlir. Əgər təşəbbüskar dövlətin başçısı qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq, ortaq təhlükəsizlik və birgə inkişaf meyarlarını əsas tutursa, fərqli əməkdaşlıq formatı alınır. Bu iki vacib seçim arasında tərəddüd olmamalıdır, yəni səmimi və ədalətli olmaq mütləq şərtdir. Bu əsasda, birincisi, təşəbbüskar dövlətin əməkdaşlıq plaforması kontekstində uyğun geosiyasi məkana nüfuzetmə dərəcəsi müəyyən olunur, ikincisi, ondan asılı olaraq əməkdaşlıqda iştirak edən bütün dövlətlərin maraqlarının sinxronlaşdırılması imkanları "ölçülür". Bu özəllik istənilən geosiyasi məkanın üç əsas müəyyənedici parametrlərindən biridir.

Beləliklə, "Əliyev üçbucaqları"nda nüfuzetmə dərəcəsi və onlar arasında münasibətlərin optimal müyyən edilməsi dəqiq kriteriyalar üzərində bərqərar olur. Onlar üçün başlıca xüsusiyyətlər tarixi ədalətlilik, humanitarlıq, hüquqilik və qarşılıqlı faydalı əməkdaşlıqdır. Bu dörd faktorun bir-birini tamamlaması əsasında həm təşəbbüskar dövlət kimi Azərbaycanın maraqları, həm də iştirakçı dövlətlərin maraqları müəyyən edilir. Nəticədə bütün işitrakçı dövlətlərin "əməkdaşlıq üçbucağı"nda ortaq maraqları təmin olunur.

Bu bağlılıqda təcrübə göstərir ki, "Əliyev üçbucaqları"nın hər birində ölkələrin milli təhlükəsizliyi ilə təhlükəsizliyin başqa növləri arasında gerçək bağlantı mövcud olur. Bu, enerji, kommunikasiya, informasiya, logistika sferalarının hər biri üzrə təhlükəsizliyin təmininə aiddir. Nümunə kimi, Azərbaycan-Gürcüstan-Türkiyə və bu əməkdaşlıq "üçbucağı"nın Avropa ölkələri ilə əməkdaşlıq formatlarının hər birində enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdətdə çıxış etməsini stimullaşdırmasını göstərə bilərik.

2020-ci ildən sonra isə Azərbaycan geosiyasi məkanın digər çox mühüm elementi olan "qlobal səviyyədə çoxölçülü və multistruktur xarakterli əməkdaşlıq imkanlarının aydınlaşdırılması" istiqaməti üzrə vacib yenilik etmişdir. Həmin yenilik enerji, kommunikasiya, informasiya və logistika aspektləri üzrə təhlükəsizliklərin Avropa ölkələrinin milli təhlükəsizlikləri ilə yeni səviyyədə "geosiyasi hibridləşməsi" ilə bağlıdır. Məsələnin bu tərəfini geniş izah etməyə ehtiyac vardır.

### İlham Əliyevin əməkdaşlıq platformalarının genişlənməsi prinsipi

Nümunə kimi cəmi bir neçə konkret əməkdaşlıq platformalarına baxacağıq. Bu, ümumi müqayisə aparmağa və yekun qənaətə gəlməyə yetərlidir. Azərbaycan-Özbəkistan-Türkmənistan, Azərbaycan-Qazaxıstan-Türkiyə və Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlıq "üçbucaqları"na nəzər salaq. Bu əməkdaşlıq platformalarının hər birində Avropa ölkələri ilə əməkdaşlıq potensialı mövcuddur. Əgər onlara vahid geosiyasi konfiqurasiyanın elementləri kimi baxsaq, maraqlı inteqrativ mənzərə alınır.

Birincisi, "əməkdaşlıq üçbucaqları"nın hər birində Azərbaycan iştirak edir. Özbəkistan, Qazaxıstan, Gürcüstan və Türkiyə bu anlamda əməkdaşlıq imkanlarını Azərbaycandan qaynaqlanan təşəbbüslər əsasında müəyyən etməli olurlar. Həmin kontekstdə üç türk dövləti - Türkiyə, Qazaxıstan və Özbəkistan həndəsi olaraq özünəməxsus "üçbucaq" yaradırlar. Nəticədə beş türk dövləti vahid şərtlər daxilində geniş əməkdaşlıq sahəsi formalaşdırırlar. Çox mühüm faktordur ki, Gürcüstan bu "türk kollektivçi"liyində heç bir prosesdən kənarda qalmır və ona qarşı zərrə qədər də ayrı-seçkilik edilmir. Əksinə, Gürcüstan yaxın və doğma tərəfdaş kimi Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan və Türkmənistan tərəfindən qəbul edilir.

Bunun geosiyasi olaraq başlıca səbəbi İlham Əliyevin üçtərəfli əməkdaşlıq platformalarının təməlinə qoyduğu ümumi şərtlərdir. Onlar tarixi ədalətlilik, humanitarlıq, hüquqilik kriteriyaları əsasında qarşılıqlı faydalı əməkdaşlığı təmin edirlər. Bu, "Əliyev üçbucaqları"nın yüksək geosiyasi əməkdaşlıq potensialına sahib olmasını təmin edən başlıca məqamdır və onu digər formatlardan keyfiyyət və məqsədcə fərqləndirir.

İlham Əliyevin əməkdaşlıq platformalarının həm davamlı, həm də müsbət nəticəverici olmasının təməlində Azərbaycan liderinin ədalətlilik, humanitarlıq və hüquqiliyi əsas götürməsini ciddi qəbul etməyənlər vardır. Bunu müxtəlif dairələrdən yayılan informasiyaların məzmunundan duymaq olur. Lakin biz şübhə etmirik ki, Azərbaycan Prezidentinin əsaslandığı həmin kriteriyalar irəli sürdüyü platformaların uğurlu olmasının bazasını təşkil edirlər. Dünyanın ən güclü dövlətlərinin, yüksək iqtisadi, texnoloji və digər inkişafa malik ölkələrinin liderləri faktdır ki, əməkdaşlıq platformalarının uğurluluğunda İlham Əliyev səviyyəsində deyillər. Azərbaycan dövlətçilik və liderlik ənənəsindən qaynaqlanan ədalətlilik, hüquqilik, bəşəri dəyərlərə dərin sayğı və xalqın özünütəşkiletmə mədəniyyəti dövlət başçımızın əməkdaşlıq platformalarının ruhunu təşkil edirlər.

İkincisi, Azərbaycanın Gürcüstana olan münasibəti dövlətimizin bütövlükdə qlobal səviyyədə çoxölçülü və multistruktur xarakterli əməkdaşlıq viziyonunun təməlini təşkil edir. Buna görədir ki, Avropa İttifaqı zaman-zaman Azərbaycana qərəzli yanaşsa da, sonucda etdiyi etiraf belə oldu: "Azərbaycan Respublikası dövləti etibarlı tərəfdaşdır!" Şübhə etmirik ki, Qərbin bu etirafı etməsində "Əliyev üçbucaqları" çox ciddi rol oynamaqdadırlar. Çünki qərbli diplomatlar görürlər ki, Azərbaycanın təşəbbüs etdiyi hər bir üçtərəfli əməkdaşlıq formatı praktiki sahədə müsbət nəticələr verir və hətta onların bazasında Avropa miqyasında əməkdaşlıq platformaları yaratmaq şansı meydana gəlir.

Üçüncüsü, Azərbaycan-Özbəkistan-Türkmənistan, Azərbaycan-Qazaxıstan-Türkiyə və Azərbaycan-Gürcüstan-Türkiyə əməkdaşlıq formatlarının hər biri üçün enerji faktoru ilə yanaşı, informasiya, nəqliyyat, logistika, ekologiya və bütövlükdə kommunikasiyanın inkişafı qarşılıqlı əlaqədə əhəmiyyət daşıyır. Vurğulanan istiqamətlər həmin əməkdaşlıq platformalarının hər birində ayrılıqda mövcuddur. Bununla yanaşı, o tərkib hissələri iştirakçı 6 dövlətin münasibətlərini inteqrativ aspektdə özündə ehtiva edirlər.

Burada dövlətlərin birgə inkişafının rəmzi kimi inteqrasiyalarının Azərbaycan modelinin müxtəlif əsasları mövcuddur. Onların sırasında rəmzi xarakter daşıyan və Yeni Azərbaycan Partiyasının simvolu olan "çiçəklənən dəfnə ağacının səkkiz guşə yaradan üçbucaqların qarşılıqlı əlaqəsi" fonunda təsvir edilməsi faktını nəzərə almaq gərəkdir. Bu, ümumiyyətlə, Azərbaycan dövlətçilik ənənəsində və idarəetmə psixologiyasında baza şərtlərin dəqiq nizamlı konfiqurasiyasına və ona hər zaman əməl edilməsi zərurətinə işarədir. Yəni artıq dövlətlərarası münasibətləri qurmaq ənənəsində həm özünü, həm də əməkdaşlıq etdiyi hər bir dövləti inkişaf etdirmək psixologiyası möhkəm yer almışdır. İlham Əliyev XXI əsrdə bu ənənəni daşıyan və inkişaf etdirən uğurlu liderdir!

Vurğuladığımız üç özəlliyin fonunda üçtərəfli əməkdaşlıq formatlarının Azərbaycanın qarşısında geosiyasi status aspektində geniş üfüqlər açdığı nəticəsini hasil etmək olar. Bunu dərk etmək üçün bir neçə geosiyasi anlayışın məzmununa baxmaq gərəkdir.

### Cənubi Qafqaz passibilizmi

Vurğulamışıq ki, "passibilizm" fransızca "possible" sözündəndir və "mümkün olan" deməkdir. Burada "mümkünlük" deyəndə hər hansı dövlətin və ya geosiyasətdə subyektin tarixi transformasiyalarının dinamikasına coğrafi məkanın təsir dərəcəsi nəzərdə tutulur. Passibilizmə görə, coğrafi məkan və daha geniş anlamda coğrafi determinantların kompleksi (relyef, təbii ehtiyatlar, etnokültürəl faktorlar və s.) öncədən tarixi müəyyən etmirlər, lakin onu bu və ya digər istiqamətə meyillənləndirə (daha güclü formada yönəldə) bilirlər.

Buradan avtomatik sual meydana gəlir: əgər biz passibilizmin bu mənasını qəbul etsək, onda dövlət konkret hansı faktorlara görə öz tarixini yaradır? Burada müəyyənedici və aparıcı rolu kimlər və ya nələr oynayırlar? Çünki bir halda ki, coğrafi determinantlar mümkünlük sahəsi yaradırlar, orada hansı istiqamətin reallaşa biləcəyi və bunun necə həyata keçəcəyi məsələsi önəm daşıyır. Bu da öz növbəsində dövlətin hər konkret tarixi mərhələdə seçim hüququndan necə istifadə etməsi məsələsini aktuallaşdırır. Bu seçimi edən dövlətin başçısı və xalqın lideridir.

Cənubi Qafqazın timsalında passibilizmin parametrlərini görə bilərik. XX əsrin son onilliyində tarix bu regionun dövlətlərini seçim qarşısında qoydu. Azərbaycan, Gürcüstan və Ermənistan eyni coğrafi məkanda, lakin fərqli təbii determinantlara malik ölkələr kimi öz yollarını müəyyən etməli idilər. "Fərqli determinantlar" ifadəsi təbii, mədəni, coğrafi, resurs və relyef fərqliliklərinin kompleksini nəzərdə tutur. Həmin determinantlar liderin edəcəyi seçimin mahiyyətindən asılı olaraq dövlətləri öz transformasiya zonasına yönəldəcəkdi. Ulu öndər Heydər Əliyevin seçimi ən uğurlusu oldu. Azərbaycan hüquqi, demokratik, beynəlxalq normalara dəqiq əməl edən, humanitar mahiyyətli, sülhsevər və ədalətli siyasi kurs həyata keçirən dövlət identikliyinə üstünlük verdi. Daha əhəmiyyətlisi ondan ibarət idi ki, digərlərindən fərqli olaraq Azərbaycan etdiyi geosiyasi, siyasi və konseptual seçimin mahiyyətinə tam uyğun siyasət yeritdi.

Əslində, müasir Azərbaycan Respublikasının praktikasında ilk üçtərəfli əməkdaşlıq formatının əsasını Heydər Əliyev Azərbaycan-Gürcüstan-Türkiyə nümunəsində yaratmışdır. Hər kəs xatırlayır ki, buna nail olmaq üçün Ulu öndər fövqəladə yüksək siyasi zəka, diplomatik məharət və müdrikliklə yanaşı, qətiyyətli siyasi iradə nümayiş etdirmişdir. Yalnız Heydər Əliyevin liderlik keyfiyyətləri sayəsində Azərbaycan-Gürcüstan-Türkiyə "üçbucağı" konkret Bakı-Tbilisi-Ceyhan layihəsində öz əyani təcəssümünü tapa bildi. Bu layihənin qəbul edilməsindən sonra XXI əsrin üçüncü onilliyinin ortalarına qədər bu regionda və ona yaxın geosiyasi məkanlarda baş verən proseslər Ümummilli liderin seçiminin yüksək səviyyədə düzgün olduğunu göstərməkdədir.

Prezident İlham Əliyev siyasi varislik prinsipi çərçivəsində Ulu öndərin həmin əməkdaşlıq nümunəsini yaradıcı olaraq mövcud geosiyasi şəraitə tam uyğunlaşdıraraq inkişaf etdirmişdir. Müxtəlif üçtərəfli əməkdaşlıq platformaları arasında daxili əlaqələri məharətlə müəyyən edərək və onların təkamül dinamikasını düzgün proqnozlaşdıraraq həqiqi mənada yeni əməkdaşlıq şəbəkəsi formalaşdırmışdır. Bu şəbəkə artıq Cənubi Qafqazın hüdudlarından çox kənara çıxmışdır və dünya miqyasında əməkdaşlıq nümunəsi olmaqdadır. Regionun digər iki dövləti Gürcüstan və Ermənistan bu məqsəddən hələ çox-çox uzaqlardadırlar. Bunu sübut etməyə ehtiyac yoxdur.

Beləliklə, Cənubi Qafqaz passibilizminin mühüm əlamətlərindən biri region dövlətlərinin hər birinin özünün coğrafi determinantlarından fərqli istifadə edə bilməsindən ibarətdir. Məsələnin bu tərəfi "tətbiqi geosiyasət" və "strateji paytaxt" anlayışları ilə sıx bağlıdır. Onların izahı verilməlidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Vaşinqton razılaşmasını pozmaq İrəvanı fəlakətə aparar

**Ermənistanda hazırkı hakimiyyətə və şəxsən baş nazir Nikol Paşinyana qarşı güclü müxalifət mövcuddur desək, yəqin ki, səhv etmərik. Onlar bütün güclərini səfərbər edib indidən 2026-cı il iyunun 7-də keçiriləcək parlament seçkilərinə hazırlaşırlar. Hətta seçki prosesini gözləməyə "səbri çatmayıb" Paşinyanı impiçment yolu ilə iqtidardan uzaqlaşdırmaq planı gündəmdən düşmür. Bu istiqamətdə il ərzində təşəbbüs də irəli sürülmüşdü. Ancaq təşəbbüs müəllifləri parlamentdə yetərincə tərəfdar toplaya bilmədikləri üçün uğursuz oldular.**



Hazırda ölkənin birinci prezidenti Levon Ter-Petrosyan və onun Erməni Milli Konqresi, ikinci prezident Robert Koçaryan və parlamentdə 29 mandata malik "Hayastan" fraksiyası, üçüncü prezident Serj Sarkisyan və ona bağlı Respublika Partiyası, Artur Vanetsyanın "Şərəfim var" fraksiyası, "Daşnaksütyun" partiyası, Erməni Apostol Kilsəsi, sabiq xarici işlər naziri Vardan Oskanyan, sabiq ombudsman Arman Tatoyan, həbsdə olan erməni əsilli rusiyalı milyarder Samvel Karapetyan, arxiyepiskoplar Baqrat Qalstanyan, Mikael Acapaxyan, Qarabağdakı keçmiş separatçı rejimin tör-töküntüləri, diaspordakı bir çox ermənilər Paşinyanı devirmək üçün necə deyərlər, dəridən-qabıqdan çıxırlar. Diaspor erməniləri, xüsusilə Rusiya, Fransa və ABŞ kimi erməni diasporunun tarixən güclü olduğu ölkələrdəki hay icması (Rusiya Erməniləri İttifaqı, Fransa Erməni Təşkilatları Koordinasiya Şurası və Amerika Erməni Milli Komitəsi) da Paşinyanın əleyhinədir. Belə geniş spektrə malik anti-Paşinyan elementlərinin gələnilki seçkilərdə əlaqələndirilmiş şəkildə fəaliyyət göstərərək indiki iqtidarı devirməyə çalışacaqlarını proqnozlaşdırmaq çətin deyil.

Əlbəttə, işğalçı keçmişə malik Ermənistanın daxili siyasi həyatı bizim üçün ona görə maraqlıdır ki, hələ də bu ölkə ilə sülh sazişi imzalanmayıb. Hələ də bu ölkədə Azərbaycana qarşı ərazi iddiaları qanunvericilik müstəvisindən yığışdırılmayıb. Doğrudur, avqustun 8-də Vaşinqtonda sülh sazişinin paraflanması həyata keçirilib, amma Ermənistanın necə deyərlər, yerinə yetirməli olduğu bir sıra ev tapşırıqları var. Bunlardan ən mühümü konstitusiyaya dəyişiklik edilməsi məsələsidir. Paşinyana qarşı olan qüvvələr konstitusiyaya dəyişiklik edilməsi məsələsini Azərbaycanın "növbəti tələbinin yerinə yetirilməsi" kimi qiymətləndirirlər. Onlar regionda kommunikasiyaların açılmasına qarşıdırlar, delimitasiya və demarkasiya prosesində tarixi ədalətin bərpasını yolverilməz sayırlar. Revanşistlər hesab edirlər ki, Qarabağ məsələsi bağlanmayıb, Qarabağdan könüllü köçüb gedənlərin qayıdış hüququ danışıqların predmeti olmalıdır və sair və ilaxır. Bu düşüncədə olan qüvvələrin hakimiyyətə gələcəkləri təqdirdə, Vaşinqton razılaşmalarına yenidən baxmağa çalışacaqlarını qətiyyən istisna etmək olmaz.

Bu məsələ Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalının müxbirinin Prezident İlham Əliyevə ünvanladığı suallardan biri oldu. Jurnalist soruşdu ki, əgər Ermənistanda hər hansı daxili siyasi dəyişiklik baş verərsə, bu, həmin prosesə xələl gətirəcəkmi? Dövlətimizin başçısı bildirdi ki, bunu söyləmək çətindir, yalnız ehtimal etmək mümkündür: "Ümid edirəm ki, prosesə heç bir müdaxilə olmayacaq. Lakin yenə də məndə yüz faiz zəmanət yoxdur, çünki Ermənistanın daxili siyasəti barədə tam məlumatlı deyiləm. Bilirik ki, gələn yay Ermənistanda parlament seçkiləri keçiriləcək. Həmçinin bilirik ki, onlar yeni konstitusiya layihəsi üzərində işləyirlər. Lakin güclü xarici müdaxilə olarsa, bəli, bu, razılaşmaları poza bilər. Amma bu, Ermənistanın özü üçün çox zərərli olar, çünki Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından Ermənistan lideri tərəfindən imzalanıb. Əgər orada hər hansı dəyişiklik baş verərsə və imzalanmış sənəddən geri addım atılarsa, bu, Ermənistan ilə ABŞ arasındakı münasibətləri ciddi şəkildə pisləşdirər. Bu, yalnız ABŞ-a aid deyil, beynəlxalq ictimaiyyət, Avropa İttifaqı, Türkiyə və ərəb ölkələrindəki dostlarımız da bu prosesi dəstəklədilər. Beləliklə, bütün beynəlxalq ictimaiyyət bu hadisəni müsbət qarşıladı və razılaşmanı pozmaq bütün dünyaya qarşı çıxmaq deməkdir. Onlar bundan nə qazanacaqlar? Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir".

Bəli, Ermənistanda daxili siyasi mübarizənin gərginləşdiyi bir vaxtda qarşıdan gələn parlament seçkilərinin yalnız yerli siyasi gündəmin predmeti olmayacağı, həm də beynəlxalq miqyasda diqqətlə izlənəcəyi artıq şübhə doğurmur. Hakimiyyətə qarşı birləşmiş geniş spektrli qüvvələrin 2026-cı il seçkilərinə hazırlığı göstərir ki, Paşinyanın siyasi rəqibləri sadəcə, hakimiyyət dəyişikliyinə nail olmaqla kifayətlənmək niyyətində deyillər. Onlar paralel olaraq Ermənistanın regional siyasət kursunu dəyişmək, xüsusilə də paraflanmış sülh sazişini sual altına almaq niyyətini gizlətmirlər. Məhz bu məqam Ermənistanın gələcəyi üçün həlledici ola bilər və sülh prosesinə xarici müdaxilə ehtimalı realdır. Çünki Ermənistan cəmiyyətində revanşa köklənmiş dairələr Rusiya, Fransa və ABŞ-dakı müəyyən erməni diaspor mərkəzləri ilə sıx əlaqədədirlər. Onların məqsədi yeni konstitusiya dəyişikliklərinin qarşısını almaq, sərhədlərin delimitasiya və demarkasiyasını ləngitmək, kommunikasiyaların açılmasına mane olmaqdır. Bu isə Ermənistanın həm qonşularla münasibətlərini, həm də beynəlxalq aləmdə mövqelərini zəiflədəcək. Əgər Paşinyana qarşı müxalifət hakimiyyətə gələrək Vaşinqton razılaşmalarını rədd etməyə çalışsa, bunun nəticələri elə Ermənistanın özü üçün fəlakətli ola bilər.

Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində vurğuladığı kimi, razılaşmanı poza biləcək hər hansı addım Ermənistan–ABŞ münasibətlərini kəskin pisləşdirəcək. Bu, yalnız Vaşinqtonla ikitərəfli əlaqələrə zərbə vurmaqla bitməyəcək, həm də Ermənistanın beynəlxalq imicinə ağır zərbə olacaq. Çünki sülh sazişi təkcə ABŞ-ın deyil, Avropa İttifaqının, Türkiyənin və ərəb ölkələrinin dəstəyi ilə reallaşıb. Belə bir sənəddən geri çəkilmək Ermənistanı dünya birliyi qarşısında qeyri-ciddi və etibarsız tərəfdaş kimi göstərəcək. Bunun nəticəsi isə iqtisadi təcrid, maliyyə dəstəyinin azalması, investisiya mühitinin iflası və yeni diplomatik böhranlar ola bilər.

Əslində, Vaşinqton razılaşması Ermənistan üçün nadir bir şansdır. Bu sənədin icrası İrəvana uzunmüddətli sabitlik, qonşularla dinc yanaşı yaşamaq və iqtisadi inkişaf imkanı vəd edir. Əgər revanşist dairələr qısamüddətli siyasi maraqlar naminə bu imkandan imtina edərlərsə, Ermənistanın gələcək onilliklərdə regional təcrid vəziyyətindən çıxması mümkünsüz olacaq. Ölkə həm Qərbin, həm də regiondakı mühüm tərəfdaşların dəstəyini itirərək geosiyasi vakuumda qalacaq.

Beləliklə, Ermənistanın iki yolu var: ya sülh razılaşmasına sadiq qalaraq beynəlxalq dəstək qazanmaq, ya da seçkilərdən sonra siyasi intriqaların təsiri ilə bütün dünyaya qarşı çıxmaq. İkinci yolun Ermənistanı hansı fəlakətlərə aparacağını isə tarix artıq dəfələrlə göstərib.

***Səxavət HƏMİD***
***XQ***

# Həmişə ədalətli olan Azərbaycan indi də haqlının yanındadır

## *Biz Ağ Evin Donald Trampdan əvvəlki siyasətini qınayanda da bunu sübut etmişik*



**Düşünürəm ki, avqustun 8-də Vaşinqtonda baş verən hadisələr, əslində, qarşıdurmanın və gərginliyin sonu deməkdir. Uzun illərdir ki, biz Ermənistanla müharibə vəziyyətində idik. Məhz Ermənistan 1990-cı illərin əvvəlindən Azərbaycan ərazilərini işğal etmişdi. O zaman Azərbaycan çox zəif idi, ordumuz yox idi. Ermənistanın isə Azərbaycan ərazilərini işğal etməkdə ona dəstək göstərən xarici tərəfdarları var idi.**

**Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsindən.**

**Əslində, son günlərin hadisələrini mərhum Zbiqnev Bjezinskinin on illər əvvəl dilə gətirdiyi “Cənubi Qafqaz körpüsü” ifadəsinin “Tramp yolu” (onu Tramp körpüsü və Tramp dəhlizi kimi də adlandırırlar) şəklində ərsəyə gəlməsi kimi də qiymətləndirmək olar.**

Hamının yadındadır: ABŞ-ın keçmiş Prezidenti Ceyms Karterin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Zbiqnev Bjezinski (28 mart 1928 – 26 may 2017) “Böyük şahmat taxtası” adlı əsərində yazırdı ki, bu bölgə bütün növ qiymətli metal və neft-qaz yataqları ilə zəngindir. Dünyanın enerjiyə olan ehtiyacı yüksələn xətlə dəyişdiyi zaman karbohidrogen ehtiyatları ilə zəngin bu bölgənin əhəmiyyəti daha da artır.

Həmin kitabdakı tezislərin məhz indi reallaşmasının əsas səbəbi siyasətdə və diplomatiyada daim haqlı və ədalətli mövqe tutan Azərbaycanın bu bəşəri dəyərlərinin regionda öz həqiqi qiymətini almaması oldu. Həm Çar Rusiyası, həm Sovetlər dövründə, həm də SSRİ-nin çökməsindən sonrakı illərdə ərazisi hissə-hissə işğal edilən, şəhər və kəndləri xarabalığa çevrilən, əhalisi on illər boyu qaçqın-köçkün taleyi yaşayan Azərbaycanın səsi, sözün həqiqi mənasında, region ölkələri tərəfindən lazımınca eşidilmədi. Üstəlik, öz ərazilərini hərbi-siyasi yolla düşmən tapdağından azad edəndən sonra məğlub ölkəyə sülh təklifləri göndərən (əslində, sülh təklifini kapitulyasiya sənədini imzalayan tərəf irəli sürməli idi) Azərbaycanın siyasi mövqeyi, insani səmimiyyəti beş il cavabsız qaldı.

Belə bir zamanda minlərlə igid övladını qurban verərək torpaqlarını yağı tapdağından azad etmiş Azərbaycan neyləməli idi? Rəsmi Bakı nə etməliydisə, onu da etdi. Bu məqamda bir faktı xüsusilə qeyd etmək zərurəti var. Ermənistan, Rusiya və bəzi Avropa mətbuatı yazır ki, Ağ Ev Cənubi Qafqazı kimlərinsə əlindən alır. Ağ yalandır. Qətiyyən belə deyil. Vaşinqtonda keçirilən görüşlər, aparılan müzakirələr və imzalanan sənədlər Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu diplomatik fəaliyyətinin nəticəsidir. Biz cənab Trampa ona görə minnətdarıq ki, o, rəsmi Bakının otuz ilə başa sala bilmədiyi Ermənistan rəhbərliyinə həqiqətin harada olduğunu anlatdı. Cənab Tramp Ermənistanın regiondakı və Avropadakı havadarlarına qətiyyətlə dedi ki, Azərbaycan haqlıdır və on illər boyu davam edən münaqişə məhz Prezident İlham Əliyevin dediyi şəkildə həll olunmalıdır.

Şəxsən mən – bu sətirlərin müəllifi son otuz ildə bəlkə də əlli-altmış dəfə yazmışdım ki, beynəlxalq ictimaiyyətin qulağı kardır və ona görə də Azərbaycanın haqq səsini eşidən yoxdur. Cənab Trampın atdığı addımlar isə sübut etdi ki, hamı kar deyil, haqqın səsini eşidib, haqlının maraqlarını təmin etməyə çalışan siyasətçilər də var. Biz buna şad olduq. Amma şad olmaqla kifayətlənməyərək, cənab Donald Trampın Nobel Sülh Mükafatına təqdim edilməsini də bütün səviyyələrdə dəstəklədik.

...Biz şahidik ki, Prezident İlham Əliyevin dünya mətbuatına verdiyi müsahibələrin hamısı milli tariximizə hadisə kimi yazılır. Xüsusən, 44 günlük İkinci Qarabağ müharibəsi günlərində çoxsaylı müsahibələrin hər biri hərb tariximizin salnaməsi kimi qiymətləndirilirdi. Bir neçə gün əvvəl – avqustun 26-da izlədiyimiz müsahibə isə 44 günlük müharibə dövründəki müsahibələrdən beş-altı cəhətdən fərqlənirdi. Çünki dövlət başçımıza 2020-ci ilin payızında ünvanlanan sualların çoxunda (bəlkə də əksəriyyətində) Azərbaycana qarşı ittihamlar irəli sürülür, müharibənin tezliklə dayandırılması zərurəti dilə gətirilirdi. Təbii ki, həmin sualların hamısı yüksək səviyyədə cavablandırılırdı. Dost və qardaş Səudiyyə Ərəbistanını təmsil edən “Əl-Ərəbiyyə” telekanalının əməkdaşı isə dövlət başçımıza məhz dostcasına, qardaşcasına suallar verirdi.

Məsələn, gənc ərəb həmkarımızın təqdimatına diqqət edək: “Əlbəttə, bu görüş ABŞ Prezidenti Donald Trampın dəstəyi ilə Ermənistan və Azərbaycan arasında imzalanmış razılaşmadan sonrakı dövrə təsadüf edir. Bu gün biz həmin tarixi günləri yaşayırıq və həmin məsələ haqqında söhbət açırıq. Eyni zamanda, Azərbaycanın Şərq ilə Qərb arasındakı rolu haqqında da danışacağıq. Həmçinin biz Azərbaycanın Cənubi Qafqazdakı rolunu Prezident İlham Əliyevlə müzakirə edəcəyik”.

Adam, sadəcə, “Əhsən!”– demək istəyir. Ərəb jurnalisti Vaşinqtonda əldə edilmiş razılıqları və imzalanmış sənədləri “tarixi günlər” adlandırır. Doğrudan da “tarixi günlər” deyilsə, bəs nədir? Cənab Prezidentin müsahibənin ilk sualını cavablandırarkən dilə gətirdiyi faktlar bir daha sübut edirdi ki, Azərbaycan xalqı öz tarixi günlərini yaşayır: “Ərazimizin təxminən 20 faizi işğal edilmişdi, nəticədə bir milyon qaçqın və məcburi köçkünümüz var idi. Həmin dövrdə bu, əhalinin sayına görə dünyada ən yüksək nisbətlərdən biri idi. Yəni, Azərbaycanın əhalisi o vaxt 8 milyon idi, onların bir milyonu yurd-yuvasından didərgin düşmüşdü”.

Biz məhz həmin məhrumiyyətlərin başa çatmasının sevincini yaşayırıq. Cənab Donald Trampın səyləri və atdığı addımlar məhz ona görə alqışlanmalıdır ki, onun təşəbbüsü ilə ərsəyə gələn sənədlər təkcə bizim 1988- 2025-ci illərdə (Azərbaycan tarixi Zəfərdən sonra da dünyanın müxtəlif ünvanlarından təhdidlər eşidirdi) üzləşdiyimiz problemlərin həllinə kömək etmir, həm də 1920-ci ildə ölkəmizdən alınıb Ermənistana verilmiş Zəngəzur ərazisindən Naxçıvana maneəsiz gedib-gələcəyimizə zəmin yaradır. Cənab Prezident müsahibədə həmin məsələyə daha dəqiq münasibət bildirdi: “Qeyd etdiyim kimi, danışıqlar bir neçə il davam etdi və nəhayət, Vaşinqtonda Prezident Trampın və onun komandasının böyük dəstəyi ilə başa çatdı. Mən hesab edirəm ki, bu, münaqişənin, müharibənin sonudur. Formal olaraq sülh sazişinin imzalanmamasının bir xüsusi səbəbi var – Ermənistan konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünü hələ də şübhə altına alan müddəa mövcuddur”.

Jurnalistin növbəti sualı isə Ermənistanın rəhbərliyini və bu ölkənin ictimaiyyətini yaxşı tanıdığından xəbər verirdi: “Cənab Prezident, Siz Ermənistanın konstitusiyasına düzəlişi qeyd etdiniz. Hazırda sülh haqqında bəhs etdiyimiz zaman düşünürəm ki, əgər Ermənistanda hər hansı daxili siyasi dəyişiklik baş verərsə, bu, həmin prosesə xələl gətirəcəkmi?”. Prezident xatırlatdı ki, güclü xarici müdaxilə olarsa, bəli, bu, razılaşmaları poza bilər: “Amma bu, Ermənistanın özü üçün çox zərərli olar, çünki Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından Ermənistan lideri tərəfindən imzalanıb”.

Bütün bunlar sübut edir ki, ABŞ Prezidenti Donald Tramp həqiqətən Nobel Sülh Mükafatına layiqdir. Təbii ki, bunu məqalənin müəllifi demir, Azərbaycan Prezidenti deyir. Həm də bütün dünyada yayılan mötəbər televiziya kanalı vasitəsi ilə: “O, həqiqətən buna layiqdir. O, bir neçə ay ərzində Afrikada, Asiyada, Cənubi Qafqazda möcüzə yaradıb. Bu, onun xarakteridir, bu, onun təbiətidir. O, sülh istəyir. O, Qərb liderlərinin ənənəvi imicindən tamamilə fərqli bir şəxsiyyətdir. O, çox mehribandır. O, bütün hədiyyələrini, hətta planlaşdırılandan daha çoxunu verəcək qədər çox səxavətlidir. O, həqiqətən də tərifəlayiq insandır. Bu, mənim onunla ilk görüşüm idi, ancaq siyasətçi kimi ona münasibətim həmişə müsbət olub”.

İndi isə qayıdaq yazının əvvəlinə. İkinci sərlövhədə qeyd etdik ki, biz Ağ Evin Donald Trampdan əvvəlki siyasətini qınayanda da haqlı və ədalətli olduğumuzu sübut etmişdik. Prezident İlham Əliyev “Əl-Ərəbiyyə” telekanalına müsahibəsində həmin məsələyə də ətraflı şəkildə toxundu: “Amerika administrasiyaları həmişə bütün dünyaya necə yaşamalı, demokratiyanı necə qurmalı, seçkiləri necə təşkil etməli olduğumuz barədə mühazirə oxumağı xoşlayır. Lakin onlar özləri Prezident Trampı qələbədən məhrum edərək, ona qarşı ən böyük seçki saxtakarlığını etdilər. O, prezident olmadığı müddətdə özünü layiqli şəkildə aparıb. Böyük cəsarət və ləyaqət nümayiş etdirərək Amerikada yenidən hakimiyyətə qayıtdı. Bütün bataqlıqlar –USAID, “Radio Liberty”, “Washington Post”, “New York Times”, “Wall Street Journal”, “Newsweek” kimi saxta xəbər mənbələrinin hamısı onun əleyhinə idi. Məni necə ləkələyirdilərsə, eləcə də hamısı onu ləkələyirdi. Bəlkə də eyni səviyyədə deyildi, amma eyni şəkildə idi, şayiələr yayırdılar”.

Bəli, regionda sözü keçən, özünü hamıdan güclü bilən dövlətlər Ermənistanı “daşı ətəyindən tökməyə” məcbur etmədilər. Daha doğrusu, bunu istəmədilər. Çünki regiondakı istənilən münaqişə kimlərəsə siyasi, iqtisadi qazanc gətirir. Onların etmək istəmədiklərini isə cənab Donald Tramp günün reallığına çevirdi. İndi bəzi region paytaxtlarında Vaşinqtondakı danışıqlar və imzalanan sənədlər haqqında hərzə-hədyan danışmaqla məşğuldurlar. Amma gecdir. Artıq qatar gedib.

***İttifaq MİRZƏBƏYLİ***

(əvvəli 1-ci səhifədə)

# Tramp marşrutu qitələri qovuşduracaq

Əgər Zəngəzur dəhlizi uzun illərdir Bakının strateji hədəfi idisə, niyə bu məsələ birdən-birə “Tramp marşrutu” adı ilə təqdim olunmağa başladı? Prezident İlham Əliyevin cavabı göstərir ki, məsələnin mahiyyəti dərin siyasi məna daşıyır. Azərbaycan beş ilə yaxın bir müddətdə Ermənistanla aparılan danışıqlarda konstruktiv nəticə əldə edə bilmədi. İrəvan dəhlizin açılmasını davamlı şəkildə yubadır, müxtəlif bəhanələrlə prosesdən yayınırdı. Belə bir vəziyyətdə Bakı başa düşdü ki, məsələ yalnız ikitərəfli müzakirələrin predmeti kimi qalarsa, real nəticə əldə etmək mümkün olmayacaq.

Məhz buna görə Azərbaycan strateji addım ataraq məsələni regional çərçivədən çıxarıb beynəlxalq gündəmə daşıdı. Bu isə artıq yeni mərhələ idi: məsələ təkcə Bakı–İrəvan münasibətlərindən ibarət deyil, qlobal güclərin diqqətini tələb edən regional təhlükəsizlik məsələsinə çevrildi.




Burada əsas dönüş nöqtəsi ABŞ administrasiyasının – konkret olaraq Prezident Donald Trampın komandasının – prosesə qoşulması oldu. Vaşinqton vasitəçi kimi yalnız diplomatik dəstək göstərmədi, eyni zamanda Azərbaycanın ən mühüm narahatlığını qəbul etdi: dəhliz yalnız Ermənistanın verdiyi təminatlarla işləyə bilməz, onun təhlükəsizliyi beynəlxalq zəmanətlərlə qorunmalıdır. Bu o deməkdir ki, Azərbaycan de-fakto dəhlizi beynəlxalq statusa qaldırmağa nail oldu. Əgər əvvəllər söhbət regiondaxili yolun bərpasından gedirdisə, artıq məsələ qlobal nəqliyyat və təhlükəsizlik arteriyası çərçivəsində müzakirə olunur.



Bunun nəticəsi olaraq dəhliz siyasi brend qazandı – “Tramp marşrutu”. Dəhlizin belə adlandırılması bir tərəfdən ABŞ-ın regiondakı vasitəçilik rolunu simvolizə edir, digər tərəfdən isə layihənin beynəlxalq siyasi çəkisini artırır.

Başqa sözlə, Zəngəzur dəhlizi artıq sadəcə 42 kilometrlik bir yol xətti deyil. Dəhliz həm Azərbaycanın Naxçıvanla quru əlaqəsini təmin edən milli təhlükəsizlik məsələsi, həm Avropa ilə Asiyanı birləşdirən iqtisadi arteriya, həm də ABŞ-ın regiondakı nüfuzunu təsdiqləyən qlobal siyasi layihədir.

*

Prezident İlham Əliyevin müsahibəsində verdiyi cavab göstərir ki, məsələ fundamental xarakter daşıyır. Zəngəzur dəhlizi milli bütövlük anlayışı ilə sıx bağlıdır.

1920-ci ildə sovet Rusiyasının qərarı ilə Qərbi Zəngəzurun Ermənistana verilməsi nəticəsində Azərbaycan faktiki olaraq coğrafi parçalanmaya məruz qaldı. Ölkənin əsas hissəsi ilə Naxçıvan arasında təbii quru əlaqəsi kəsildi. Azərbaycanın strateji imkanları, iqtisadi potensialı və regional təsir gücü on illər ərzində məhdudlaşdırıldı. Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra qarşısında duran ən mühüm vəzifələrdən biri həmin parçalanmanın nəticələrini aradan qaldırmaq olub. Naxçıvana gediş-gəlişin yalnız İran və ya daha uzaq marşrutlar vasitəsilə həyata keçirilməsi ölkənin strateji çevikliyini xeyli zəiflədir.

Zəngəzur dəhlizinin açılması bu tarixi parçalanmaya son qoymaqla yanaşı, Azərbaycanın milli təhlükəsizlik arxitekturasını tamamlamağa xidmət edir. Dəhliz daxili bütövlüyün bərpası, regional liderlik mövqeyinin möhkəmləndirilməsi və strateji muxtariyyətin təmin edilməsi anlamına gəlir. Başqa sözlə, Bakı üçün bu dəhliz tarixi ədalətin bərpası və milli gücün konsolidasiyasıdır.

*

Məsələnin digər mühüm tərəfi isə Azərbaycanın artıq təkcə regional deyil, qlobal nəqliyyat şəbəkəsinin mühüm halqasına çevrilməsi ilə bağlıdır. Son illərdə Bakı “Orta Dəhliz” vasitəsilə Asiya ilə Avropa arasında mühüm tranzit mərkəzi statusu qazanıb. Marşrut Çindən başlayaraq Mərkəzi Asiya üzərindən Xəzər dənizi və Azərbaycan vasitəsilə Gürcüstana, Türkiyəyə və Avropaya qədər uzanır. İndi isə gündəmə gələn Zəngəzur dəhlizi bu xəttin tamamlayıcı alternativi kimi çıxış edir. Başqa sözlə, əgər Orta Dəhliz Azərbaycanın logistika gücünü təsdiqləyirdisə, “Tramp marşrutu” bu rolu daha da möhkəmləndirir və şaxələndirir.

Bəs Avropa üçün bu layihənin real dəyəri nədən ibarətdir? Birincisi, Zəngəzur dəhlizinin açılması Avropa İttifaqı üçün enerji və yükdaşıma marşrutlarının şaxələndirilməsi deməkdir. Bu isə təbii olaraq Rusiyadan asılılığın daha da azalması ilə nəticələnəcək. Ukrayna müharibəsi fonunda Avropanın əsas prioritetlərindən biri enerji və logistika təhlükəsizliyini təmin etməkdir. Azərbaycan üzərindən keçən əlavə marşrut Avropanın bu hədəfinə mühüm töhfə verir.

İkincisi, dəhliz Çin–Mərkəzi Asiya–Azərbaycan–Avropa xəttində yük axınının daha sürətli və effektiv hərəkətini təmin edəcək. Nəticə Avropa bazarlarının Asiya ilə daha sıx inteqrasiyasına xidmət etməklə yanaşı, Brüssel üçün qlobal ticarət rəqabətində strateji üstünlük yarada bilər.

Üçüncüsü, Ermənistanın tranzit ölkəyə çevrilməsi regionda sabitlik üçün əlavə stimul hesab oluna bilər. Avropa çox yaxşı anlayır ki, Ermənistan iqtisadi izolyasiyadan çıxmaqla regionda əməkdaşlığa daha çox maraq göstərə bilər. Bu amil isə həm Azərbaycan-Ermənistan münasibətlərində gərginliyi azaldır, həm də Cənubi Qafqazın təcrid olunmuş konflikt zonasından beynəlxalq inteqrasiya platformasına çevrilməsi istiqamətində yeni imkanlar yaradır.

Əsas nəticə bundan ibarətdir ki, Zəngəzur dəhlizi Avropa üçün enerji təhlükəsizliyi, ticarət dinamikası və regional sabitlik baxımından strateji körpü funksiyasını daşıyır.

*

Burada diqqəti çəkən əsas sual budur ki, niyə Azərbaycan üçün beynəlxalq zəmanətlər bu qədər vacib idi? Prezident İlham Əliyevin cavabından görünür ki, məsələ sadə etimad məsələsindən doğur. Ermənistanın verdiyi təminatlar Azərbaycanın maraqları üçün etibarlı hesab edilmir. Bunun səbəbi də aydındır: Ermənistan uzun illər ərzində Naxçıvanla əlaqəni qəsdən kəsib, beynəlxalq hüquqa zidd addımlar atıb və regionda destruktiv mövqe tutub. Belə bir dövlətin sözünə güvənmək Bakının təhlükəsizlik konsepsiyasına ziddir.

Buna görə Azərbaycan Zəngəzur dəhlizinin yalnız Ermənistanın təminatları ilə deyil, ABŞ və digər qlobal güclərin beynəlxalq zəmanəti ilə işləməsini əsas şərt kimi irəli sürdü. Vaşinqton bu arqumenti qəbul etməklə məsələnin statusunu köklü şəkildə dəyişdi: artıq söhbət sırf regional təşəbbüsdən yox, qlobal miqyaslı nəqliyyat və təhlükəsizlik arteriyasından gedir.

Prezident İlham Əliyevin müsahibəsində vurğuladığı kimi, Ermənistan illərlə tranzit imkanlarından məhrum olub. Ölkə Cənubi Qafqazda geoiqtisadi inteqrasiyadan kənarda qalıb, kommunikasiyaların hamısı onun ətrafından yan keçib. Zəngəzur dəhlizinin açılması isə İrəvan üçün yeni şans yaradır. Amma məsələ buradadır ki, Ermənistanın qarşısında seçim var. Bu layihə onun üçün tarixi fürsət ola biləcəyi kimi, yanlış qərarlar nəticəsində yeni bir geosiyasi riskə də çevrilə bilər. Əgər İrəvan yenə də destruktiv mövqedə qalarsa, həm iqtisadi dividendlərdən məhrum olacaq, həm də regional layihələrin kənarında qalaraq təcridini dərinləşdirəcək. Deməli belə bir qənaətə gəlmək mümkündür ki, Ermənistanın gələcək mövqeyi bu layihəyə münasibətindən birbaşa asılı olacaq. İrəvan ya “Tramp marşrutu” ilə regional inteqrasiyanın bir hissəsinə çevriləcək, ya da tarixi fürsəti əldən verərək geosiyasi dalanda qalacaq.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Biz işğalçı deyilik, ərazimizi azad edən ölkəyik!

## Bəziləri Azərbaycanın Zəngəzuru tutacağı, İran–Ermənistan sərhədini bağlayacağı barədə şayiələr yayırdı...

**İndiyə qədər olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyevin xarici media qurumuna verdiyi budəfəki müsahibəsi də əhatə etdiyi mövzuların çeşidi, bölgə və dünya üçün aktuallıq kəsb edən məsələlərin coğrafiyası, eləcə də 8 avqust Vaşinqton razılaşmalarının tarixi əhəmiyyəti və bu zaman şəxsiyyət amilinin rolu barədə açıqlamaları təhlilə və ciddi analizə ehtiyac duyur. Dövlətimizin başçısının, xüsusilə 2020-ci ilin noyabrından sonra Azərbaycanın müəllifi olduğu yeni reallığın fonunda yeni geosiyasi situasiya, Ermənistanla paraflanmış sülh müqaviləsinin dönməzliyi, Azərbaycan–ABŞ, Azərbaycan–İran münasibətləri, Zəngəzur dəhlizi və digər məsələlər ətrafında fikirləri maraq doğurdu. Onun Bakı–Tehran əlaqələri barədə açıqlamaları isə ayrıca qeyd olunmalıdır.**



"Biz siyasətimizi İran xalqı tərəfindən seçilən və öz vəzifəsini yerinə yetirmək səlahiyyətinə malik olan, yəni Prezident kimi siyasətçilərə əsasən qururuq. Hazırda müşavir adlandırılan bəzi keçmiş rəsmilər tərəfindən müəyyən fikirlər səsləndirilir. Nə məsləhətlər verirlər, bilmirəm. Dərhal reaksiya oldu. Bu mövqe bizim üçün heç cür əhəmiyyətli deyil. Bizim üçün bunun əhəmiyyəti sıfırdır, çünki dövlətlərarası münasibətlərimiz hökumətlər, prezidentlər, xarici işlər nazirləri arasında qurulur. Buna görə də dırnaqarası müşavirlərin yalançı rəvayətlərinə qətiyyən məhəl qoymuruq. Beləliklə, bizim üçün hər şey aydındır. Prezidentin mövqeyi tamamilə məntiqlidir və ona əsaslanır ki, Zəngəzur dəhlizi heç bir halda İran üçün təhlükə deyil".

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində deyib. Eyni zamanda İran Prezidenti Məsud Pezeşkianla, o cümlədən iki prezidentin administrasiyaları arasında münasibətlərin konstruktiv, mehriban olduğunu bəyan edib. Dövlətimizin başçısı bildirib ki, İranın yeni hadisələrlə bağlı rəsmi mövqeyinə gəlincə, Azərbaycan bunu çox əsaslı və çox müsbət hesab edir: "Mən rəsmi mövqe deyəndə Prezidentin, xarici işlər nazirinin mövqeyini nəzərdə tuturam. Bu, rəsmi mövqe hesab olunur".

Bakı və Tehran arasındakı münasibətlərin mövcud durumuna, xarakterinə və perspektivinə aydınlıq gətirərkən, İlham Əliyev cənubdan bəzilərinin ikitərəfli təmaslara kölgə sala biləcək açıqlamalar səsləndirməsinə konkret və kəskin reaksiya verdi. Burada söhbətin İranın Ali rəhbəri Xameneinin müşaviri, sabiq xarici işlər naziri Əli Əkbər Vilayətinin Zəngəzur dəhlizinin açılmasına qarşı etdiyi çıxışlarından getdiyi hamıya məlumdur.

Öz növbəsində, Zəngəzur dəhlizinin bölgə üçün vacibliyini vurğulayan telekanalın əməkdaşı bunun ardınca İran Prezidentinin Azərbaycana səfəri üzərinə gəldi. O, soykökü etibarı ilə azərbaycanlı olan Pezeşkianın Bakıda Azərbaycan dilində danışmasına diqqət çəkərək geosiyasi dəyişikliklərdən sonra iki ölkə arasında münasibətlərin səviyyəsi barədə sual ünvanladı. Suala cavabında İran Prezidentinin Azərbaycana səfərindən, onunla çox yaxşı işgüzar münasibətlər qurmasından söz açan İlham Əliyev Pezeşkianın bu il Azərbaycana iki dəfə səfər etdiyini xatırlatdı: "Birincisi rəsmi səfər idi, ikincisi isə Xankəndi şəhərində, azad edilmiş Qarabağda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə qatıldı. Bəli, siz tamamilə haqlısınız, o, azərbaycanlıdır, mənim kimi eyni qanı daşıyır. Eyni dildə danışırıq, tərcüməçiyə ehtiyacımız yoxdur. O, ictimai tədbirlərin birində Azərbaycan poeziyası ilə bağlı biliklərini nümayiş etdirdi və heç bir qeydə ehtiyacı yox idi. Çox istedadlı insandır".

*

Müsahibədə bir daha o zaman bəzi media orqanlarında, internet saytlarında Azərbaycanın Zəngəzuru işğal edəcəyinə, İran–Ermənistan sərhədini bağlayacağına dair planları barədə yayılan şayiələri yada salan İlham Əliyev məsələyə son nöqtəni qoydu: "Bizim belə bir niyyətimiz yoxdur. Hər halda, etmək istəsəydik, edərdik. 2020-ci ilin noyabr ayında bunu etmək çox asan idi. Bu son beş il ərzində də bunu etmək çox asan idi. Cəmi 40 kilometrdir, hərbi baxımdan çox vaxt aparmayacaqdı. Sadəcə hər iki istiqamətdən – Naxçıvandan və Azərbaycanın bu tərəfindən gəlirsən və ərazini götürürsən".

Məsələyə bu qədər şəffaf və konkret münasibət bildirən Azərbaycan liderinin açıqlamasına "Əl-Ərəbiyyə"nin müxbirinin ölkəmizin Zəngəzuru almaq üçün yetərli gücə sahib olub-olmadığı barədə sualına isə Prezident İlham Əliyevin cavabı birmənalı və qətiyyətli idi: "Əlbəttə, var və bunu hamı bilir. Hətta pis məsləhətlər verənlər də bilirlər ki, bunun üçün bizim gücümüz kifayət qədərdir. Biz təcavüzkar olmadığımız üçün bunu etmədik. Biz işğal edən ölkə deyilik, biz əraziləri azad edən insanlar və ölkəyik. Bizim işimiz bundan ibarət idi və bizim müharibəmiz də ədalətli idi. Müharibəmiz azadlıq müharibəsi idi. Müharibəni öz torpaqlarımızda, ədalətin bərpası naminə aparmışıq. Beləliklə, bu baxımdan hesab edirəm ki, bizim indi Ermənistan–İran sərhədini kəsməyi planlaşdırdığımızla bağlı aparılan söz-söhbətlər tamamilə əsassızdır. Bunu hamı bilir".

Son beş ildə Ermənistanın Zəngəzur dəhlizinin açılmasına mane olması səbəbindən rəsmi Tehranla İran ərazisindən əlavə yolun çəkilməsi barədə razılığa gəlindiyini, həmin marşrutun Araz çayının adı ilə – "Araz dəhlizi" adlandırıldığını və Ermənistandan yan keçmək üçün çayın üzərində körpünün inşasına xeyli vəsait xərcləndiyini ərəb jurnalistin nəzərinə çatdıran dövlətimizin başçısı layihəni təfərrüatı ilə izah etdi: "Xəritəyə baxsanız, bunun çətin olmadığını görəcəksiniz. Siz, sadəcə olaraq, Ermənistan–Azərbaycan sərhədinə çatırsınız, sonra sola dönürsünüz, çay üzərində körpü tikirsiniz və İran ərazisində 40 kilometr gedirsiniz, sonra yenidən Naxçıvana daxil olursunuz. Bu layihə artıq icra mərhələsindədir. Ermənistandan keçən dəhliz açılanda bizim iki yolumuz olacaq, yükləri çatdırmaq üçün daha çox imkanlarımız olacaq - bir yolla İrandan, digər yolla Ermənistandan. Biz İran hökumətindəki həmkarlarımızla onu da müzakirə etdik ki, çayın digər sahilində, İran ərazisində dəmir yolunun tikintisi zərurəti yarana bilər. Belə olarsa – İran həmin yolu inşa etsə, yüklərin bir hissəsi İrandan keçəcək. Daha önəmlisi odur ki, yanlış məsləhətlər verən bəzi müşavirlər də başa düşmürlər ki, bu, təkcə Azərbaycanla Azərbaycan arasında deyil, təkcə Şərqlə Qərb arasında deyil, həm də Şimalla Cənub arasında bağlantıdır".

*

Azərbaycanın Rusiya sərhədindən İran sərhədinədək dəmir və avtomobil yolları əlaqəsinin olduğunu xüsusi vurğulayan Prezident İlham Əliyev bunun tamamilə Azərbaycan ərazisində tikilmiş həqiqi Şimal-Cənub dəhlizi olduğunu bu barədə sual verən "Əl-Ərəbiyyə"nin əməkdaşının diqqətinə çatdırdı. Hazırda inşası yarımçıq qalmış hissənin İran ərazisində olduğunu, təxminən 150 kilometrlik yolun çəkilməsinin vacibliyini qeyd etdi: "Lakin bu, müəyyən vaxt aparacaq, bəlkə də bir neçə il. Bəs Şimalla Cənub arasındakı əlaqələr necə qurulacaq? Zəngəzurdan keçə bilər. Xəritəni göz önünə gətirsəniz, həmin yol Şimali Avropadan Rusiyaya, Azərbaycana, sonra Azərbaycandan Zəngəzura gedə, Naxçıvana daxil ola, - və oradan isə bizim İranla dəmir yolu əlaqəmiz var, - və onunla Fars körfəzinə çıxmaq olar. Deməli, əslində Zəngəzur dəhlizi təkcə Şərq–Qərb deyil, həm də Şimal–Cənub nəqliyyat dəhlizi olacaq. Deməli, Rusiyadan Azərbaycana, İrana gedən Şimal–Cənub marşrutundan əlavə, bizim digər marşrutumuz da olacaq – Rusiyadan Azərbaycana, Ermənistana, Naxçıvana və İrana".

Beləliklə, Azərbaycan lideri bölgədə maraqlarını güdən aktorlara belə bir mesaj verdi ki, "Tramp marşrutu"nun işə düşməsi ilə hamının udacağı vəziyyət yaranacaq. Yəni bundan heç kim itirməyəcək. İran hökumətinin də bunu başa düşdüyünü xüsusi olaraq vurğulayan İlham Əliyev Azərbaycanın bundan sonra da bölgə ölkələri arasında əməkdaşlığı gücləndirməkdən ötrü əlindən gələn hər şeyi etməyə hazır olduğunu bəyan edib.

Dövlətimizin başçısının Səudiyyə Ərəbistanı telekanalına müsahibəsini dinləyən xarici ölkə vətəndaşında Azərbaycanın yalnız sülhə və əməkdaşlıq bağlarına söykənən münasibətlər quran ədalətli bir ölkə olduğu barədə qənaətin formalaşacağı şübhəsizdir. Digər tərəfdən, İlham Əliyevin müsahibəsi Azərbaycan ətrafında şayiələr, dezinformasiya yaymağa çalışanlara və bölgədə yaratdığımız yeni reallığa şübhə ilə yanaşanlara verilən çox tutarlı və ədalətli cavab sayılmalıdır.

***İmran BƏDİRXANLI***
***XQ***

# Minsk qrupunun ləğvi: İflas etmiş diplomatiyaya vida rekviyemi

**(əvvəli 1-ci səhifədə)**

Bu, danışıqlar prosesində ölkəmizin prinsipial şərtlərindən biri olub. Prezident qətiyyətlə bildirdi ki, əgər Ermənistan rəsmi şəkildə Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu və münaqişənin başa çatdığını bəyan edibsə, o zaman Minsk qrupunun mövcudluğu hüquqi və siyasi baxımdan tamamilə əsassız və absurddur. Onun fəaliyyətinin davam etdirilməsi istiqamətində göstərilən hər hansı cəhd faktiki olaraq, regionda mövcud olmayan bir münaqişəni dirçəltmək, yaxud da onu süni şəkildə gündəmdə saxlamaq məqsədi



daşıyar. Belə bir yanaşma həm beynəlxalq hüquq normalarına ziddir, həm də Cənubi Qafqazda dayanıqlı sülh və sabitliyin bərqərar olunmasına maneə yaradır. Əgər bəzi dairələr Minsk qrupunun saxlanılmasında israrlıdırsa, bu, onların hələ də Qarabağla bağlı ərazi iddialarını tam olaraq aradan qaldırmadıqları anlamına gələr. Bununla bağlı dövlətimizin başçısı deyib: "Bu, mövqeyimizin əsasında dayanan məntiq idi. Ermənistana anlatmaq üçün çox vaxt və səy sərf etdik ki, hər iki tərəf Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə məktub yazsın və bu, Prezident Trampın iştirakı ilə baş verdi. Hazırda proses artıq başlayıb və bu, Minsk qrupunun hüquqi süqutunu ifadə edəcək, çünki o, artıq beş ildən çoxdur ki, fəaliyyətsizdir".

Bəli, Minsk qrupunun beş ildən artıq müddətdə tamamilə fəaliyyətsiz qalması, artıq onun faktiki olaraq siyasi və funksional baxımdan mövcud olmadığını göstərir. Bu, yalnız texniki bir vəziyyət deyil, əslində təşkilatın beynəlxalq hüquq və diplomatiya sistemindəki aktuallığını tamamilə itirdiyini sübut edir. Hər hansı bir beynəlxalq format öz funksiyalarını icra edə bilmirsə və missiyası artıq mövcud deyilsə, onun hüquqi və siyasi mövcudluğunun qorunub saxlanılması yalnız formal və mənasız bir addımdır. Onların saxlanılması beynəlxalq hüquqda qeyri-müəyyənlik və ikili standartların yaranmasına yol açmaqla yanaşı, həm də beynəlxalq münasibətlər sisteminə ciddi zərbə olardı. Bu səbəbdən artıq qurumun ləğvi beynəlxalq miqyasda da dəstəklənir.

Yada salaq ki, Azərbaycan Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə məktubun göndərilməsi təşəbbüsünün müəllifidir. O, beynəlxalq səviyyədə də dəstəklənib. Bu fakt məsələnin təkcə regional deyil, eyni zamanda, qlobal səviyyədə ciddi əhəmiyyət kəsb etdiyini və beynəlxalq ictimaiyyətin də regionda yaranmış yeni reallıqları qəbul etməyə hazır olduğunu nümayiş etdirir. Trampın bu təşəbbüsə verdiyi dəstək isə onu göstərir ki, dünya gücləri də regionda yaranmış yeni siyasi reallıqları qəbul etməyə və ona uyğun davranmağa hazırdır.

Minsk qrupunun həmsədr ölkələrinin də bu strukturun faydalı ola bilməyəcəyini qəbul etməsi onun süqutunu daha da sürətləndirib. Həmin dövlətlərin son illərdə bu formatla bağlı hər hansı praktiki təşəbbüs göstərməməsi və regionda baş verən dəyişikliklərə adekvat reaksiya verməməsi, bu qurumun səmərəsizliyini bir daha sübut edib. Bununla da Minsk qrupu təkcə fəaliyyətini dayandıran bir qurum deyil, həm də siyasi və diplomatik baxımdan öz aktuallığını itirmiş vasitəçilik mexanizmidir. Onu da qeyd edək ki, bu proses təkcə diplomatik prosedur deyil, həm də beynəlxalq münasibətlər sistemində dəyişən yanaşmaların və prioritetlərin göstəricisidir.

Azərbaycan üçün isə Minsk qrupunun ləğvi yalnız formal-prosedur xarakterli məsələ deyil. Bu addım Cənubi Qafqazda yeni siyasi mərhələnin başlanğıcıdır. Münaqişə dövründə bu qurum vasitəsilə aparılan danışıqlardan nəticə əldə edilməməsi onun effektivlikdən uzaq olduğunu göstərdi. İllərlə davam edən vasitəçilik missiyasına baxmayaraq, nə sülh sazişi imzalandı, nə də ərazi bütövlüyü ilə bağlı beynəlxalq hüquq normaları tətbiq edildi. Azərbaycan torpaqlarını özü azad etməklə, həm münaqişəyə son qoydu, həm də regionda yeni geosiyasi vəziyyət yaratdı. Bu reallıq isə köhnə vasitəçilik formatlarının da mahiyyətini itirməsinə səbəb oldu.

Qeyd edək ki, hazırda Minsk qrupunun ləğvi istiqamətində konkret hüquqi və diplomatik prosedurlar başlanıb. Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov da prosesin başlandığını deyir. Onun sözlərinə görə, Minsk qrupunun ləğvi ilə bağlı qərarın sentyabrın 1-də qəbulu gözlənilir: "Minsk qrupunun və əlavə strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət əsasında irəli sürülmüş qərar layihəsi bu qurumun iştirakçı dövlətləri arasında yayılıb".

Nazir qeyd edib ki, iştirakçı dövlətlər qərarın qəbulu üçün lazımi prosedurları dəstəkləməyə çağırılıb.

Beləliklə, Minsk qrupunun fəaliyyətinə son qoyulması, yalnız bir beynəlxalq qurumun tarixi missiyasının bitməsi deyil, həm də Cənubi Qafqazda postmünaqişə dövrünün başlanğıcını simvolizə edir. Bu mərhələ birbaşa tərəflər arasında aparılan dialoq, qarşılıqlı etimad və beynəlxalq hüququn prinsiplərinə söykənən əməkdaşlıq üzərində qurulmalıdır. Azərbaycan bu istiqamətdə sərgilədiyi prinsipial və ardıcıl mövqeyi ilə bölgədə davamlı sülhün və inkişafın əsas təminatçılarından biri olduğunu bir daha sübut edir.

Bununla bağlı politoloq **Yeganə Hacıyeva** XQ-yə bildirdi ki, ATƏT-in Minsk qrupu İkinci Dünya müharibəsindən sonra Avropa məkanında yaradılmış ən iri



büdcəli sülhyaratma mexanizmlərindən biridir: "Lakin o, eyni zamanda, tarixə ən yararsız və nəticəsiz beynəlxalq vasitəçilik strukturu kimi düşüb. Qrupun fəaliyyətdə olduğu 30 il ərzində münaqişənin həlli istiqamətində əldə olunmuş hər hansı real nəticə yoxdur. Bu dövrdə işğal altındakı bir kənd belə azad edilməyib, tərəflər arasında sülhə və ya kompromisə doğru hər hansı ciddi irəliləyiş müşahidə olunmayıb.

Minsk qrupunun fəaliyyətinin nəticəsizliyinin ən bariz göstəricilərindən biri də onun insan hüquqlarının və mülkiyyətin qorunması sahəsində fəaliyyətsizliyidir. Həm Azərbaycan dövlətinin, həm də mülki şəxslərin mülkiyyət hüquqlarının pozulmasına, onların əmlaklarının talan olunmasına baxmayaraq, qrup bu məsələlərə dair heç bir hüquqi-diplomatik mövqe ortaya qoymayıb, məsuliyyət daşıyan tərəflərin cavabdehliyə cəlb olunması istiqamətində təşəbbüs göstərməyib.

Beynəlxalq diqqətin bu qədər cəmləndiyi işğal altındakı ərazilərin heç birinin vətəndaşlarının mülkiyyət hüquqları bu qədər kütləvi şəkildə pozulmayıb. Yaşayış məntəqələrimiz yerlə-yeksan edilib, təbii sərvətlər sistemli şəkildə mənimsənilib, lakin ATƏT-in Minsk qrupu buna susqun qalıb.

30 illik fəaliyyəti dövründə Minsk qrupu cəmi iki dəfə Azərbaycanın işğal olunmuş ərazilərinə faktaraşdırıcı missiya göndərib. Bu missiyaların isə beynəlxalq hüquqi müstəvidə real təsiri olmayıb. Bu missiyalar arasında ötən müddət ərzində Ermənistan işğaldakı torpaqlarda daha aktiv və cəsarətli şəkildə dağıntılar həyata keçirib, bu fəaliyyətin beynəlxalq səviyyədə cavabsız qalması isə işğalçının cəsarətini artırıb.

ATƏT-in Minsk qrupunun susqunluğu faktiki olaraq bu prosesə dolayı dəstək rolunu oynayıb. Bu reallıqlar fonunda bu gün ATƏT-in Minsk qrupu təkcə öz fəaliyyətində deyil, ümumilikdə təmsil olunduğu beynəlxalq sistemin, yəni kollektiv təhlükəsizlik və hüquq əsaslı beynəlxalq münasibətlər prinsipinin uğursuzluğunu simvolizə etdi.

Beynəlxalq vasitəçilik adı altında həyata keçirilən bu fəaliyyətsizlik, əslində beynəlxalq hüququn və ədalətin yalnız bəyanat səviyyəsində mövcud olduğunu göstərdi.

Tərəflər arasında obyektivlik nümayiş etdirilmədi, hüquq pozuntuları susqunluqla qarşılandı və nəticədə ATƏT-in nüfuzu ciddi şəkildə zədələndi.

ATƏT-in təhlükəsizlik məsələlərinə baxışı, real nəticə doğurmayan vasitəçilik səyləri və tərəfsizlik adı altında nümayiş etdirdiyi biganəlik beynəlxalq münasibətlər sistemindəki rolunun və legitimliyinin demontajıdır. Son nəticə də bu olmalı idi".

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Cənubi Qafqazda sülhə təhdid ehtimalı – Ermənistan amili

**(əvvəli 1-ci səhifədə)**




Bəli, Prezident İlham Əliyevin də vurğuladığı kimi, Ermənistanın hazırkı iqtidarı konstitusiya dəyişikliyinin tərəfdarıdır. Ancaq ölkədə iqtidara əks-qüvvələr fəallıqlarını artırırlar. O qüvvələr ki, Rusiyanın müəyyən dairələri tərəfindən idarə olunurlar. O qüvvələr ki, 2026-cı ildə şansın üzlərinə güləcəyinə ümid bəsləyirlər.

Ermənistanda gələn il parlament seçkiləri keçiriləcək. Bir halda ki, ölkədə ruspərəst müxaliflər, yəni revanşist və şovinistlər aktivləşiblər, belələrinin hakimiyyətə yiyələnmək şansına skeptik yanaşmaq olmaz. Onlar iqtidarı ələ keçirəcəkləri təqdirdə, Bakı-İrəvan sülhü necə olacaq? Axı erməni müxaliflər barışı ölkələri üçün ədalətsiz sayırlar.

Görünür, bu səbəbdəndir ki, Prezident İlham Əliyev "məndə yüz faiz zəmanət yoxdur" deyir: "Bilirik ki, gələn yay Ermənistanda parlament seçkiləri keçiriləcək. Həmçinin bilirik ki, onlar yeni konstitusiya layihəsi üzərində işləyirlər. Lakin güclü xarici müdaxilə olarsa, bəli, bu, razılaşmaları poza bilər".

Dövlətimizin başçısı müsahibəsində sülhün pozulmasının Ermənistana zərərindən də söz açıb. "...çünki Vaşinqtonda sənədlərin kim tərəfindən imzalanmasından asılı olmayaraq, onlar Ermənistanın adından Ermənistan lideri tərəfindən imzalanıb. Əgər orada hər hansı dəyişiklik baş verərsə və imzalanmış sənəddən geri addım atılarsa, bu, Ermənistan ilə ABŞ arasındakı münasibətləri ciddi şəkildə pisləşdirər. Bu, yalnız ABŞ-a aid deyil, beynəlxalq ictimaiyyət, Avropa İttifaqı, Türkiyə və ərəb ölkələrindəki dostlarımız da bu prosesi dəstəklədilər", - deyən Prezident İlham Əliyev əlavə edib ki, beynəlxalq ictimaiyyətin müsbət qarşıladığı sülh prosesinə xələl gətirmək Ermənistanın dünyaya qarşı çıxması olar və bundan heç bir qazanc yoxdur. Əksinə, "Vaşinqtonda imzalanan sənəd Ermənistan üçün sülhə və sabit inkişafa zəmanətdir".

Bu yerdə bir məqama da diqqət yetirək. Ermənistan otuz ilə yaxın müddətdə Azərbaycan torpaqlarını işğalda saxladı. Nəticədə təcriddə qaldı və bu, nə ölkəni idarə edənləri, nə də böyük ölçüdə götürsək, erməni xalqını düşündürdü. Hər iki cinah avantürizm naminə həmrəylik göstərdilər, tutduqları yarıtmaz mövqenin ölkəni inkişafdan saxladığını nəzərə almadılar. Hazırda Ermənistandakı müxaliflər həmin sərsəm təfəkkür sahiblərinin ardıcıllarıdırlar.

Bəli, Rusiyaya arxalanmış Ermənistan otuz ilə yaxın müddətdə həm də beynəlxalq ictimaiyyətin mövqeyini, mühüm beynəlxalq sənədləri saymazdan gəldi. Prezident İlham Əliyev isə bildirir: "Vaşinqtonda imzalanan sənədin əhəmiyyəti ondan ibarətdir ki, hər iki tərəf bir-birinin ərazi bütövlüyünü tanıyır və gələcək təmaslarını beynəlxalq hüququn bu fundamental tezisi əsasında planlaşdıracaq".

Şübhəsiz, dövlətimizin başçısı dünyada beynəlxalq hüququn necə işlədiyinə çox yaxşı bələddir. Ona görə də xəbərdarlıq edir: "Əgər onlar bizim ərazi bütövlüyümüzü tanımaqdan imtina etsələr, biz də onların ərazi bütövlüyünü tanımaqdan imtina edəcəyik. Burada kim qazanacaq, kim uduzacaq? Məncə, bu, ritorik sualdır. Ona görə hesab edirəm ki, Ermənistanın istənilən gələcək hökumətində kifayət qədər müdriklik, ağlabatan yanaşma olacaq ki, Vaşinqtonda razılaşdığımızı şübhə altına almasın. Bir daha qeyd edirəm ki, bu, iki dövlət arasında razılaşmadır. Bu, Paşinyan ilə mənim razılaşmamız deyil".

Əlbəttə, Prezident İlham Əliyev yalnız xəbərdarlıq etmir, eyni zamanda məsuliyyətə çağırış səsləndirir. Söhbət sülh naminə məsuliyyətdən gedir. Elə bir sülh ki, bütövlükdə region üçün əhəmiyyətlidir və dövlətimizin başçısı müsahibəsində barış mühitinin faydalarına kifayət qədər əhatəli aydınlıq gətirdi.

Prezident İlham Əliyevin verdiyi izahlar onu deməyə əsas verdi ki, Cənubi Qafqazda sabitliyin formalaşdıracağı əməkdaşlıq mühiti regionun bütün dövlətləri üçün böyük mənfəət vəd edir. Mənfəətlər isə balanslı olmalı, bərabərlilik və qarşılıqlı amilini heçə saymamalıdır. Loru dildə desək, hər kəs öz haqqını almalıdır. Amma o da görünür ki, daha çoxuna iddialılar var. Elə isə yazımızın ikinci hissəsinə keçid alaq.

*

Prezident İlham Əliyev müsahibəsində Azərbaycan-Rusiya münasibətlərinə toxundu. Daha doğrusu, münasibətlərin hazırkı fazasına. Qeyd edək ki, dövlətimizin başçısı Vaşinqtonda ölkəmizin media orqanlarına müsahibəsində də Bakı ilə Moskva arasındakı gərginliyin aradan qalxması üçün prinsipial məqamı açıqlamışdı. Həmin məqam yenə aktuallığını qorumaqdadır.

Rusiya öz səmasında Azərbaycan təyyarəsinin vurulmasına düzgün adekvat reaksiya verməlidir. Reaksiya bu qorxunc əməli törədənlərin məsuliyyətə cəlb edilmələri, həlak olanların ailə üzvlərinə, zərərçəkənlərə təzminatın ödənilməsi və ümumən dəymiş zərərin qarşılanması şəklində olmalıdır. Müsahibəsində təyyarə olayı ilə bağlı təfərrüatları açıqlayan Prezident İlham Əliyevin də vurğuladığı məhz bu idi.

Dövlətimizin başçısı olaya münasibətdə sivil davranış çağırışı etdi və ölkəmizdən nümunə gətirdi: "Sizə yenə də İkinci Qarabağ müharibəsindən bir misal çəkə bilərəm. Müharibənin sonuncu günündə - noyabr ayının 9-da Azərbaycan öz sərhədinə yaxınlaşan rus helikopterini təsadüfən vurdu, halbuki o, orada olmalı deyildi. Çünki otuz il ərzində rus helikopterləri Ermənistan ərazisindən Azərbaycan sərhədinə heç vaxt yaxınlaşmamışdı. O, Ermənistandan uçaraq gəlirdi. Helikopteri vuranlar üçün açıq-aydın idi ki, Ermənistan helikopteri ərazimizə daxil olur, ona görə də onlar onu vurdular. Həmin gün mən dərhal Rusiya Prezidentinə zəng etdim və üzrxahlığımı bildirdim. Biz həlak olan pilotların ailələrinə və Müdafiə Nazirliyinə dərhal təzminat ödədik. Biz istintaq başlatdıq və bu faciəli səhvə yol verənlər məsuliyyətə cəlb olundular".

Prezident İlham Əliyev Rusiyanın dostluğa dəyər verən adekvat addımlarını görmədiyimizi vurğuladı. Axı təyyarə olayı ilə bağlı həqiqətlər açıqlanmalıdır. Çünki "…bu, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdə ciddi məsələdir, lakin biz əlaqələri gərginləşdirmək istəmirdik. Bəli, bu, xalqımızı məyus edib, qəzəbləndirib və qəmginliyə salıb. Biz gözləyirik, gec və ya tez istintaq başa çatacaq".

Prezident İlham Əliyev Rusiyada azərbaycanlılara qarşı nalayiq rəftardan da söz açdı. "Bu, nə münasibətdir?", - deyərək təəccübünü ifadə edən dövlətimizin başçısı, əslində, belə halların da ikitərəfli əlaqələrə zərər yetirdiyini vurğuladı və bəyan etdi ki, "münasibətlərin korlanmasına görə məsuliyyət bizim üzərimizə düşmür. Biz yalnız konstruktiv və hüquqi şəkildə cavab veririk, lakin heç vaxt bizə qarşı təcavüz əlamətlərinə və təzahürlərinə, yaxud hörmətsizliyə dözməyəcəyik".

Bir çox ekspert dairələrində belə qənaət var ki, Rusiya təyyarə olayından yararlanaraq, Azərbaycanla gərginliyi saxlamaqda maraqlıdır. Həmin dairələrin qənaətincə, Qarabağ probleminin həllindən, Azərbaycanla Ermənistan arasında sülh mühitinin formalaşmasından sonra Cənubi Qafqaza təsirlərini itirmiş Moskva güc yolu ilə bölgəyə yiyələnmək barədə düşünür. Ekspertlər, hətta Kremlin başqa yolunun olmadığını da vurğulayırlar. "Əl-Ərəbiyyə" telekanalının müxbirinin sualı da məhz bu kimi deyimlərdən qaynaqlanır. Sual belədir: "Kiçik bir sualım var. Bu münasibətdən sonra Siz Azərbaycanın etməyə çalışdığının qarşısını almaq üçün Rusiyanın hər hansı bir hərəkətə əl atacağından qorxmursunuz? Mən coğrafiyanı, dəhliz və sair məsələləri nəzərdə tuturam".

Hesab edirik ki, Prezident İlham Əliyevin suala cavabı Cənubi Qafqazda kövrək sülh mühitinin pozulması ehtimalının nədən qaynaqlandığını müəyyənləşdirir. "Onların (Rusiyanın – red.) Ermənistanda hərbi bazası və bir neçə min nəfərdən ibarət hərbi heyəti var. Eyni zamanda Ermənistanın İran və Türkiyə ilə sərhədi Rusiya sərhədçiləri tərəfindən qorunur. Azərbaycan torpağında bir nəfər də rus əsgəri yoxdur. Beləliklə, Ermənistanda nə baş verə bilər, mən bunu bilmirəm. Lakin mən bu mənfi ssenari haqqında düşünmək istəmirəm", - deyən dövlətimizin başçısı, əslində, regional sabitliyə zidd təmayül baxımından yenə Ermənistan amilini qabardır. Nəzərə alaq ki, Ermənistanda rus hərbi mövcudluğu ilə yanaşı, Kremlin dəstəklədiyi və haqqında söz açdığımız revanşist və şovinist kəsim var.

Sonda belə qənaətə gəlmək mümkündür ki, Cənubi Qafqazda sülhü təhdid edən məhz bu iki faktordur. Bu yerdə Rusiyanın Cənubi Qafqaz maraqları barədə də bir-iki kəlmə söz açaq. Əlbəttə, həmin maraqların təzahürlərini sadalamaq niyyətindən uzağıq. Yalnız onu deyək ki, Azərbaycan onların mövcudluğu amili ilə razılaşıb.

Rəsmi Bakı hər zaman çalışıb ki, Qərblə Rusiya arasında balanslı siyasət yürütsün. Amma bu siyasət heç də o demək deyildi ki, xalqımızın və dövlətimizin mənafeləri arxa plana keçməlidir. Regionun lider ölkəsi olan Azərbaycan yenə eyni mövqedədir. Ümid edək ki, Rusiyada bunu düşünənlər tapılacaq və onlar Cənubi Qafqaz müstəvisindəki ənənəvi xəttin icrasından daşınacaqlar. Ona görə daşınacaqlar ki, bu xətt otuz ildən də artıq bir müddətdə bölgə xalqlarına yalnız acılar və məhrumiyyətlər yaşatdı. Həm də ona görə daşınacaqlar ki, bu xəttin böyük ölçüdə Rusiyanın özünə də heç bir xeyri yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qafqazdan Yaxın Şərqə "mavi axın"

## *Azərbaycan qazının Suriyaya ixracı dinc həyatın bərpasına önəmli dəstəkdir*

**Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində Azərbaycanın Suriyada yeni hökumətin iqtidara gəlməsini böyük ruh yüksəkliyi ilə qarşılaması və dəstəkləməsini diqqətə çatdıraraq bu ilin aprelində Türkiyədə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşdüyünü və onu ölkəmizə səfərə dəvət etdiyini bildirib.**



Dövlətimizin başçısı, Əhməd Əl Şaraanın rəsmi səfərindən sonra bu ölkəyə humanitar yardım edildiyini, eyni zamanda Suriyaya təbii qazı elektrik enerjisinə çevirməyə kömək etmək üçün Azərbaycan, Suriya, Türkiyə və Qətər arasında dördtərəfli razılaşma imzalandığını vurğulayıb. Xatırladaq ki, bu prosesin açılış mərasimi avqustun 2-də keçirilib və Azərbaycan qazı Türkiyə ərazisindən Suriyaya təchiz edilməyə başlanıb, Qətər hökuməti isə bunun üçün vəsait ayırıb. Beləliklə, ilkin razılaşma əsasında ölkəmiz 1,2 milyard kubmetr qazın Suriyaya ixracını gerçəkləşdirib. Lakin onlara daha çox "mavi yanacaq" tələb olunduğu üçün gələcəkdə qazın həcminin artırılması qərarına gəlinib.

Müstəqillik qazandığı ilk illərdən etibarən Azərbaycan dünya enerji bazarında etibarlı tərəfdaş kimi formalaşıb. Ölkəmizin zəngin enerji resursları, uzaqgörən siyasəti və diplomatik kursu sayəsində bu gün respublikamız beynəlxalq enerji xəritəsində mühüm oyunçulardan birinə çevrilib. Xüsusilə son illərdə həyata keçirilən transmilli enerji layihələri Azərbaycanın həm regional, həm də qlobal miqyasda rolunu gücləndirib. Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya ixracı isə beynəlxalq aləmdə bu siyasətin yeni və strateji həlqəsi kimi qiymətləndirilib.

Cari ilin aprelin 11-də Antalyada və iyulun 12-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında keçirilən görüşlərdə əldə olunan razılaşmalar isə regionda mühüm enerji əməkdaşlığının əsasını qoyub. Bu razılaşmalar yalnız iqtisadi çərçivədə məhdudlaşmayıb, həm də siyasi və humanitar önəm daşıyıb.

Qeyd edək ki, Azərbaycan uzun illərdir ki, enerji diplomatiyasını yalnız qaz və neft ixracı kimi deyil, həm də regionlarda sabitlik və əməkdaşlığın təminatı vasitəsi kimi görür. Bu baxımdan, Suriyaya qaz ixracı ölkəmizin "enerjidən sülh üçün istifadə" fəlsəfəsinin bariz nümunəsidir.

Müharibədən əziyyət çəkmiş Suriyanın sosial-iqtisadi inkişafı üçün enerji təchizatı mühüm şərtdir. İllərlə davam edən münaqişə nəticəsində ölkənin elektrik şəbəkələri, sənaye müəssisələri və kənd təsərrüfatı infrastrukturunun əhəmiyyətli hissəsi zərər görüb. İndi isə bərpa və dirçəliş mərhələsində sabit və davamlı enerji təminatı həlledici amilə çevrilib.

Ekspertlərin fikrincə, Azərbaycan qazının Suriyaya çatdırılması bu prosesdə bir neçə istiqamətdə mühüm nəticə doğuracaq:

– enerji təhlükəsizliyi ilə bağlı Suriyanın qaz təchizatı şaxələnəcək, onun regional bazarlardan asılılığı azalacaq;

– iqtisadi inkişaf sahəsində sənaye və kənd təsərrüfatında istehsal bərpa olunacaq, yeni iş yerləri açılacaq;

– sosial sabitlik baxımından xəstəxanalar, məktəblər, digər sosial obyektlər fasiləsiz enerji ilə təmin ediləcək;

– humanitar sferada əhalinin rifahı artacaq, həyat şəraiti yaxşılaşacaq;

– nəhayət, Azərbaycan qazı Suriyaya yalnız enerji deyil, həm də ümid, sabitlik və sülh gətirəcək.

Azərbaycanın bu təşəbbüsü regionda əməkdaşlıq formatlarının genişlənməsinə də şərait yaradır. Qardaş Türkiyə ərazisindən keçməklə həyata keçirilən bu layihə üçtərəfli əməkdaşlığın başlanğıcıdır. Türkiyə – Azərbaycan – Suriya enerji xətti bölgədə qarşılıqlı etimadı gücləndirməklə yanaşı, gələcəkdə digər sahələrdə də ortaq layihələrin icrasına təkan verəcəkdir. Eyni zamanda bu addım Azərbaycanın balanslaşdırılmış xarici siyasətinin uğurlu nəticəsidir. Rəsmi Bakı hər zaman enerji layihələrini yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, həm də siyasi sabitlik və qarşılıqlı fayda modelinin əsas elementi kimi təqdim edib.

Dünya enerji bazarında proseslərin getdikcə mürəkkəbləşdiyi, enerji resurslarına çıxışın bəzi ölkələr üçün çətinləşdiyi bir dövrdə Azərbaycan öz təşəbbüsləri ilə diqqət mərkəzindədir. Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən sonra indi də Orta Şərq regionunda yeni əməkdaşlıq modeli formalaşdırır. Bu, Azərbaycanın həm qlobal, həm də regional miqyasda etibarlı tərəfdaş imicini möhkəmləndirir. Azərbaycanın təşəbbüsü ilə Suriyaya qaz ixracı həm də humanitar xarakter daşıyır. Enerji resurslarının münaqişələr və siyasi oyunlar üçün vasitə olduğu bir dövrdə, Azərbaycan onları sülh və inkişaf naminə paylaşmaqla fərqlənir.

Nəhayət, bu layihə yalnız iqtisadi deyil, həm də siyasi mesaj daşıyır. Azərbaycanın Suriyaya qaz ixracı, əslində, ölkəmizin regionda barış, sabitlik və rifah siyasətinin davamıdır. Müharibədən çıxmış bir ölkəyə yardım əlini uzatmaq, onun bərpa və inkişaf prosesinə dəstək olmaq Azərbaycanın humanist diplomatiyasının göstəricisidir. Eyni zamanda bu addım Azərbaycanın beynəlxalq nüfuzunu daha da möhkəmləndirir. Enerji siyasəti ilə siyasi-diplomatik missiyanı birləşdirən Azərbaycan regional güc kimi öz mövqeyini təsdiqləyir.

Azərbaycan qazının Suriyaya ixracı təkcə iqtisadi layihə deyil, həm də strateji, siyasi və humanitar əhəmiyyətə malik hadisədir. Bu təşəbbüs Azərbaycan diplomatiyasının çevikliyini, uzaqgörənliyini və humanist mahiyyətini bir daha nümayiş etdirir. Prezident İlham Əliyevin qlobal çağırışlar fonunda həyata keçirdiyi belə dəyərli təşəbbüslər ölkəmizin məsuliyyətli və praqmatik bir enerji aktoru olduğunu bir daha təsdiqləyir. Dövlətimizin başçısının Antalyada və Bakıda keçirdiyi yüksək səviyyəli görüşlər, bu strateji layihənin siyasi əsaslarını möhkəmləndirməklə yanaşı, onun davamlı və etibarlı icrasına zəmin yaradır.

Layihənin texniki icrası da yüksək səviyyədə təşkil olunub. TANAP və digər mövcud infrastruktur vasitəsilə Azərbaycan qazı Türkiyə ərazisindən Suriyanın şimalına çatdırılır. Türkiyə bu prosesdə həm logistik, həm də texniki dəstək göstərərək regional enerji təhlükəsizliyinə mühüm töhfə verir. Azərbaycan isə müasir texnologiyalardan və peşəkar resurslardan istifadə etməklə qazın fasiləsiz və dayanıqlı şəkildə ötürülməsini gerçəkləşdirir.

Suriyanın enerji sisteminin bərpası istiqamətində həyata keçirilən bu layihə gələcəkdə daha genişmiqyaslı əməkdaşlıq imkanları da vəd edir. Azərbaycanın Suriyada enerji infrastrukturu, elektrik stansiyaları və digər texniki obyektlərin bərpasında iştirak etməsi də istisna deyil. Bu isə təkcə enerji təminatını deyil, həm də sosial və iqtisadi canlanmanı reallaşdıracaq bir addımdır. Azərbaycan və Türkiyənin Suriyanın bərpası prosesində ortaq mövqedən çıxış etməsi regional həmrəylik və sülh təşəbbüslərinin real nəticələr verdiyini göstərir. Bu əməkdaşlıq modeli, eyni zamanda münaqişədən çıxmış və bərpa mərhələsində olan ölkələrin inkişafına dəstək göstərmək baxımından nümunə ola bilər.

Onu da qeyd edək ki, Azərbaycan qazının Türkiyə vasitəsilə Suriyaya ixracı bir neçə strateji məqsədi həyata keçirir: regionda enerji təhlükəsizliyini möhkəmləndirir, Suriyanın bərpasına dəstək verir, Azərbaycan və Türkiyə arasındakı strateji əməkdaşlığı dərinləşdirir və bölgədə sabitlik, əməkdaşlıq və tərəqqiyə yönələn yeni bir səhifə açır. Bu, Azərbaycanın yalnız enerji istehsalçısı və ixracatçısı deyil, həm də sülh, inkişaf və humanitar dəyərlərin daşıyıcısı olduğunu bir daha sübut edir.

Sonda onu da qeyd edək ki, ilkin mərhələdə illik 1,2 milyard kubmetr qaz ixracı Azərbaycan üçün əməliyyat gəlirlərinin əlavə mənbəyi olmaqla yanaşı, Suriya üçün həyati əhəmiyyət kəsb edir. Layihə geniş perspektivdə ildə 2 milyard kubmetrə arta bilər və birgə elektrik təminatı (1,000-1,200 MW) vasitəsilə müharibədən zərər çəkən bir ölkənin enerji infrastrukturunun bərpasına ciddi töhfə verməyi şərtləndirər.

Bu əməkdaşlıq, eyni zamanda Azərbaycanın iqtisadi diversifikasiyasını, coğrafi portfelini və geosiyasi nüfuzunu artırır, sadəcə enerji ixracatçısı olmaqla kifayətlənməyərək regionun bərpa prosesində fəal rol oynayan tərəfdaş kimi tanınmasını gerçəkləşdirir.

***V.BİNYATOĞLU***
***XQ***

# TANAP – Azərbaycandan Avropaya enerji körpüsü

## *7 ildə bu kəmərlə 50 milyard kubmetr qaz nəql edilib*




**Dövlət Neft Şirkətinin Türkiyədəki törəmə "SOCAR Türkiyə" şirkətinin mediada yayılan məlumatına görə, Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Trans – Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Avropaya ötürülən təbii qazın həcmi 50 milyard kubmetrə çatıb. Layihə indiyədək Avropanın enerji təchizatını şaxələndirməklə yanaşı, regional təhlükəsizliyin möhkəmlənməsinə də mühüm töhfə verib. TANAP, eyni zamanda Azərbaycan, Türkiyə və Avropa arasında uzunmüddətli iqtisadi və strateji əməkdaşlığın güclənməsinə şərait yaradıb.**

Qeyd edək ki, Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağından çıxarılan təbii qazın ölkənin hüdudlarından kənara nəql edən kəmərin ilk hissəsinin istifadəyə verilməsindən 7 il ötür. Azərbaycan və Türkiyənin birgə reallaşdırdığı ən uğurlu enerji layihələrindən biri olan TANAP regionun və Avropanın enerji xəritəsini yenidən formalaşdıran, beynəlxalq əməkdaşlığın uğurlu nümunəsi sayılan Cənub Qaz Dəhlizi layihəsinin əsas seqmentlərindən birini təşkil edir.

"Enerjinin İpək yolu" adlandırılan TANAP layihəsi üzrə saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb. 2015-ci il martın 12-də boru kəmərinin təməli qoyulub. Kəmərin qardaş ölkə ərazisində doldurulmasına 2018-ci ilin yanvar ayının sonunda start verilib. Həmin il iyunun 12-də Türkiyənin Eskişehir şəhərində TANAP-ın Türkiyə hissəsinin açılışı keçirilib. Qardaş ölkəyə ilk kommersiya qazının ixracı isə 2019-cu il iyunun 30-da başlayıb. Noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala şəhərində TANAP-ın Avropa ilə birləşdirilməsinin tamamlanmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edən TANAP layihəsi üzrə tikinti işlərinə, təqribən, 5 il vaxt sərf olunub. Azərbaycanı Avropa üçün əhəmiyyətli qaz ixracatçısına çevirən bu layihə üzrə tikinti işlərinə isə 6,5 milyard ABŞ dollarından artıq vəsait xərclənib. Dörd mərhələdə həyata keçirilən layihənin ilk mərhələsi 2018-ci ildə başa çatdırılıb. TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası isə həmin il noyabrın 30-da istifadəyə verilib.

TANAP layihəsi Cənubi Qafqaz Boru Kəməri (CQBK) və Trans-Adriatik Boru Kəməri (TAP) ilə birlikdə Cənub Qaz Dəhlizinin mərkəzi və əsas hissəsi olan bir layihədir. Bu, həm də uzunluğuna və boruların diametrinə görə Yaxın Şərqdə inşa edilmiş ən böyük magistral qaz kəməridir. TANAP layihəsi Gürcüstan–Türkiyə sərhədindən başlayaraq CQBK sisteminə inteqrə edilərək Türkiyə ərazisindən keçməklə Türkiyə–Yunanıstan sərhədində başa çatır. Daha sonra isə təbii qazın Avropaya çatdırılması üçün TAP boru kəmərinə birləşdirilir.

Trans-Anadolu boru kəməri və bütövlükdə, Cənub Qaz Dəhlizi Azərbaycanın enerji siyasətinin təntənəsidir. Belə ki, ölkəmiz əvvəllər qaz ehtiyatlarını dörd istiqamətdə ixrac etmək imkanına malik olsa da, yeni əsrdə daha bir nəhəng enerji dəhlizinin yaradılmasına üstünlük verib. Beləliklə, ulu öndər Heydər Əliyevin yeni neft strategiyasını uğurla həyata keçirən Prezident İlham Əliyevin qətiyyəti və məqsədyönlü fəaliyyəti nəticəsində XXI əsrin ən nəhəng enerji layihələrindən olan Cənub Qaz Dəhlizi ideyadan reallığa çevrilib. Azərbaycan qazının Avropaya nəqli üçün ən etibarlı marşrut sayılan Cənub Qaz Dəhlizinin mühüm, sonuncudan əvvəlki seqmenti sayılan Trans-Anadolu qaz kəməri layihəsi Azərbaycan və Türkiyənin birgə enerji əməkdaşlığının, dostluq və qardaşlıq münasibətlərinin təntənəsidir. Təsadüfi deyil ki, ölkələrimiz arasında enerji sahəsindəki əməkdaşlığın ənənəvi xarakter daşıdığını dəfələrlə bəyan edən dövlətimizin başçısı İlham Əliyev XXI əsrin nəhəng qaz ixracı layihəsinin əhəmiyyəti barədə danışarkən deyib: "TANAP layihəsi dünyada böyük səs salmışdır və dünyada enerji siyasətinin yenidən formalaşması istiqamətində atılan mühüm addımdır. Beynəlxalq aləmdə TANAP layihəsinə olan diqqət onu göstərir ki, Türkiyə və Azərbaycan həmişə olduğu kimi, lazım olan vaxtda birgə təşəbbüs göstərərək, bütün məsuliyyəti öz üzərinə götürərək bu böyük layihəyə start verdi. Ümid edirəm ki, danışdığımız kimi, yaxın beş ildə biz TANAP layihəsinin icrasına nail olacağıq və beləliklə, Azərbaycan Türkiyə üçün önəmli qaz təminatçısı olacaqdır və eyni zamanda Azərbaycan qazı Türkiyə vasitəsilə Avropaya nəql ediləcək".

TANAP layihəsi regionda qarşılıqlı əməkdaşlığın növbəti təzahürüdür. Bu, iki qardaş, dost ölkə olan Azərbaycan və Türkiyənin birgə səyi və gücü ilə reallaşdırılacaq daha bir enerji layihəsidir. Azərbaycan qazını Türkiyə vasitəsilə dünya bazarına çıxaran Trans-Anadolu boru kəməri hər iki ölkənin iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına, bu sahədə tərəfdaşlıq münasibətlərinin bir qədər də möhkəmləndirilməsinə səbəb olub.

# Azad Qarabağ sənaye zonasına çevrilir

## *Bölgədə yeni parklara 288 milyon manat yatırım qoyulub*

**Azərbaycanın işğaldan azad olunmuş ərazilərində güclü sənaye potensialı mövcuddur. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bərpa-quruculuq strategiyası çərçivəsində sənayeləşmə siyasəti mühüm yer tutur. Bu məqsədlə regionda istehsal sektorunun inkişafı, mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə olunması istiqamətində işlər sürətlə davam etdirilir.**



Məlum olduğu kimi, işğaldan azad olunmuş ərazilərin sənaye potensialının ölkə iqtisadiyyatına reinteqrasiyası məqsədilə dövlət başçısının müvafiq fərmanları ilə regionda iri sənaye parkları yaradılıb. Ötən müddətdə Qarabağ və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarına göstərilən hərtərəfli dövlət dəstəyi, ərazidə lazımi infrastrukturun qurulması, iş adamları üçün yaradılan münbit şərait, bir sıra vergi güzəştləri yerli və xarici investorların diqqətini cəlb edib. Məhz bunun nəticəsidir ki, son zamanlar sənaye parklarının rezidentlərinin sayı xeyli artıb.

Artıq rezidentlər tərəfindən sənaye parklarında qabaqcıl texnologiyalar əsasında çoxsaylı istehsal müəssisələri yaradılıb. Həmin müəssisələr ölkə iqtisadiyyatının şaxələndirilməsinə, qeyri-neft qaz sektorunun inkişafına mühüm töhfələr verməklə yanaşı, daxili bazarın bir sıra keyfiyyətli sənaye mallarına olan tələbatının ödənilməsinə, eləcə də ölkənin ixrac potensialının artırılmasına mühüm töhfələr verir.

Ağdam Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli fərmanı ilə yaradılıb. İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatın əsasən, ötən müddətdə burada investisiya portfeli 285 milyon manatdan çox olan 30 rezident və 4 qeyri-rezident qeydiyyatdan keçib. Rezident sayına görə ölkə üzrə ikinci yerdə olan Ağdam Sənaye Parkında sahibkarlar tərəfindən görülmüş işlərə 138 milyon manata yaxın investisiya yatırılıb. Bunun da hesabına 900-dən artıq daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir.

Sənaye parkında fəaliyyətə başladığı müddətdən indiyədək təxminən 500 milyon manat dəyərində məhsul istehsal olunub. Bunun isə 18 milyon manatlıq hissəsi dünya bazarlarına ixrac edilib. Sənaye parkında əsasən tikinti materiallarının, tütün məmulatlarının, müxtəlif növ ayaqqabıların, havalandırma, yanğınsöndürmə və metal məmulatlarının, dəmir yolu avadanlıqlarının, elektrik avadanlıqlarının və s. istehsalı həyata keçirilir. İstehsal edilən məhsullardan işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-quraşdırma işlərində geniş istifadə edilir.

Ümumilikdə, Ağdam Sənaye Parkının əksər hissəsi sahibkarların istifadəsinə verilib. Hazırda parkın qalan əraziləri üzrə sahibkarlardan investisiya müraciətlərinin qəbulu davam edir.

İşğaldan azad olunmuş ərazilərin sənaye potensialının hərəkətə gətirilməsində müstəsna rol oynayan "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı isə dövlət başçısının 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Ərazisi 200 hektar təşkil edən bu sənaye parkı logistika baxımından strateji əhəmiyyətə malik Cəbrayıl rayonunda, yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir. Parkın əsas fəaliyyət istiqamətləri logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiridir.

Ötən müddətdə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında ümumi investisiya portfeli 150 milyon manata yaxın 18 sahibkarlıq subyekti rezident, 3 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib. Cəbrayıl rayonunda yerləşən sənaye parkında sahibkarlar tərəfindən indiyədək 3,4 milyon manatlıq, o cümlədən bu ilin birinci yarısında 2,7 milyon manatlıq məhsul satışı həyata keçirilib.

Qeyd edək ki, sənaye parklarında sahibkarlıq fəaliyyətinin inkişafı üçün əlverişli mühit yaradılıb. Sənaye parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla – qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Parkların rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumundan tam azad olunurlar. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma (müəyyən edilmiş siyahıya əsasən) aiddir.

# "Bakı–Ağdam" qatarı 32 ildən sonra reysə çıxır

**"Hörmətli sərnişinlər, Bakıdan Ağdama gedən sərnişin qatarı... yola düşür". 32 ildən sonra Bakı Dəmir Yolu vağzalında bu elanı hər gün eşidəcək və qəlbimiz sonsuz fərəh hissi ilə dolacaq... "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti avqustun 30-dan Bakı-Ağdam-Bakı marşrutu üzrə sərnişin daşımalarına start verir.**



Qurumdan verilən məlumata əsasən, sərnişinlərə İsveçrənin "Stadler" şirkətinin istehsalı olan "FLIRT" markalı müasir qatarlarla xidmət göstəriləcək. Hərəkət cədvəlinə uyğun olaraq, şənbə günləri saat 07:10-da Bakıdan yola düşəcək qatar saat 11:53-də Ağdama çatacaq. Ağdamdan saat 18:20-də çıxan qatar isə saat 22:55-də Bakı Dəmiryol Vağzalında olacaq.

Sərnişinlər marşrut üzrə Bakı, Biləcəri, Ucar, Ləki, Yevlax, Bərdə, Köçərli, Təzəkənd və Ağdam stansiyalarından istifadə edə biləcəklər. Onlara standart, standart+, biznes və birinci siniflər üzrə səyahət imkanları təklif olunacaq. Səfər zamanı qatarda ödənişsiz "Wi-Fi" xidmətindən yararlanmaq da mümkün olacaq. Bakıdan Bərdə və Köçərli stansiyasına, Təzəkənd dayanacağına biletlərin minimum qiyməti 12 manat, Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinə isə 12,80 manat təşkil edir.

Bakı-Ağdam-Bakı marşrutu üzrə biletləri avqustun 7-dən ADY-nin veb-saytından, "ADY Mobile" tətbiqindən və dəmiryol kassalarından əldə etmək olar. Eyni zamanda işğaldan azad edilmiş ərazilərə qatarla komfortlu səfərlərin təşkili məqsədilə Bakı-Ağdam-Bakı marşrutu üzrə bilet alışı zamanı portaldan avtomatik icazə təmin olunacaq.

Xatırladaq ki, işğal dövrünə qədər Bakıdan Ağdama kimi sərnişin daşımaları Bakı-Xankəndi-Bakı marşrutu üzrə hərəkət edən yataq tipli qatarla həyata keçirilirdi. Qatarlar Bakı-Ağdam-Bakı istiqamətində sonuncu dəfə 1993-cü ildə hərəkət edib. Həmin vaxt qatarla Ağdama kimi 371 kilometr olan məsafə 8 saat yarıma qət edilirdi.

Bakı-Ağdam-Bakı dəmir yolu Qarabağ iqtisadi rayonunda ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, Ağdam və ətraf rayonların sosial-iqtisadi dirçəlişinə, Azərbaycanın bu bölgədə nəqliyyat imkanlarının genişlənməsinə, bütövlükdə, Böyük Qayıdışa mühüm töhfə verəcək.

# AZSTAND beynəlxalq qeydiyyat qazanıb



**Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) beynəlxalq qeydiyyat əldə edib. AZSTAND-ın idarəetmə sistemlərinin sertifikatlaşdırılması orqanı Özbəkistan Akkreditasiya Mərkəzində (O‘ZAKK) beynəlxalq qeydiyyatdan keçib.**

Qurumdan verilən məlumata görə, O‘ZAKK tərəfindən keçirilən uyğunluğun qiymətləndirilməsi üzrə auditin nəticələrinə əsasən AZSTAND ISO/IEC 17021-1:2015 standartına uyğun akkreditasiya sahəsini genişləndirib. Bununla da qurum ISO 9001:2015 "Keyfiyyətin idarəetmə sistemi", ISO 14001:2015 "Ətraf mühitin idarəetmə sistemi", ISO 45001:2018 "Peşə sağlamlığı və təhlükəsizliyi idarəetmə sistemi" və ISO 22000:2018 "Qida məhsullarının təhlükəsizliyi idarəetmə sistemi" üzrə sertifikatlaşdırma səlahiyyətlərini artırıb.

Yeni akkreditasiya AZSTAND-a neft, kimya və qida sənayesində beynəlxalq standartlara uyğun sertifikatlaşdırma xidmətləri göstərmək imkanı verir. Bu isə yerli müəssisələrin rəqabət qabiliyyətini artırmaqla yanaşı, ixrac potensialının da güclənməsinə töhfə verəcək.

Qeyd edək ki, O‘ZAKK Özbəkistan Respublikasında uyğunluğu qiymətləndirən orqanların akkreditasiyası üzrə xüsusi səlahiyyətli qurumdur. 2020-ci ildən Akkreditasiya üzrə Beynəlxalq Forumun üzvü olan mərkəzin qərarları beynəlxalq səviyyədə tanınır.

# Kəlbəcər şəhərinin yolları da rahat və yaraşıqlı olacaq



**Ölkə Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Kəlbəcər şəhərinin daxili yollarının tikintisi layihəsi sürətlə və yüksək keyfiyyətlə icra olunur. Məlum olduğu kimi, şəhərin ilk yaşayış məhəlləsinin təməli 2023-cü il mayın 27-də Prezident İlham Əliyevin rayona səfəri zamanı qoyulub. Hazırda burada yeni binaların tikintisi ilə yanaşı, yol infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülür.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına əsasən, ümumi uzunluğu 26,5 kilometr olan şəhərdaxili yolların birinci mərhələdə 18,9 kilometrlik hissəsində tikinti işləri aparılır. Yollar 4 müxtəlif en kəsiyinə uyğun inşa edilir. Bu kəsiklərə uyğun olaraq hərəkət zolaqlarının sayı 2-dən 4-ə qədər, hərəkət zolaqlarının eni 3-3,5 metr, yaşıllıq zolaqlarının eni 1,5-3 metr, velosiped zolaqlarının eni 0,7-1,5 metr, piyada səkilərinin eni isə 2-4 metr təşkil edir. Yolların torpaq yatağının eni 12, 18, 24 və 30 metr olmaqla dəyişir.

Artıq birinci mərhələ çərçivəsində şəhər küçələri boyunca kommunikasiya xətlərinin – su, kanalizasiya, yağış suları, qaz, rabitə və elektrik xətlərinin tikintisi işləri, demək olar ki, başa çatmaq üzrədir. Bu məqsədlə müxtəlif diametrli borular və texniki quyular quraşdırılır, həmçinin bordür və tamet daşlarının düzülməsi işləri aparılır. Ötən müddətdə layihə çərçivəsində tikinti işlərinin 76 faizi yerinə yetirilib.

Qeyd edək ki, bütün tikinti prosesi "İnşaat norma və qaydaları"na uyğun olaraq və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir. Ümumilikdə isə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Kəlbəcər şəhərinin daxili yollarının tikintisi layihəsinin 2026-cı ildə tam başa çatdırılması nəzərdə tutulur.

**Səhifəni hazırladılar:
Vaqif BAYRAMOV,
Mirbağır YAQUBZADƏ
XQ**

*Üzeyir Hacıbəyli – 140*

# Üzeyir Hacıbəyli və Naxçıvan

## *Böyük bəstəkarı qədim diyarla sıx əlaqə bağlayırdı*



**Çoxyönlü yaradıcılığı, ictimai-mədəni və təşkilatçılıq fəaliyyəti ilə tarixə düşmüş Üzeyir Hacıbəyli Naxçıvan torpağı ilə də sıx bağlı olub. Muxtar respublika mətbuatının səhifələrində, elmi-mədəni araşdırmalarda bu barədə çoxsaylı mənbələr var.**

Üzeyir Hacıbəylinin Naxçıvanla ilk tanışlığı bəstəkar qardaşı Zülfüqar Hacıbəylinin 1910-cu ildə Naxçıvan teatrı ilə əlaqə yaratması ilə başlayıb. Zülfüqar bəy ilk dəfə o zaman Mirzəağa Əliyev və digər sənətkarlarla birlikdə Naxçıvana gəlib. 1911-ci ildə isə Zülfüqar Hacıbəyli yerli aktyorların iştirakı ilə Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun", "Ər və arvad" və özünün "Əlli yaşında cavan" əsərlərini tamaşaya hazırlayıb. Bəstəkar bu illərdə Naxçıvanda Şərq musiqisindən ibarət məclislər təşkil edib, dram dərnəyi üzvlərinin musiqi təliminə rəhbərlik edib. O vaxtdan başlayaraq Üzeyir bəyin də həyat və yaradıcılığı bəstəkar qardaşı ilə bərabər, Naxçıvandakı sənət dostları, yetirmələri, rəhbər şəxslərlə təşkilati əməkdaşlığı yaranıb.

Üzeyir Hacıbəylinin Naxçıvanla birbaşa əlaqəsi, ədəbi və musiqi mühitinin nümayəndələri ilə canlı görüşləri isə 1937-ci ildə muxtar diyara ilk gəlişi ilə başlayıb. Böyük bəstəkarın keçmiş SSRİ Ali Sovetinə deputatlığa namizədliyi məhz Naxçıvandan irəli sürülüb. İlk sovet parlamentində Naxçıvanın təmsilçisi olmaq bəstəkarın qədim diyarla əvvəllər də mövcud olan mədəni əlaqələrinə ciddi bir axar, ictimai-siyasi məzmun da gətirib. Naxçıvanın mədəni həyatının yüksəlişi daim Üzeyir Hacıbəylinin diqqət mərkəzində olub.

Dahi bəstəkarın Naxçıvanda ilk musiqi məktəbinin açılmasında da xidmətləri olub. Bu məktəbə Üzeyir Hacıbəyli notlar və piano hədiyyə etmişdir. Məmməd Məmmədov adına Naxçıvan şəhər 1 nömrəli Uşaq Musiqi Məktəbində Üzeyir bəyin hədiyyə etdiyi həmin piano indiyədək qorunub saxlanılır. Bu musiqi məktəbində Nəriman Məmmədov, Ramiz Mirişli, Yaşar Səfərov, Kamal Əhmədov, Nazim Kazımov, Adıgözəl Əliyev kimi musiqiçilər yetişib. Ümumiyyətlə, Üzeyir Hacıbəyli deputat olduğu illərdə Naxçıvanda musiqi məktəblərinin, kollektivlərinin təşkilində, milli musiqiçi kadrların hazırlanmasında əvəzolunmaz xidmətlər göstərib. O, mütəmadi olaraq Naxçıvana gələrək sakinlərlə görüşər, onların arzularının gerçəkləşməsini təmin edərmiş. Naxçıvanlılardan bəstəkar Məmməd Məmmədovun, nəğməkar şair İslam Səfərlinin və başqalarının təhsil almasında böyük rolu olub.

Üzeyirbəyşünas Səadət Qarabağlı yazılarının birində dünyaşöhrətli bəstəkarın köməkçisi, professor Ramazan Xəlilovun xatirələrindən belə bir hissəni qeyd etmişdir: "1945-ci il idi. Üzeyir bəy Naxçıvana seçiciləri ilə görüşə getmişdi. Biz orada "Qonaq evi"ndə qalırdıq. Bir gün "Qonaq evi"nə əsgər paltarında cavan oğlan gəldi. Müharibədən yenicə qayıtmış bu oğlan İslam Səfərli idi. O, Üzeyir bəylə görüşdükdən sonra yazdığı şeirləri göstərdi. Söz sərrafı olan böyük sənətkar onları oxudu və bəyəndiyini söylədi. Gənc oğlana Bakıya getməyi tövsiyə etdi. Bildirdi ki, o, mütləq ali təhsil almalıdır. İslam utana-utana Bakıya getmək üçün maddi durumunun məhdud olduğunu dedi. Bu zaman Üzeyir bəy mənə işarə etdi ki, bu gəncə pul verim. Mən də zərfə 500 manat qoyub ona verdim. Üzeyir bəy onu Bakıda gözləyəcəyini söylədi".

Çox keçmir ki, İslam Səfərli Bakıya birbaşa Üzeyir Hacıbəylinin yanına gedir. Görkəmli bəstəkar onu mehribanlıqla qarşılayır. Elə oradaca Azərbaycan Dövlət Universitetinin rektoru Abdulla Qarayevə zəng edir və istedadlı gəncin universitetə qəbul olunmasını xahiş edir. Qəbul imtahanlarının qurtardığına baxmayaraq, A.Qarayev Üzeyir bəyin sözünü yerə salmır. Beləliklə, İslam Səfərli Azərbaycan Dövlət Universitetinə imtahansız qəbul olunur, təqaüdünü isə hər ay Üzeyir bəy özü verir. Görkəmli şairimiz bu yaxşılığı ömrünün sonuna kimi unutmamışdı...

Üzeyir bəyin tələbəsi, məşhur "Barı Naxçıvan" mahnısının müəllifi Məmməd Cavadov isə öz xatirələrində yazırdı: "1946-cı ildə Üzeyir Hacıbəyli seçicilərlə görüşmək üçün bir neçə günlüyə Naxçıvana gəlmişdi. Onun gəlişindən xəbər tutan kimi getdim "Qonaq evi"nə. Üzeyir bəy və onunla gələn Ramazan Xəlilovla sevinclə görüşdüm. Üzeyir bəy gülərüzlə dedi: – Ay Məmməd, sən burada neyləyirsən? Dedim ki, 1943-cü il, fevralın 23-dən məni Mədəniyyət Nazirliyi Naxçıvana göndərib və elə o vaxtdan da burda işləyirəm. Soruşdu ki, burda nə iş görürsən? Dedim ki, Dram Teatrında dirijor və musiqi məktəbində nəzəriyyə fənni üzrə müəllim işləyirəm. Mənə müntəzəm qayğı göstərdi. Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Naxçıvanda Azərbaycan xalq çalğı alətləri orkestri təşkil olunanda onun tapşırığı ilə məni həmin orkestrə dirijor və bədii rəhbər təyin etdilər".

Üzeyir Hacıbəylinin 1929-cu ildə yaradılan "Şərur" xalq yallı ansamblının tanınmasında və repertuarının genişlənməsində də böyük xidmətləri olub. Onun xeyir-duası ilə ansambl 1938-ci ildə Moskvada keçirilən "Azərbaycan mədəniyyəti ongünlüyü"ndə maraqlı proqramla çıxış edib. Sonra kollektiv dünyanın bir çox ölkəsində festivallarda iştirak edib, diplom və mükafatlara layiq görülüb.

1972-ci ildə Almaniya Demokratik Respublikasında keçirilən beynəlxalq folklor festivalı ilə bağlı Xalq artisti Əminə Dilbazi xatirələrində bildirir: "Moskvadan xəbər gəldi, bəs Berlində Ümumdünya folklor festivalı olacaq. Məni çağırıb dedilər ki, sən nə məsləhət görürsən? SSRİ-ni Almaniyada kim təmsil edəcək, kimi aparaq? Qərara gəldik ki, Naxçıvan yallısını aparaq. Mən bilirdim ki, Şərur torpağı yallının beşiyidir. Az olubmu bizim yallıları, rəqslərimizi öz adlarına çıxanlar? Ona görə də biz ora – Almaniyaya elə bir folklor nümunəsi aparmalıyıq ki, üstündə möhürü olsun. Bu, Şərur yallısı idi.

Beləcə, yüksək səviyyədə hazırlaşan "Şərur" xalq yallı ansamblı uğurlu çıxışı ilə festivalda 1-ci yeri tutdu, kollektivə Berlinin rəmzi sayılan balta hədiyyə edildi.

Ümumiyyətlə, dünyaşöhrətli bəstəkar həm deputat, həm də qayğıkeş insan və əsl vətəndaş kimi naxçıvanlıların qəlbində böyük yer tutmuşdur. Bəstəkarın anadan olmasının 60, musiqi fəaliyyətinin isə 40 illiyi ilə bağlı Naxçıvan ziyalılarının "Şərq qapısı" qəzetinin 1945-ci il 21 sentyabr nömrəsində ona ünvanladığı təbrik məktubunda bu fikirlər qeyd olunur: "Sizin şəxsinizdə bizim musiqimiz bütün sovet xalqları içərisində səslənməkdədir. Bunun əsl səbəbi ondan ibarətdir ki, siz yaradıcılığınız boyu xalqdan ayrılmamısınız. Siz xalqın arzu və istəklərini, onun şadlığını və qəlb acılarını incə və zəngin musiqinizdə əks etdirmisiniz".

Fərəhlidir ki, dahi bəstəkarın irsi bu gün də ən yüksək səviyyədə qorunur, milli musiqimiz lazımi şəkildə təbliğ olunur. Azərbaycan Prezidentinin "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında" 3 fevral 2025-ci il tarixli Sərəncamı da Üzeyir bəy şəxsiyyətinə və yaradıcılığına yüksək münasibətin göstəricisidir.

Dahi bəstəkarın xatirəsi ölkəmizin hər yerində olduğu kimi, Naxçıvanda da daim əziz tutulur.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*Ağəddin Mansurzadə – 85*

# Ömür bitsə də, sənət yaşayır

**Tanınmış yazıçı-publisist, naşir Hacı Ağəddin Mansurzadə 17 il əvvəl dünyasını dəyişsə də, el-obasının, dostlarının və oxucularının yaddaşında yaşamaqda, ehtiramla yad edilməkdədir.**

Ağəddin Mansur oğlu Mansurzadə 1940-cı il avqustun 28-də Masallı rayonunun Qodman kəndində, kolxozçu ailəsində anadan olub. ADU-nun Filologiya fakültəsinin jurnalistika şöbəsini bitirib. Ədəbi yaradıcılığa 1964-cü ildən "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdiyi "İslam və onun briqadası" adlı ilk oçerki ilə başlayıb. Ardınca dövri mətbuatda müntəzəm çıxış edib. O, 1963-1966-cı illərdə Şumqayıt Şəhər Komsomol Komitəsi 1 saylı tikinti trestində, Neft-Kimya Kombinatı Ümumittifaq Zərbəçi Komsomol Tikinti Qərargahında işləyib. Bir neçə il texniki peşə məktəblərində çalışıb. 1970-ci ildən başlayaraq müxtəlif vaxtlarda "Ədəbiyyat və incəsənət", "Bakı", "Ülfət", "168 saat", "Dünya pəncərə", "Bakı Bələdiyyəsi" qəzetlərində və "Mozalan" satirik jurnalında çalışıb.



O, "Mən hamının balasıyam" (1976), "Təzə paltar" (1985), "Cənnətdə görüşənədək" (1998), "İnsan qaranquş deyil" (2000), "Mən Bəxtiyaram" (2000), "Ayağa qalxaq" (2001), "Ədəbi portretlər" (2002), "Ədəbi söhbətlər" (2004), "Ədəbi mülahizələr" (2006), "Karvan gedir" (2007), "Sənətkar xoşbəxtliyi" (2007) və s.əsərlərin müəllifidir. Əsərləri bir neçə xarici dilə nəşr olunub.

Məşhur yazıçılar, ünlü qələm sahibləri ilə səmimi dostluq münasibətləri olan Ağəddin Mansurzadə özü də gənclərə qayğı və diqqət göstərib. Onun insani keyfiyyətləri, yaradıcılığı barədə Mirzə İbrahimov, Bəxtiyar Vahabzadə, Hüseyn Abbaszadə, Qulu Xəlilli, Teymur Bünyadov, Nəriman Həsənzadə, Sabir Rüstəmxanlı, Qəzənfər Paşayev, Məmməd Aslan, Aqşin Babayev, Vasim Məmmədəliyev, Məryəm Əlizadə, Nizami Cəfərov, Hüseynbala Mirələmov və bir çox başqaları ürəkdən gələn xoş təəssüratlarını, duyğu və düşüncələrini yazıblar.

Ağəddin Mansurzadənin 85 illik yubileyi ərəfəsində onun haqqında "Ömür bitsə də..." adlı xatirə kitabı işıq üzü görüb. Həmin kitabda ünlü yazarların çap olunan məqalələrindən bəzi sitatları oxuculara təqdim edirik.

**Mirzə İbrahimov:** "Ağəddinin hekayələri bədii fikrin hərəkəti ilə mövzu cəhətdən, surətlərin müxtəlifliyi və süjetin yeni səpkilərdə inkişafı cəhətdən haçalanır, yeni çalarlarla oxucu marağını oxşayır. Bu hekayələrdə ədəbiyyatın qədim və əbədi predmeti sayılan məhəbbətə də, nağılvari yazılara, cazibədar əhvalata da rast gəlirik. Həyati, publisistik mövzu və təsvirlər bu rənglər fonunda heç də öz aktuallığını və əhəmiyyətini itirmir, əksinə, o rənglərə bir parlaqlıq, bir cazi-bə qüvvəsi verir.

…Ağəddin mətbuat səhifələrində dönə-dönə ədəbiyyatımızın, elm və mədəniyyətimizin aktual məsələləri barədə yazmağa məni də ruhlandırmışdır. Mən yazıçı dostlarımdan onun barədə həmişə təqdirəlayiq fikirlər eşitmişəm. Hərdən onun kimi tanışları və dostları yadıma salanda deyirəm: "Kaş bütün insanlar belə olaydı!" Onda hamımızın müqəddəs arzusu olan ideal cəmiyyətə gedən yol bəlkə də bu qədər çətin olmazdı".

**Bəxtiyar Vahabzadə:** "Ağəddin Mansurzadəni 70-ci illərdən tanıyıram. Mənim ona olan dostluq münasibətimin əsasında ilk növbədə insanlığı, xeyirxahlığı və alicənablığı durur. Bir kimsəni incitməyən bu insanın qəlbində zərrə qədər kin və küdurətin olmasına inanmıram. Bu keyfiyyət onun Allaha böyük sevgi və inamından irəli gəlir. Allahını tanıyan, onu qəlbində və ruhunda yaşadan Ağəddin mənimçün həmişə əziz və doğma olmuşdur".

**Hüseyn Abbaszadə:** "Ağəddinin "Müasir nağıllar" silsiləsindən "Dərinlik" adlı yığcam bir hekayəsi var. Mən onu oxuyanda Ağəddin gəlib durdu gözlərimin önündə. "Dərinlik" hekayəsinin qəhrəmanı–yeri düşəndə iclaslarda haqqı, ədaləti mərdanəliklə müdafiə edən Eynulla müəllimin xarakterində, hərəkətlərində Ağəddinin xarakterinin tanış cizgilərini gördüm.

"Müasir nağıllar" silsiləsindən yadda qalan dəyərli hekayələr çoxdur. Mən ilk növbədə onlardan "Lal Vəli", "Papaqçı Tərlan", "Mıx" hekayələrini qeyd etmək istərdim. Ümumiyyətlə, "Müasir nağıllar" silsiləsi nasir kimi Ağəddinin yaradıcılıq uğuru kimi qeyd edilməlidir".

**Qulu Xəlilli:** "A.Mansurzadə qələmi oçerk və publisistik məqalələrdə daha kəskin və ötkəmdir. O, mənfiliklərə qarşı bir vətəndaş kimi çox dözümsüzdür. Bu cəhət isə istər-istəməz onun qələminə cəsarət və kəskinlik aşılayır. Bu cəhətdən Azərbaycan və rus dillərində çap etdirdiyi "Ayağa qalxaq", "Belə məhəbbət olmaz", "Çukot etüdləri", "Anadır, yoxsa…", "Xoş gördük sərkərdə ba-bam", "Açın qapıları", "Hələ yara istidir", "Təmiz su" və s. bu kimi publisistik yazıları xarakterikdir. Müəllif bu tipli yazılarında xalqın mili dirçəliş duyğularını, şüur və təfəkkür qüdrətini həm təqdir edir, həm də bu xalqın ləyaqətinə, tarixinə varlığına, insanpərvərliyinə böhtan atanları qırmanclayır".

**Hüseynbala Mirələmov:** "Heç bir dəbdəbə axtarmayan, şan-şöhrətdə gözü olmayan Ağəddin Mansurzadə istər bədii nəsrində, istərsə də sənədli xatirə – povestlərində insan taleyinə həssaslıqla yanaşan, cəmiyyətin və təbiətin problemlərini humanistcəsinə qələmə alan yazıçı-publisist, həm də unudulmaz bir insan kimi mənim xatirəmdə yaşayır. Allah ona rəhmət eləsin".

Bəli, doğrudan da, ömür bitsə də, xatirələrdə, anımlarda həyat davam edir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Laçında MDB ölkələrinin kino günləri





**Artıq 3-cü dəfə keçirilən Laçın Şəhəri Günü ilə əlaqədar Azərbaycanın dilbər guşəsində çoxsaylı tədbirlər reallaşır. Bunun bir səbəbi də dağlar diyarının bu il "MDB-nin mədəniyyət paytaxtı" missiyasını daşımasıdır. Laçın eyni zamanda "MDB ölkələrinin Gənclər Düşərgəsi"nə və "MDB ölkələrinin Beynəlxalq Kino Günləri"nə ev sahibliyi edir.**

Hər iki layihə Mədəniyyət Nazirliyi, Gənclər Fondu, MDB üzrə Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu və Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) birgə təşkilatçılığı ilə reallaşır.

Bayram proqramı çərçivəsində Azərbaycan, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistanı təmsil edən gənclərin iştirakı ilə "Mədəni və yaradıcı sənayelərdə gənclər dalğası" mövzusunda panel müzakirə maraqla qarşılanıb. Natiqlər Prezident İlham Əliyev tərəfindən ölkəmizdə gənclərin hərtərəfli inkişafı üçün lazımi şərait yaradıldığını bildiriblər. Qeyd olunub ki, Azərbaycanda mədəniyyət və yaradıcı sənayelərin inkişafı da diqqətdə saxlanılır, gənclərin bu sahədə fəaliyyətinə dəstək verilir. "MDB-nin mədəniyyət paytaxtı"nda dost ölkələrdən yaradıcı gənclərin bir araya gəlməsi də əməkdaşlığa, mədəniyyətlərarası dialoqun güclənməsinə və yeni yaradıcılıq təşəbbüslərinin formalaşmasına töhfə verəcək.

Laçın Şəhəri Günü ilə bağlı Həkəri çayının sahilində qurulmuş səhnədə Azərbaycanın tanınmış incəsənət ustaları və bədii kollektivlərinin iştirakı ilə möhtəşəm konsert proqramı təqdim olunub.

"MDB ölkələrinin beynəlxalq kino günləri" layihəsinin açılışı isə şəhərdəki "Laçın" kinoteatrında olub. Mərasimə doğma yurda qayıtmış laçınlı kinosevərlər həvəslə qatılıblar. Dövlət Film Fondunun şöbə müdiri Rəşad Qasımov çıxışında Laçında keçirilən ilk beynəlxalq kino tədbirinin əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, 3 gün davam edəcək kino günlərində 7 ölkədən 8 film nümayiş etdiriləcək.

Sonra tədbir iştirakçıları Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə rayondakı "Hoçazfilm" kinostudiyasında istehsal olunmuş "Laçın, qubernator və mən" (rejissor: Amil Amal) sənədli filmini izləyiblər. Ekran işi Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun həyatı və siyasi fəaliyyətini özündə əks etdirir.

Nümayişdən sonra filmin rejissoru Amil Amal ekran əsərinin ərsəyə gəlməsinə və tədbirin təşkilinə görə bütün qurumlara təşəkkürünü bildirib.

Həmin gün kinosevərlər "Nabat" (rejissor: Rəşid Süleymanov, Qazaxıstan) və "Esimde" (rejissor: Aktan Arım Kubat, Qırğızıstan) filmlərini izləyiblər.

Qeyd edək ki, "MDB ölkələrinin beynəlxalq kino günləri" bu gün başa çatacaq.

***Ə.ƏLİYEV***
***XQ***

# Bəylikdə tənha şəhid məzarı



**Əslən Qərbi Azərbaycanın Zəngəzur mahalından olan bir qrup ziyalı Laçın rayonunun Bəylik kəndində tənha şəhid məzarı üzərinə gül-çiçək dəstələri qoyaraq xatirəsini ehtiramla yad edib, Azərbaycanın müstəqilliyi, dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini ehtiramla anıb.**

"Hərbi Mövzular üzrə İxtisaslaşmış Jurnalistlər" İctimai Birliyinin sədri Tamxil Ziyəddinoğlu mərasimin "Qərbi azərbaycanlı repressiya və soyqırımı qurbanlarının tədqiqi" layihəsi çərçivəsində həyata keçirildiyini bildirib. 1988-ci ildən bəri ata yurduna ayaq basa bilməyən şair və yazıçılardan Ramazan Səməroğlu köhnə yurdda yenidən məskunlaşan laçınlıları bu mübarək məqam münasibəti ilə ürəkdən təbrik edib və xalqımıza illərlə vurulan yaraların çox dərin olduğunu, buna görə də hər sevinəndə, hər güləndə o yaraların sızladığını vurğulayıb.

Şair Zöhrə Xəlili doğulduğu Zəngəzur mahalının həsrətilə qovrulduğunu, düz 32 il, Qarabağ işğaldan azad edilənə qədər həm də bu yurdun dərdini daşıdığını, onun ağrı-acısını çəkdiyini, millətin, Vətənin dərdini öz dərdi bildiyini deyib. Ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı, yazıçı-publisist Elman Rüstəmov Qarabağda camaat üçün hər bir kommunal şəraiti olan evlərin tikilməsindən məmnunluğunu ifadə edib. Yeni məskunlaşma zamanı da müəyyən müddət çətinliklərin olacağına və problemlərin davamlı olaraq aradan qaldırılacağına əminliyini diqqətə çatdırıb.

Fəal ictimaiyyətçi, bir neçə kitabın, 300-dən çox elmi-publisistik məqalənin müəllifi, Ombudsman aparatının işçisi Azadə Novruzova, doğma ocaqlarına qayıdan Bəylik kəndlilərindən Oktay İsmayılov, Qərib Səlimov, Asif İsayev, Şahin İsgəndərov, Sadiq Məmmədov və başqaları 33 il Laçınsız yaşadıqlarından Vətən həsrətinin nə qədər acı olduğunu yaxşı bildiklərini və bir gün Qərbi azərbaycanlıların da onlar kimi öz doğma ocaqlarına qayıdacaqlarını ifadə ediblər.

Mərasim iştirakçılarına son əsrdə ildə xalqımıza vurulan maddi və mənəvi zərərlərin əks olunduğu bukletlər paylanıb. Eyni zamanda, müəlliflər öz kitablarını görüşə gələnlərə hədiyyə ediblər. Xatirə şəkilləri çəkdirilib.

***XQ***

BEYNƏLXALQ HƏYAT

# Qərb Ukraynanın arxasında möhkəm dayanıb

**Müharibənin davam etdiyi, tərəflərin hücum və müdafiə əməliyyatlarını genişləndirdiyi bir vaxtda Qərb ölkələri Kiyevin döyüş qabiliyyətini qorumaq və gücləndirmək üçün maliyyə, texniki və texnoloji imkanlarını səfərbər etməyə hazırlaşır.**



Cəbhədə vəziyyət gərgin olaraq qalır. Rusiya qoşunları bir çox istiqamətlərdə hücumu davam etdirir, Ukrayna isə əks-hücumlara çalışır və Rusiyanın dərinliklərinə pilotsuz uçuş aparatları göndərir. Rusiya Müdafiə Nazirliyinin məlumatına görə, son günlərdə yüzlərlə dron zərərsizləşdirilib, beş iri hava limanının fəaliyyəti dayandırılıb, sənaye obyektlərində fövqəladə hallar qeydə alınıb. Xüsusilə Novoşaxtinsk zavodunda baş verən yanğın uzun müddət davam edib və şəhərin su təchizatı müvəqqəti dayandırılıb.

Ukrayna rəhbərliyi isə bildirir ki, hücumlar yalnız PUA-larla məhdudlaşmayacaq. Prezident Vladimir Zelenski bəyan edib ki, uzaqmənzilli raketlər də istifadə olunacaq və ABŞ-ın bu məsələdə hər hansı məhdudiyyət qoymadığını söyləyib. Onun sözlərinə görə, Ukrayna həm öz istehsalı olan, həm də müttəfiqlərin dəstəyi ilə hazırlanmış raketləri tətbiq etməyə hazırdır. Məlumata görə, "Neptun" raketi modernizasiya edilərək artıq 1000 kilometrə qədər məsafəyə uçmaq gücünə malikdir. Digər tərəfdən, "Flamingo" adlı yeni raketin də sınaqları davam edir və onun istehsalının yaxın aylarda artırılması planlaşdırılır.

Maliyyə dəstəyi məsələsində Avropa ölkələri öhdəliklərini bir daha təsdiqləyir. Almaniya 2025-ci ildə 8,3 milyard avro, 2026–2027-ci illərdə isə 17 milyard avro ayıracaq. Bu, Almaniyanı ABŞ-dan sonra Ukraynanın ən böyük dəstəkçisi edir. Norveç də 8,45 milyard dollar dəyərində yardım paketi elan edib və "Patriot" zenit-raket komplekslərinin maliyyələşdirilməsinə qoşulub. Kanada Ukrayna ilə birgə ABŞ istehsalı olan hərbi texnikanın alınmasını maliyyələşdirəcək, dron istehsalında əməkdaşlıq edəcək. Ukrayna ilə İsveç arasında birgə istehsal layihələri barədə razılaşma imzalanıb.

Ukraynanın üstünlük qazandığı əsas sahələrdən biri süni intellektin döyüş idarəçiliyində tətbiqidir. "Delta" adlı komanda-idarəetmə sistemi artıq süni intellekt modulları ilə işləyir. Bu, məlumatların daha sürətli emalı, əməliyyatların planlaşdırılması və qərarların qəbulunda çeviklik yaradır. Ukrayna həm də süni intellekt ilə təchiz edilmiş pilotsuz uçuş aparatları, yarıavtonom quru platformaları, dəniz dronları, radioelektron müharibə sistemləri və informasiya əməliyyatları sahəsində yeniliklər sınaqdan keçirir. Ekspertlər hesab edirlər ki, bu, ənənəvi say üstünlüyünün əhəmiyyətini azaldır və döyüş meydanında yeni balans yaradır.

Bu təcrübə artıq NATO ölkələrinin də diqqətini çəkib. ABŞ prezidenti Donald Tramp Ukraynanın texnologiya nailiyyətlərini maraqla izlədiyini bildirib. Pentaqonun Ukrayna sistemlərini öyrənmək niyyətində olduğu qeyd olunur. Xüsusilə "Delta" sistemi Qərb üçün maraq doğurur, çünki bu, real vaxtda əməliyyatların koordinasiyasını asanlaşdırır.

Qərb ölkələrinin niyyəti yalnız müharibə dövrü ilə məhdudlaşmır. "Financial Times" yazır ki, Qərbdə Ukraynanın gələcək təhlükəsizlik arxitekturası üzrə planlar hazırlanır. Bu plan üç səviyyəli müdafiə xəttini nəzərdə tutur: neytral qüvvələrin patrul edəcəyi demilitarizasiya zonası, NATO tərəfindən silahlandırılmış Ukrayna ordusu və arxada yerləşdiriləcək Avropa qüvvələri. Lakin belə bir plan yalnız ABŞ-ın dəstəyi ilə reallaşa bilər və Vaşinqton öz qoşunlarını Ukraynada yerləşdirməyə hazır olmadığını açıq bildirir.

Bütün bu proseslər fonunda Rusiya Müdafiə Nazirliyi öz infrastrukturunun müdafiəsini və təminatını gücləndirməyə çalışır. Müdafiə naziri Andrey Belousovun rəhbərliyi ilə keçirilən iclasda hərbi obyektlərin qışa hazırlığı, o cümlədən Şimal Donanması və digər bölmələrin ehtiyacları müzakirə olunub.

Beləliklə, Ukrayna müharibəsi artıq klassik hərbi mübarizədən kənara çıxaraq yüksək texnologiyaların sınaq meydanına çevrilir. Süni intellektin tətbiqi, dronların kütləvi istifadəsi və uzaqmənzilli raketlərin istehsalı yeni strateji reallıq yaradır. Avropa və ABŞ-ın maliyyə və texniki dəstəyi Kiyevin davamlı müqavimətini təmin edir. Eyni zamanda, sülh danışıqlarının perspektivləri daha mürəkkəbləşir, çünki Qərbin dəstəklədiyi yeni müdafiə planları Ukraynanı gələcəkdə də güclü tərəf kimi masaya oturtmağı hədəfləyir.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Paşinyan əsas qanunda dəyişikliyə israrlıdır

## *Baş nazir bunun istənilən halda baş verəcəyini deyir*

**(əvvəli 1-ci səhifədə)**

Bu məsələ cəmiyyət daxilində də ciddi müzakirələr doğurur və müxtəlif təbəqələrdən fərqli reaksiyalar gəlir. Xüsusilə ölkəmizə ərazi iddialarına əsas verən müddəaların yeni konstitusiya layihəsindən çıxarılması mübahisələrin əsas səbəblərindəndir.

Ölkənin baş naziri Nikol Paşinyan bir neçə gün öncə jurnalistlərlə söhbətində yeni konstitusiya məsələsinə aydınlıq gətirib. Bildirib ki, hakimiyyətin yeni konstitusiyanın qəbulu ilə bağlı gündəliyi var: "Mən son tarix kimi 2027-ci ili göstərmişəm, biz hazırda layihə üzərində işləyirik və o hazır olanda referendum keçirəcəyik". Paşinyan 2026-cı ildə keçiriləcək parlament seçkilərində erməni xalqının sülh istəyənlərlə sülh istəməyənlər arasında seçim etməli olacağını bildirib.




Nikol həmçinin bəyan edib ki, lazım gələrsə, ölkənin əsas qanununa dəyişiklik edilməsi ilə bağlı qərar veriləcək və bunun istənilən halda, hətta Konstitusiya Məhkəməsi tərəfindən maneələr olacağı təqdirdə belə, baş verəcəyini açıq şəkildə ifadə edib: "Əgər bizim Konstitusiya Məhkəməsi ratifikasiya prosesində Azərbaycanla indi paraflanmış və sonradan imzalanacaq sülh sazişinin Konstitusiyaya zidd olduğuna qərar verərsə, şəxsən mən əsas qanuna əlavə və dəyişikliklərin təşəbbüskarı olacağam. İndi bu barədə düşünməyə ehtiyac yoxdur".

Paşinyanın Ermənistan hökumətinin Azərbaycanla sülh sazişi ilə bağlı mövcud baxışını faktiki olaraq bu şəkildə dilə gətirməsi, Konstitusiya Məhkəməsi ilə bağlı verdiyi bu aydın bəyanatlar əsassız deyil. Xatırladaq ki, bir müddət əvvəl qurumun sədri Arman Dilanyan "Azadlıq" radiosunun erməni xidmətinə müsahibəsində Ermənistanın əsas qanununda, guya nəinki Azərbaycana, heç bir digər ölkəyə ərazi iddialarının olmadığını bildirərək Bakının iddiasını "yalan" adlandırmışdı. Diqqətçəkən odur ki, Dilanyanın bu bəyanatları Paşinyanın Ermənistanın yeni konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını özündə əks etdirən Müstəqillik Bəyannaməsinə istinadın olmaması barədə sözlərindən dərhal sonra verilmişdi.

***

Qeyd etdiyimiz kimi, Ermənistan siyasi gündəmində konstitusiyaya dəyişikliklər məsələsi yalnız daxili idarəçilik baxımından deyil, həm də Azərbaycanla sülh prosesi və bütövlükdə, regional sabitlik və sülhlə bağlı strateji əhəmiyyət daşıyır. N.Paşinyanın son açıqlamaları göstərir ki, hökumət bu prosesi uzunmüddətli plan kimi görür və məqsəd sadəcə formal dəyişikliklər aparmaq deyil, ölkənin yeni reallıqlara uyğunlaşdırılmasıdır. Paşinyanın sözlərinə görə, referendumun keçirilməsi və konstitusiya layihəsinin hazırlanması 2027-ci ilə qədər nəzərdə tutulur. Ən mühüm məqam isə onun verdiyi açıq bəyanatdır: əgər Konstitusiya Məhkəməsi sülh sazişini əsas qanunazidd hesab etsə belə, hökumət konstitusiyada dəyişiklik təşəbbüsü ilə çıxış edəcək. Bu, Paşinyanın məsələni yarımçıq buraxmaq niyyətində olmadığını göstərir. Əslində, bu yanaşma məntiqi və ardıcıl görünür. Ermənistan və Azərbaycan bu gün sülh sazişinin imzalanması ilə bağlı həlledici mərhələyə qədəm qoyub. Dövlətin ali qanunu isə ölkənin gələcək kursunu müəyyənləşdirən siyasi sənəddir. Əgər konstitusiyada mübahisəli məqamlar qalacaqsa və onlar beynəlxalq hüquqa uyğun sülh sazişinin imzalanmasına mane olacaqsa, onda Ermənistanla sülhün əldə edilməsi, ölkənin regionda normal mövqeyə sahib olması mümkünsüzləşəcək. Paşinyan bunu anlayır və açıq şəkildə bildirir ki, istənilən halda ölkəsi yeni reallıqlara uyğunlaşdırılmalıdır.

Bütövlükdə, Nikol Paşinyanın verdiyi açıqlamalardan gəlinən qənaət bundan ibarətdir ki, birincisi, Ermənistan hökuməti Azərbaycanla sülh sazişi imzalamaqda qərarlıdır. Bu isə öz növbəsində o deməkdir ki, rəsmi İrəvan Bakının Ermənistan konstitusiyasına zəruri düzəlişlərin edilməsi ilə bağlı əsas tələbini yerinə yetirməyə hazırdır. Bundan əlavə, Paşinyan açıq şəkildə bildirdi ki, ölkənin əsas qanununa müvafiq dəyişikliklərin edilməsi ilə bağlı qərarın verilməsində sonuncu və yeganə səlahiyyət sahibi Konstitusiya Məhkəməsi deyil, şəxsən özü olacaq. Yeri gəlmişkən, Paşinyan bu ilin mayında "İrəvan dialoqu" beynəlxalq forumu zamanı da bənzər fikirlər səsləndirmişdi. Bildirmişdi ki, Ermənistan qanunvericiliyinə görə, saziş Konstitusiya Məhkəməsi tərəfindən təsdiqlənməlidir: "Əgər Konstitusiya Məhkəməsi mətnin konstitusiyaya uyğun olmadığına qərar verərsə, Ermənistanda qeyri-adi vəziyyət yaranacaq. Ermənistanın və mənim mövqeyim necə olacaq? Bu zaman mən konstitusiya islahatlarına başlamaq təşəbbüsü qaldıracam. Çünki sülh prosesini və sazişini əldən buraxmaq olmaz. Hərçənd deməliyəm ki, Ermənistan və Azərbaycan sərhədlərinin demarkasiyası və delimitasiyası üzrə komissiyaların prosedur qaydaları ilə bağlı Konstitusiya Məhkəməsinin əvvəlki qərarından sonra onun başqa cür qərar qəbul etməsi az inandırıcıdır".

Digər tərəfdən Konstitusiya Məhkəməsinin sədri Arman Dilanyanın açıqlamaları ziddiyyətli və əslində, qeyri-ciddi təsir bağışlayır. Onun "Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları yoxdur" deməsi həqiqəti əks etdirmir. Çünki Ermənistanın əsas qanununa istinad edən müddəalarda Müstəqillik Bəyannaməsi xüsusi yer tutur və bu sənəddə açıq şəkildə Qarabağla bağlı iddialar qeyd olunub. Yəni bu, sadəcə hüquqi incəlik deyil, konkret siyasi məna daşıyan məsələdir. Dilanyanın dedikləri ilə Paşinyanın mövqeyi arasındakı fərq də buradan qaynaqlanır. Məhkəmə sədri mövcud problemləri görməzdən gəlir, Paşinyan isə onları həll etməyin yollarını göstərir.

Paşinyanın dediyi "əgər Konstitusiya Məhkəməsi sülh sazişinə mane olarsa, dəyişiklik təşəbbüsü ilə çıxış edəcəyəm" fikri düzgün yanaşmadır. Çünki Ermənistan rəhbərliyi hazırda tarixi seçim qarşısındadır: ya qonşularla normal münasibətlər quraraq ölkəni təcrid vəziyyətindən çıxarmaq, ya da köhnə düşüncə tərzi və əsassız iddialar üzündən daimi böhran içində qalmaq. Baş nazir açıq şəkildə birinci variantı seçdiyini ortaya qoyur. Bu, həm də siyasi cəsarət tələb edən addımdır. Çünki bilirik ki, Ermənistanda heç də zəif olmayan radikal revanşist dairələr hələ də əsassız ərazi iddialarını siyasi alət kimi qorumaq niyyətindədirlər.

Konstitusiya Məhkəməsi isə obyektiv mövqe sərgiləmək əvəzinə, populist açıqlamalarla gündəm formalaşdırmağa çalışır. Əgər məhkəmə həqiqətən də müstəqil hüquqi qurum kimi çıxış etsəydi, onda konstitusiyada ərazi iddialarının dolayı yolla əks olunmasını görməli idi. Lakin sədr Dilanyan bu gerçəyi inkar edir, nəticədə həm Ermənistan cəmiyyətinə, həm də beynəlxalq aləmə yanlış mesaj ötürür. Bu isə ölkənin hüquq sisteminə etimadı daha da zəiflədir.

***S.NAZİMOĞLU***
***XQ***

# Şəhid ailələrinin istəyi gerçəkləşdi



**Goranboy rayonunun Səfikürd kəndində illərin tozlu-palçıqlı yolları artıq tarixə çevrilir. Goranboy–Aşağı Ağcakənd avtomobil yolundan Səfikürd orta məktəbinə gedən yola asfalt örtük çəkilməsi kəndə yeni nəfəs gətirib. Bu yol bir məktəbə, bir binaya deyil – şəhidlərin böyüdüyü evlərə, onların oxuduğu siniflərə, ruhuna gedən yoldur.**

Yeni yolun çəkilişi Goranboy Rayon İcra Hakimiyyətinin təşəbbüsü, şəhid ailələrinin "Azəravtoyol" ASC rəhbərliyinə ünvanladığı müraciət və Səfikürd bələdiyyəsinin təşkilatçılığı nəticəsində gerçəkləşib. Bu, sadəcə bir infrastruktur layihəsi deyil - bu, vəfalı bir dövlətin, duyan bir rəhbərliyin xalqına verdiyi cavabdır.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev asfaltlanan yolun tamamlanmasından sonra kəndə gəldi. Yalnız yollar yox, könüllər də düzlənmişdi – başçı burada kənd sakinləri, şəhid ailələri, ağsaqqallar, ziyalılar və gənclərlə görüşdü, onlarla səmimi və dolğun söhbət etdi. Sevinən təkcə kəndlilər deyildi. Başçı özü də bu yolun çəkilməsinə şəhid ailələrinin sevincindən daha çox sevinirdi. O, sanki bu asfalt zolağında təkcə bir yol yox, həm də dövlətin və xalqın birliyini, hörmətini, övlad itkisinə göstərdiyi ehtiramı görürdü.

Sakinlər təşəkkürlərini dilə gətirdilər. Onların gözlərində minnətdarlıqla yanaşı, güvən və qürur da oxunurdu. Çünki bilirdilər - bu yol təkcə məktəbə deyil, həm də gələcəyə, yeni nəsillərin rahat təhsilinə, şəhidlərin xatirəsinə hörmətin yoludur. Onlar Prezident İlham Əliyevə, dövlət rəhbərliyinə minnətdarlıq etdilər – yalnız bu yol üçün deyil, vətəndaşın səsinə cavab verdikləri üçün.

Səfikürdün yeni yolu indi səssiz-səmirsiz danışır – hər addımda bir şəhid adı, hər qarışında bir minnət duyulur.

# Gəncəli uşaqların Şuşa rəsmləri



**Gəncə şəhərindəki Məhsəti Gəncəvi Mərkəzində Şuşanın mədəni və bədii irsinə həsr olunmuş "Şuşa təsviri sənətdə" kitabının təqdimatı keçirilib.**

Gəncə Şəhər İcra Hakimiyyətinin rəsmiləri, Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin nümayəndələri, tanınmış rəssamlar və mədəniyyət xadimlərinin iştirak etdikləri mərasimdə vurğulanıb ki, bu kitab yalnız bir sənət albomu deyil, həm də Azərbaycan ruhunun, tarixinin və milli kimliyinin incəsənətdəki təcəssümüdür. Şuşa Azərbaycan mədəniyyətinin beşiyi, Qarabağın ürəyi kimi əsrlər boyu rəssamların ilham mənbəyi olub. Qala divarları, daş küçələri, məscidlər, təbiətin əzəməti və dağların qoynunda yüksələn şəhər silueti milli təsviri sənətdə özünəməxsus yer tutur. Kitaba daxil edilən əsərlər arasında Gəncədə yaşayıb-yaradan rəssamların da işləri yer alıb və bu da Gəncə ilə Şuşa arasındakı mənəvi bağların təsdiqi baxımından önəmlidir.

Mərasimdə Azərbaycan Rəssamlar İttifaqına yeni üzv seçilmiş gənclərə vəsiqələr təqdim olunub. Onlara gələcək yaradıcılıq fəaliyyətlərində uğurlar arzulanıb.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Borçalının Armudlu kəndində gənclərin "Yay düşərgəsi"



**Diasporla İş üzrə Dövlət Komitəsinin layihələri çərçivəsində Borçalının Dmanisi bələdiyyəsinin Armudlu (Pantiani) kəndində gənclər üçün "Yay düşərgəsi" təşkil edilib. Avqustun 25-28-ni əhatə edən tədbir Dmanisi Tədris Mərkəzinin təşkilatçılığı, Marneuli, Rustavi, Laqodexi, Bolnisi, Qardabani, Saqareco və Dmanisidəki mərkəzlərin 25 müdaviminin iştirakı ilə keçirilir. Düşərgə Armudlu gölü ətrafındakı dağ və meşə landşaftında yerləşir.**

İştirakçılar bölgənin tarixi abidələrini və mədəniyyət ocaqlarını ziyarət edir, dövlətçilik ənənələri və diasporla əlaqələrin inkişafı barədə ətraflı məlumat alır, əyləncəli proqramlarda, intellektual oyunlarda və təlimlərdə iştirak edərək bilik və bacarıqlarını inkişaf etdirirlər. Gənclər Tbilisidəki Heydər Əliyev Parkına da baş çəkib, Ümummilli liderin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Düşərgənin açılışında çıxış edən Dmanisi Tədris Mərkəzinin rəhbəri Kamran Xıdırov bu təşəbbüsün gənclər üçün önəmini vurğulayıb, onların düşərgə müddətində yeni dostluqlar qazandıqlarını, Azərbaycan dili dərslərində, yarış və oyunlarda fəal iştirak etdiklərini bildirib.

Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin məsul əməkdaşı Sabit Məmmədov sədr Fuad Muradovun salamlarını tədbir iştirakçılarına çatdıraraq deyib ki, komitənin həyata keçirdiyi layihələr çərçivəsində gənclərin təhsili və inkişafı prioritet istiqamətlərdəndir. O, Azərbaycan-Gürcüstan dostluq münasibətlərinin tarixinə toxunaraq, ulu öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində bu əlaqələrin müstəqillik dövründə daha da möhkəmləndiyini vurğulayıb.

Tarixçi Alxan Məmmədov "Gürcüstan azərbaycanlılarının tarixi" mövzusunda iştirakçılara mühazirə oxuyub.

***P.ƏMİRCANOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 181 (30875) 28 avqust 2025-ci il, cümə axşamı

# Qələbəyə bərabər “məğlubiyyət”

## “Qarabağ”ın zəfər yürüşü davam edir



**“Qarabağ” Bakıda Macarıstanın “Ferensvaroş” klubunu qəbul edir. Bu, Azərbaycan təmsilçisi üçün Çempionlar Liqasının qrup mərhələsinə adlamaqda həlledici qarşılaşma olacaq. İlk görüş kifayət qədər sensasiyalı, 1:3 hesabı ilə “Qarabağ”ın xeyrinə başa çatdı. Bu da Çempionlar Liqasını Azərbaycanda görmək ehtimalı xeyli yüksədir. “Qarabağ”ın sadiq çalışdırıcısı Qurban Qurbanov karyerasında ikinci dəfə klubu ilə Avropanın ən yaxşı turnirinin əsas mərhələsinin bir addımlığına çatıb və bu addımı da əzmlə atmaqda qərarlı görünürdü.**

“Qarabağ” futbol klubu azarkeşlərinin, eləcə də bütün Azərbaycan futbolsevərlərinin səbirsizliklə gözlədiyi matçın start fiti verilməmişdən əvvəl müəyyən təhlillər aparmaq və rəqib “Ferensvaroş”un evdə rüsvayçı məğlubiyyətinin Bakıda qarşılığını verə biləcəyinin nə qədər real olduğunu araşdırmaq qərarına gəldik. “Köhlən atlar”a nə qədər inansaq da, futbolda qanunauyğunluq əsla mümkün deyil.



Analitiklərin böyük əksəriyyətinin fikrincə, Azərbaycan klubu UEFA Çempionlar Liqasının təsnifat mərhələsinin cavab oyununda favorit hesab edilirdi. İlk oyunun nəticəsinin – 3:1 “Qarabağ”ın xeyrinə olduğunu və komandaların hazırkı vəziyyətini nəzərə alsaq, ən məqbul nəticə Azərbaycan futbol klubunun xeyrinə idi. Bu seçimi hər iki komandanın son matçlardakı çıxışının statistikası və macarların fanatların gözündə özlərini doğrultması üçün irəli şığıyıb riskə getməli olduğu qarşıdurmanın xarakteri də təsdiq edirdi.

“Qarabağ”ın matça səfərdə 3:1 hesablı qələbə ilə çıxması heç də onların bundan arxayın olacağına əsas vermirdi. Əslində bu üstünlük Azərbaycan klubunun cavab oyununa ehtiyatlı çıxacağını və rəqibə ciddi yanaşacağını deməyə əsas verirdi. Doğrudur, “Ferensvaroş” üçün vəziyyət kritikdir: Bu mərhələni adlamaq üçün macarlar ən azı, cavabsız 3 qol vurmalı, ya da daha yüksək hesabla qalib gəlməlidirlər. Bu vəzifə qonaqları hücumda mümkün qədər aqressiv oynamağa məcbur edəcək ki, bu da öz növbəsində “Qarabağ”a sürətli əks-hücumlar təşkil etməyə imkanlar yaradacaqdı.

Ötən qalibiyyət görüşündən yazarkən qeyd etdiyimiz kimi, “Qarabağ” Çempionlar Liqasında inanılmaz seriya nümayiş etdirir: komanda 10 oyundur heç-heçə nə olduğunu bilmir (7 qələbə, 3 məğlubiyyət), son 7 səfər matçının 5-də isə ən azı iki qol vurub. Doğma meydanda Qurban Qurbanovun komandası ənənəvi olaraq topa nəzarəti ələ ala bilir (orta hesabla 55 faiz topa sahiblik) və sürətli cinah hücumlarına arxalanaraq praqmatik hərəkət edir. Çempionlar Liqasının hazırkı püşkatmasında “Qarabağ” yalnız bir dəfə - əvvəlki mərhələdə “Şkendiya” ilə görüşdə qol buraxıb ki, bu da müdafiənin etibarlılığından xəbər verir.

“Ferensvaroş” isə 2025/26 avrokuboklarında qeyri-sabit nəticələr göstərib: komanda Çempionlar Liqasının son 9 matçının 7-də ən azı bir qol buraxıb, 8 oyunun 7-də isə hər hissədə ən azı bir qol vurub. Doğrudur, Macarıstan klubu hücumlarda yüksək intensivliyi ilə seçilir, lakin eyni zamanda tez-tez arxa cəbhəni də boş buraxır. Bunu statistika da təsdiqləyir: “Qarabağ”la son 3 oyunda macar klubu 7 qol buraxıb.

Şəxsi görüşlərin tarixinə gəldikdə isə, rəqiblər son üç ildə dörd dəfə üz-üzə gəlib. Balans “Qarabağ”ın xeyrinədir: iki qələbə, iki heç-heçə, məğlubiyyət yoxdur. Bu qarşılaşmaların hər birində qol nisbəti yüksək olub: orta hesabla azərbaycanlılar üçün hər oyuna 2,5, macarlar üçün isə 1,5 qol. Son iki qarşılaşmanın ikisi də 3:1 hesabı ilə “Qarabağ”ın xeyrinə başa çatıb.

Komandaların taktiki gedişlərinin təhlili göstərir ki, 4-5-1 sxemi ilə oynayacağı gözlənilən “Qarabağ”, bu qarşılaşmada yarımmüdafiəyə və müdafiədən hücuma sürətli keçidlərə daha çox diqqət yetirməli idi. Əsas fiqurlar, təbii ki, Zubir və Kadi olaraq qalırdı. Çünki onlar həm mövqe hücumu təşkil edə, həm də fərdi bacarıqla əks-hücumu tamamlaya bilirlər. “Köhlən atlar” müdafiədə kompakt hərəkət etməli, xətlər arasındakı boşluğu minimuma endirməyə çalışacaqdı.

Maraqlıdır ki, “Qarabağ” “Ferensvaroş”a 3:1 hesabı ilə qalib gəldikdən sonra beş oyunluq qələbə seriyasını kəsdi və Azərbaycan çempionatının ikinci mərhələsində “Sumqayıt”a uduzdu. Oyun öncəsi əsas heyətin bütün futbolçularına istirahət verən Qurban Qurbanova haqq qazandırmaq olardı, klub Çempionlar Liqasına fokuslanmışdı.

“Ferensvaroş”un böyük qüvvə ilə irəli getməyə məcbur olacağı ehtimalı real idi: Robbi Kin 2 hücumçu və aktiv cinahlardan ibarət sxemə üstünlük verəcəkdi. Bu, xüsusilə rəqibin sürətli əks-hücumları zamanı müdafiə xətaları ehtimalını artıracaqdı. Diqqətçəkən məqamlardan biri də, macarların ənənəvi olaraq çoxlu qayda pozuntusuna yol vermələri olacaqdı. Çünki “Qarabağ”la son 3 qarşılaşmada onlar 48 qayda pozuntusuna yol veriblər ki, bu da qarabağlıların işinə yarıya bilərdi. Çünki fransalı baş hakim Kleman Türpen kobud oyundan əsla xoşlanmır, əlbəttə əgər referi oyunu ədalətli idarə etsə, bu macarlar üçün əlavə təhlükələrə səbəb ola bilərdi.

Matç öncəsi hər iki komandanın əsas oyunçularının ciddi zədələnməsi ilə bağlı məlumat yox idi. Qurban Qurbanov meydana optimal heyəti çıxardı: Mateuş Koxalski, Mateus Silva, Bəhlul Mustafazadə, Kevin Medina, Elvin Cəfərquliyev, Kadi Borges, Pedro Bikalyo, Marko Yankoviç, Abdullah Zubir (k), Leandro Andrade və Nəriman Axundzadə.

Beləliklə, Bakının Tofiq Bəhramov adına Respublika Stadionunda baş hakim Kleman Türpenin fiti səslənir və matç başlayır.

Çempionlar Liqası seçim turlarında həmişə inamlı görünən Qurban Qurbanovun komandası bu dəfə ilk dəqiqələrdən ehtiyatlı oyun nümayiş etdirirdi. Onu başa düşmək çətin deyildi. Komandası Çempionlar Liqasının əsas mərhələsinin bir addımlığındaykən, başqa cür oynamaq olmazdı. “Köhlən atlar”ın balanslaşdırılmış oyunları ilk dəqiqədən diqqət çəkir: Qurbanovun komandası möhkəm müdafiə və hücuma sürətli keçidləri ilə yenə Robbi Kinin komandasına öz taktikalarına uyğun oyun nümayiş etdirməyə imkan vermirdilər.

Azərbaycan klubu müdafiədə etibarlıdır və rəqib qapısı yaxınlığındakı məqamları effektiv reallaşdırmağa çalışır. “Ferensvaroş” isə riskə getməyə və açılmağa məcburdur ki, bu da meydan sahiblərinə əlavə imkanlar yaradır.

Robbi Kinin komandası hücumlara nə qədər arxalansa da, onlar, həmişə olduğu kimi, səfərdə sabit oynaya bilmirlər. Macarlar risk edib açıq oynamağa çalışalar da, meydan sahiblərinin əzmkarlığı onları məyus edirdi. Amma bu qarşılaşmaya onlar çox qəzəbli çıxmışdılar.

Oyunun 7-ci dəqiqəsində Nəriman Axundzadə Kadinin cərimə meydançasının sol küncündə aldığı ötürməni qola çevirməyə çox yaxın oldu. Macarların əsl mənada bəxti gətirdi.

10-cu dəqiqədə isə qapıçımız Mateus Koxalski rəqibinə təkbətək çıxmağa fürsət verməyib təhlükəli vəziyyəti qapısından uzaqlaşdırdı. 12-ci dəqiqədə isə macarlar topu qapımızdan keçirməyə nail oldular. Bax, buna imkan verməк olmazdı. Köməkçi hakim bayrağı qaldırıb oyundankənar vəziyyət qeydə alsa da, VAR işə qarışandan sonra qol hesaba alındı – 0-1 “Ferensvaroş” irəli çıxdı.

Robbi Kinin sevinci cəmi 15 dəqiqə çəkdi. Nəriman Axundzadə kapitanı Zubirdən aldığı ötürməni rəqibin cərimə meydançasına qədər aparıb macar oyunçunu əla fəndlə aldatdı və tou qapı ilə üz-üzə duran Leandro Andradeyə atdı. Hücumçumuz da bir fəndlə rəqib müdafiəçini aldadıb güclü zərbə ilə topu qapıdan keçirdi – 1-1.

Bundan sonra “Qarabağ”ın oyunçuları daha kəskin hücumlara başladılar və rəqib qapısı qarşısında ən azı 2-3 təhlükəli vəziyyət yaratdılar. 43-cü dəqiqədə Kadi rəqib qapısının 22-23 metrliyindən vurduğu cərimə zərbəsi ilə qola yaxın oldu. Top qapı dirəyindən azacıq aralı keçdi. Amma çox keçmədi ki, komandamızın kapitanı Zubir, ilk qolun müəllifi Andradedən cərimə meydançadan aldığı əla ötürməni elə o səviyyədə qola çevirdi – 2-1. “Qarabağ” zəfərə bir addım da yaxınlaşdı. İndi “Ferensvaroş” istəyinə çatmaq üçün “köhlən atlar”ın qapısından 4 cavabsız top keçirməli idi. Bu isə elə də əlçatan görünmürdü. Komandalar elə bu hesabla da fasiləyə yollandılar.

İkinci hissə “Qarabağ”ın kəskin hücumları ilə başladı, amma qonaqlar da onlardan geri qalmaq istəmir və əzmkar oyun nümayiş etdirirdilər. Tez-tez əks-hücumlar təşkil edən Robbi Kinin yetirmələri nəhayət 53-cü dəqiqədə istəklərinə nail oldular. Əks-hücuma keçən macarların oyunçusunu Kevin Medina cərimə meydançasında kobud fəndlə aldı. Hakim Kleman Türpen 11 metrlik nöqtəni göstərdi. Topa ilk oyunda “Qarabağ”ın qapısına qol vuran Barnabaş Varqa yaxınlaşdı. Onun güclü və aldadıcı zərbəsi qarşısında qapıçımız aciz qaldı. Beləcə, görüşün 55-ci dəqiqəsində “Ferensvaroş”un forvardı penaltidən fərqlənib hesabı bərabərləşdirdi –2-2.

Oyunun 72-ci dəqiqəsində topla sürətlə Yankoviç rəqib qapıçısı ilə az qala təkbətək çıxacaqdı. Topu qapıçı ilə üz-üzə qalacaq komanda yoldaşına verməkdə xəsislik etdi, amma özü də topu çərçivədən kənara vurdu.

82-ci dəqiqə yenə müdafiəçilərimizin kobud oyunundan sonra qapımıza cərimə zərbəsi təyin edildi. Bu dəfə də 30-35 metrdən rəqibin oyunçusu, oyunda əla seyvləri ilə yadda qalan Mateuş Koxalskinin irəli çıxmasından istifadə edib topu düz qapının doqquzluğuna göndərdi. Bu, artıq həyəcan siqnalı idi.

Rəqib dayanmaq bilmirdi. Qurban Qurbanov yeni qüvvələrlə oyunda üstünlüyü komandasının xeyrinə dəyişmək istədi. 87-ci dəqiqədə isə qapıçımız sözün əsl mənasında bəlkə də komandasının xilaskarına çevrildi. Rəqibin bir neçə metrdən başla vurduğu topu son anda dəf edə bildi.

Hakimin oyuna əlavə etdiyi son 5 dəqiqə başlayır. Və son 2 dəqiqə də başa çatır. Nəhayət, Kleman Türpen final fitini səsləndirir. Beləcə, “Qarabağ” öz meydanında 3-2 məğlub olsa da, ümumi hesabda 5-4 hesabla Çempionlar Liqasında yoluna davam edir. Əhsən “Qarabağ”! Sən həqiqətən bu qələbəyə layiqsən.

***İlqar RÜSTƏMOV***
***XQ***

# İDMAN

## Üç cüdoçumuz 1/4 finalda



**Bolqarıstanın paytaxtı Sofiyada keçirilən dünya çempionatında Azərbaycanın üç yeniyetmə cüdoçusu 1/4 finala yüksəlib. Xədicə Abdullayeva və Gülşən Hüseynova (hər ikisi 44 kq) iki qarşılaşmada qalib gələrək bu raunda vəsiqə əldə ediblər.**

50 kq çəki dərəcəsində çıxış edən Anar Quliyev 1/8 finalda Ermənistan cüdoçusu Narek Davtyana qalib gəlib.

Rza Xəlilli (50 kq) və Rəsul Əlizadə (55 kq) 1/16 finalda məğlub olublar. Məhəmmədəli Hüsiyev (55 kq) isə 1/16 finalda qalib gələrək mərhələ adlayıb.

Qeyd edək ki, dünya çempionatında fərdi mübarizə avqustun 30-da bitəcək. Avqustun 31-də qarışıq komanda yarışları başlayacaq.

## Kartinq üzrə beynəlxalq turnirin qalibi

**Azərbaycanlı pilot Davin Cəfərov Portuqaliyanın Palmela şəhərində keçirilən kartinq üzrə beynəlxalq “Easy-kart Portugal Trophy” turnirində uğurla çıxış edib.**



İdmançı uzunluğu 1270, eni 10 metr olan Beynəlxalq Kartodromo de Palmela trekində TaG Livre 125 kateqoriyası üzrə 140 xalla birinci olub.

Turnirdə Fransa, Böyük Britaniya, İspaniya, Portuqaliya, Anqola və Cənubi Afrika Respublikasından olan pilotlar iştirak ediblər.

Qeyd edək ki, D.Cəfərov oktyabrda İtaliyada keçiriləcək X30 kateqoriyasında “World Grand Final”da iştirak edəcək. O qitə çempionatında “BirelAreti” komandasının tərkibində Portuqaliyanı təmsil edəcək.

## “Kayrat”dan əzmkar qələbə

**Cari mövsüm Çempionlar Liqasının qrup mərhələsində 3 yeni komanda iştirak edəcək. Avqustun 26-da keçirilən cavab qarşılaşmasında “Kayrat” (Qazaxıstan) “Seltik” Şotlandiya üzərində (3:2) qazandığı qələbə sayəsində Çempionlar Liqasının qrup mərhələsində iştirak hüququ qazanıb.**



Qazaxıstan təmsilçiləri ilə bərabər “Pafos” (Kipr) və “Budyo-Qlimt” (Norveç ) kollektivləri də tarixlərində ilk dəfə turnirin əsas mərhələsinə vəsiqə qazanıblar. Onlar müvafiq olaraq, “Srvena Zvezda” (Serbiya) və “Şturm Qrats”ı (Avstriya) mübarizədən kənarlaşdırıblar.

***Qabil YUSİFOĞLU***
***XQ***

# HAVA

## Bakıda hava küləkli, cənub zonasında isə yağış və dolu

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 20-24, gündüz 27-30 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 45-55 faiz təşkil edəcək.**



Azərbaycanın rayonlarında havanın, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər Lənkəran–Astara zonasının bəzi yerlərində qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-26, gündüz 34-39, dağlarda gecə 12-17, gündüz 24-29 dərəcə isti olacağı ehtimal edilir.

Qeyd edək ki, ölkə ərazisində müşahidə olunan küləkli hava şəraitinin avqustun 29-u gündüzədək davam edəcəyi gözlənilir.

***Q.ƏLİYEV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3601
SİFARİŞ 1732
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00